9 Noyabr Dövlət Bayrağı Günüdür

RƏSMİ DÖVLƏT QƏZETİ


AZƏRBAYCAN

№ 207 (10227) 9 noyabr 2026-cı il BAZAR ERTƏSİ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 8 Noyabr - Zəfər Günü münasibətilə Xankəndi şəhərində Zəfər abidəsini ziyarət edərək önünə əklil qoydu. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edib.

Prezident İlham Əliyevin Zəfər Günü münasibətilə Azərbaycan xalqına təbriki

- Mən əziz xalqımı Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan Silahlı Qüvvələrini təbrik edirəm.

Vətən müharibəsində şəhid olmuş əsgər və zabitlərimizin ruhu şad olsun. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların canı-qanı bahasına, hərbçilərimizin qəhrəmanlığı nəticəsində biz erməni işğalına son qoya bildik. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində qəhrəmanlıq, rəşadət, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Düşmənin beli döyüş meydanında qırıldı. 44 günlük Vətən müharibəsində 300-dən çox şəhər və kənd döyüş meydanında düşməndən azad edildi. O yaşayış məntəqələrində Azərbaycan bayrağı qaldırıldı və bunun nəticəsində noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, o vaxt döyüş meydanında hələ azad olunmamış ərazilər də Azərbaycana qaytarıldı, bir güllə atılmadan, bir şəhid vermədən.

44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Biz haqlı olaraq bu Zəfərlə fəxr edirik. Bütün Azərbaycan xalqı fəxr edir. Gələcək nəsillər də fəxr edəcəklər. Bu şanlı tarix bizim qəlbimizdə əbədi yaşayacaq.

Vətən müharibəsində Azərbaycan xalqı öz mənəvi keyfiyyətlərini bütün dünyaya nümayiş etdirdi. Ermənistan işğal edilmiş ərazilərdə bir neçə istehkam qurmuşdur. Bəzi yerlərdə 6-7 müdafiə xətti qurulmuşdu. Bütün yerlər minalanmışdır. Tikanlı məftil, istehkamlar, əlverişli mövqelər, təpələr, dağlar - bütün bunlar bizim üçün böyük çətinliklər yaradırdı. Ermənistan tərəfi əmin idi ki, Azərbaycan öz torpaqlarını hərbi yolla azad edə bilməyəcək, yaxud da ki, kimsə bizə bu icazəni verməyəcək. Onlar səhv etdilər və Azərbaycan xalqı bir daha bütün dünyaya nə qədər böyük xalq olduğunu göstərdi. Bizim əsgər və zabitlərimiz müdafiə xətlərini yarmaq üçün sinələrini qabağa verib şəhid olmuşlar, yaralanmışlar, şəhadət zirvəsinə ucalmışlar. Yəni bizi irəliyə aparan milli ruhumuz idi.

Təbii ki, uzun illər ərzində ordu quruculuğu, Silahlı Qüvvələrimizin peşəkarlığının artırılması, müntəzəm olaraq hərbi təlimlərin keçirilməsi, döyüş qabiliyyətinin artırılması, ordumuzun müasir texnika ilə, silahlarla təchiz edilməsi amilləri Qələbəmizin qazanılmasında böyük rol oynamışdır. Amma Qələbəyə aparan əsas yol xalqımızın, əsgər və zabitlərimizin ürəyindən keçirdi. Bizi irəliyə aparan yol ləyaqət yolu idi. Azərbaycan xalqı heç vaxt işğalla barışmaq fikrində deyildi. Mən işğal dövründə dəfələrlə müxtəlif tədbirlərdə açıq bəyan edirdim ki, Azərbaycan işğalla barışmayacaq. Baxmayaraq ki, Ermənistanın arxasında dayanan ölkələr bizi bu işğalla barışdırmaq istəyirdilər. Dəfələrlə bildirirdilər ki, bu münaqişənin hərbi həlli yoxdur. Dəfələrlə bizi qəbuledilməz güzəştlərə sövq etmək üçün müxtəlif fitnələr törədirdilər.

2



ƏBƏDİ VƏ SARSILMAZ AZƏRBAYCAN-TÜRKİYƏ BİRLİYİ

İLHAM ƏLİYEV:

Bizim birliyimiz, qardaşlığımız sarsılmazdır. Bunu sarsıtmaq istəyənlər isə öz arzularına heç vaxt çatmayacaqlar. Onların arzuları onların gözlərində qalacaq. Biz - iki xalq, ilk növbədə iki lider bu sərvəti qoruyuruq və heç kimə imkan vermərik ki, bizim aramıza girsin, yaxud da öz şəxsi maraqları naminə bizim birliyimizə, qardaşlığımıza, həmrəyliyimizə kölgə salsın.

Bu gün Türkiyə dövləti əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə böyük gücə çevrilib, dünya miqyasında böyük gücdür. Nəinki bölgədə gedən proseslərdə, eyni zamanda dünya əhəmiyyətli məsələlərdə də söz sahibidir. Türkiyənin güclü iqtisadiyyatı, güclü sənaye potensialı, siyasi çəkisi bu gün reallıqdır və bizi çox sevindirir, bizi gücləndirir. Azərbaycan da son illər ərzində böyük inkişaf yolu keçmişdir və bu gün bu yolla inamla irəliləyir. Biz birlikdə daha da güclüyük. Böyük coğrafiyanı əhatə edən ərazidə Türkiyə-Azərbaycan birliyi önəmli bir amildir. Bu, sabitlik, istiqrar, əməkdaşlıq, təhlükəsizlik amilidir.

Bir daha demək istəyirəm ki, əziz qardaşım, hörmətli Prezidentin sıx qrafikinə baxmayaraq, bu Zəfər Günündə burada, Qarabağda olması bütün dünyaya bizim birliyimizi bir daha göstərir. Əminəm ki, bu birlik əbədi olacaq. Bilirəm ki, heç kimdə - nə Türkiyədə, nə Azərbaycanda bununla bağlı şübhə yoxdur. Biz keçmişdə də bir yerdə olmuşuq, müharibə dövründə də bir yerdə idik, bu gün də bir yerdəyik və gələcəkdə də bir yerdə olacağıq. Hesab edirəm ki, bu tarixi səfərin əsas nəticəsi məhz budur.

Təbii ki, ikitərəfli əlaqələr haqqında danışarkən bir çox məsələlər haqqında danışa bilərik. Bütün bu məsələlər bəllidir, siyasi, iqtisadi əlaqələr, sərmayə qoyuluşu, enerji, nəqliyyat dəhlizləri, Zəngəzur dəhlizi - bütün bunlar bu gün geniş müzakirə olundu. Amma hesab edirəm ki, səfərin əsas nəticəsi məhz dediyim kimidir: "Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır".

RƏCƏB TAYYİB ƏRDOĞAN:

Qarabağ Zəfərinin altıncı ildönümündə sizlərlə birlikdə olmaqdan məmnunam. Bu əlamətdar ildönümünü şairin "Dilimizdə işlənən ən əziz bir söz kimi, Canımızı isidən ocaq kimi, köz kimi, Ən qoxulu güllərlə çiçək açan Şuşamız", - deyə tərif etdiyi tarix, təbiət və mədəniyyət şəhəri gözəl Şuşada olmaqdan xüsusi məmnunluq duyuram.

Çıxışımın əvvəlində Qarabağın azadlığı uğrunda canlarını fəda edən bütün şəhidlərimizi hörmət və ehtiramla anıram. Qazilərimizə təşəkkürümüzü bildirir, Allahdan onlara cansağlığı, rifah və uzun ömürlər diləyirəm.

Altı il əvvəl İlham qardaşımın qətiyyətli liderliyi ilə bir olan Azərbaycan xalqı böyük qəhrəmanlıqla Qarabağı işğaldan azad etmişdir. Bu Şanlı Zəfər Azərbaycanın haqlı mübarizəsinin ən gözəl nümunəsi və bütün türk coğrafiyasının qürur mənbəyi olmaqda davam edir.

Bildiyiniz kimi, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər tarixin müxtəlif sınaqlarından keçərək bugünkü yüksək səviyyəyə çatmışdır. "Bir millət, iki dövlət" şüarı ilə tərif etdiyimiz bu könül birliyi ortaq keçmişimizdən aldığı güclə sabahlarımıza işıq tutan sönməz bir məşəldir. Qardaşlığımız ortaq dilin, tarixin və mədəniyyətin daha çox fövqündədir. Bakının sevincini Ankaranın sevinci, Şuşanın qürurunu bütün millətimizin qüruru bilməyimiz bundan irəli gəlir.

2021-ci il iyunun 15-də Şuşada imzaladığımız Bəyannamə nəticəsində müttəfiqlik münasibətləri ilə möhkəmləndirdiyimiz bu qardaşlığımızı zəiflətmək istəyənlər dünən olduğu kimi bu gün də, sabah da hədəflərinə əsla çata bilməyəcəklər. Allahın izni ilə birliyimiz daim sarsılmaz olacaqdır.

44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir

Prezident İlham Əliyevin Zəfər Günü münasibətilə Azərbaycan xalqına təbriki





Əvvəli 1-ci səh.

Azərbaycana qarşı aparılan genişmiqyaslı qarayaxma, şər-böhtan kampaniyası, Azərbaycan dövlətini, xalqını və rəhbərliyini gözdən salmaq üçün qurulan bütün təxribatlar heç bir nəticə vermədi. Mən dəfələrlə bildirirdim ki, biz heç vaxt işğalla barışmayacağıq, əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz hərbi yolla ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Əfsuslar olsun ki, mənim sözlərimi eşitmədilər və nəticə etibarilə xalqımız bir yumruq kimi birləşərək döyüş meydanında düşmənin belini qırdı, tarixi ədaləti, ləyaqətimizi və beynəlxalq hüququ bərpa etdi.

Ermənistan tərəfi o qədər azğınlaşmışdı ki, hətta bizi daim hədələyirdi. Yeni ərazilər uğrunda yeni müharibə ilə hədələyirdi, "Qarabağ Ermənistandır və nöqtə" sözləri ilə bizim ləyaqətimizi alçaltmağa çalışırdı. Biz isə buna döyüş meydanında cavab verdik və döyüş meydanında kimin kim olduğunu hər kəs əyani şəkildə gördü. Bir nəfər belə olsun Azərbaycan Ordusundan qaçan, fərarilik edən olmayıb. Halbuki Ermənistan rəhbərliyinin etirafına görə, Ermənistan ordusunda 12 minə yaxın fərari olmuşdur. Bax, fərq bundan ibarətdir. Azərbaycan döyüş meydanında tam üstünlüyü təmin edərək 8 noyabr günündə - Zəfər bayramını qeyd etdiyimiz gündə Şuşanın azad edilməsi faktiki olaraq İkinci Qarabağ müharibəsinin taleyini həll etdi. Ondan bir gün sonra - noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktına imza atdı.

O vaxt Ermənistan rəhbərliyinin yersiz açıqlamalarına biz də açıqlamalar vermişdik. Mən bildirmişdim ki, "Qarabağ Azərbaycandır və nida". O nida işarəsini biz 2023-cü il sentyabrın 20-də bax, burada - Xankəndidə qoyduq. Birgünlük antiterror əməliyyatı Ermənistanın işğalçı ordusunun 15 minlik işğalçı korpusunu tamamilə iflic vəziyyətə salmışdır, çox dəqiq və peşəkarcasına aparılmış hərbi əməliyyat nəticəsində Ermənistan məcburən ikinci dəfə təslim olmuşdur.

Bu gün biz azad Qarabağda qurub-yaradırıq. Bu gün biz - bu torpaqların sahibləri bütün dünyaya göstəririk ki, bura bizim torpağımızdır. Çünki biz qurub-yaradan xalqıq. İşğal dövründə Ermənistan ancaq bizim təbii sərvətlərimizi talayırdı, meşələrimizi qırırdı, mədənlərimizi qanunsuz olaraq istismar edirdi. Biz isə şəhərləri sıfırdan qururuq.

İşğal dövründə bizim bütün şəhər və kəndlərimiz yerlə yeksan edilmişdir. Bu, misli görülməmiş barbarlıqdır. Bizim tarixi abidələrimiz, məscidlərimiz Ermənistan tərəfindən dağıdıldı və təhqir olundu. İndi genişmiqyaslı quruculuq işləri gedir, "Böyük qayıdış" proqramı icra edilir. Artıq 97 min insan azad edilmiş ərazilərdə yaşayır, təhsil alır, çalışır və hər ay biz keçmiş köçkünlərin öz doğma torpaqlarına qayıtmasının şahidləriyik.

Bu təbrik sözlərimi mən Xankəndidə, Zəfər tağının önündə deyirəm. Bu, bizim şanlı Zəfərimizin şərəfinə ucaldılmış ikinci Zəfər tağıdır. Birincisi Bakıda, ikincisi isə burada, Xankəndidədir. Bakıda Zəfər tağının yanında Zəfər Muzeyi də fəaliyyət göstərir. Hər bir şəhidimizin adı muzeydə həkk olunub. Xankəndidə də Zəfər Muzeyi olacaq. Artıq Zəfər Muzeyinin yaradılması ilə bağlı son tamamlama işləri aparılır. Onun məkanı keçmiş icra hakimiyyətinin binasıdır, hansı ki, vaxtilə Azərbaycana qarşı təcavüzün, işğalçılıq siyasətinin beşiyi idi. O, bir şeytan yuvası idi. O binaya mən şanlı Zəfərimizdən sonra - 2023-cü ilin oktyabrında gələndə, ilk növbədə binanın pəncərələrini açdım ki, o şeytan ruhu oradan çəkilsin. İndi həmin o binada Zəfər Muzeyi yerləşəcək. O binada oturanlar - hərbi cinayətkarlar öz layiqli cəzalarını alıblar. Onlar Bakıya tanklarla gəlmək istəyirdilər, Bakıda çay içmək istəyirdilər. Təkəbbürlü bəyanatlar verirdilər, çünki sığınmışdılar bəzilərinin qucağına və hesab edirdilər ki, əbədi işğalçılıq siyasətini aparacaqlar. Biz isə onlara göstərdik kim kimdir. Biz Azərbaycan xalqının ləyaqətini, mətanətini, iradəsini göstərdik və bu gün onlar Azərbaycan həbsxanalarında çay içirlər, öz layiqli cəzalarını alıblar.

Bu Zəfər tağına gedən pilləkənin hər pilləsində Vətən müharibəsinin hər bir günü həkk olunub. Bu pilləkənlə qalxan hər bir insan haqlı olaraq qürur hissi keçirir, 44 günlük şanlı yürüşümüzün tarixini bir daha yaşayır. Bütün bu məsələlər təbiidir. Amma onu da bildirməliyəm ki, bu pilləkəndə eyni zamanda şəhidlərimizin qanı da həkk olunub. Çünki biz hər gün şəhidlər verirdik, hər gün qan tökülürdü. Buna baxmayaraq, xalqımız əsl vətənpərvərlik və həmrəylik göstərirdi və xalqdan gələn dəstək mənə Ali Baş Komandan kimi əlavə güc verirdi. Ancaq irəli getdik və bir gün də dayanmadıq, bir gün də geri addım atmadıq, düşməni torpaqlarımızdan qovduq, haqq-ədaləti bərpa etdik, bu gün ərazimiz azaddır və bütövdür.

Bizi irəliyə aparan bizim milli-mənəvi dəyərlərimizdir. Azərbaycan dövləti bu təməl üzərində qurulub. Milli-mənəvi dəyərlərimiz, Azərbaycan dəyərləri bizim üçün hər şeydən üstündür. Əsrlər boyu biz bu dəyərləri qəlbimizdə yaşatmışıq, qorumuşuq və gələcək nəsillərə əmanət kimi verəcəyik.

Azərbaycançılıq məfkurəsi bizim bütün uğurlarımızın təməlində dayanan fəlsəfədir. Azərbaycançılıq bütün vətəndaşlarımızı birləşdirən fəlsəfədir. Azərbaycançılıq bizi irəliyə aparan məfkurədir. Azərbaycanda bütün etnik qruplar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bizi birləşdirən vətəndaşlıq, həmrəylik və azərbaycançılıq məfkurəsidir. Bu, bizim milli ideyamızdır. Bir daha demək istəyirəm ki, bu, gələcəyə aparan yoldur. Bu gün Azərbaycanda hökm sürən ictimai-siyasi sabitlik, xoş ovqat, quruculuq meyilləri və cəmiyyətimizin vahid amal uğrunda birləşməsi, hesab edirəm ki, bugünkü dünyada az-az rast gəlinən mənzərədir.

Mən bu gözəl bayram günündə bir daha Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu qeyd etmək istəyirəm. Çünki ancaq böyük xalq əzab-əziyyətlərə baxmayaraq, 30 illik işğala baxmayaraq, - baxmayaraq ki, Ermənistanın arxasında dayanan böyük dövlətlər bizi hədələyirdi, - iradə göstərdi və mənə dəstək verərək Qələbəmizi şərtləndirdi.

Bu gözəl bayramı qeyd edərkən hər birimiz haqlı olaraq qürur hissi keçiririk. Eyni zamanda hər birimiz bu yolda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini hörmətlə yad edirik. Əminəm, hər birimiz özümüzə deyirik: Biz elə güclü olmalıyıq ki, bundan sonra Azərbaycana zərər vermək heç kimin ağlına belə gəlməsin! Əminəm ki, belə də olacaq. Bu gün Azərbaycan güclü dövlətdir, həm siyasi, həm iqtisadi, həm hərbi nöqteyi-nəzərindən heç kimdən asılı olmayan dövlətdir, müstəqil siyasət aparan dövlətdir və ləyaqətli dövlətdir.

Azərbaycan xalqına eşq olsun! Silahlı Qüvvələrimizə eşq olsun! Yaşasın Azərbaycan!

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident, əziz Qardaşım!

Otuz il işğal altında olan qədim Azərbaycan torpaqlarının azadlığa qovuşduğu Zəfər Gününün altıncı ildönümü münasibətilə Zati-aliniz başda olmaqla, bütün azərbaycanlı qardaş və bacılarıma xalqım adından və öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Böyük Zəfərlə taclandırılan Azərbaycanın ədalətli mübarizəsi bütün türk dünyası üçün də qürur mənbəyinə çevrilib. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması və dirçəldilməsi prosesinin sürətlə irəliləməsi hamımızda qürur hissi oyadır.

Şuşa Bəyannaməsi ilə ən yüksək səviyyəyə çatdırdığımız "Bir millət, iki dövlət" anlayışına əsaslanan sarsılmaz dostluq və qardaşlıq tellərimizdən aldığımız güclə həm ikitərəfli münasibətlərimizdə, həm də beynəlxalq aləmdə bundan sonra da sıx əməkdaşlıq və həmrəylik şəraitində işləyəcəyimizə tam əminəm.

Regionumuzda davamlı sülhün, əmin-amanlığın və sabitliyin bərqərar olması üçün əlaqələndirilmiş şəkildə həyata keçirdiyimiz işlər nəticəsində Cənubi Qafqaz artıq münaqişə və qeyri-sabitlik bölgəsi kimi deyil, əməkdaşlıq və inkişaf bölgəsi kimi tanınır.

Vətənlərinin müstəqilliyi uğrunda mübarizədə canlarından keçən qəhrəman şəhidlərimizə Allahdan rəhmət diləyir, onların əziz xatirələrini hörmət və ehtiramla yad edir, qazilərimizə minnətdarlığımı bildirirəm.

Əziz Qardaşım, fürsətdən istifadə edərək Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına firavan və dinc gələcək arzulayır, ən səmimi diləklərimi çatdırıram.

Rəcəb Tayyib ƏRDOĞAN,
Türkiyə Respublikasının Prezidenti

Zati-aliləri!

Pakistan xalqı və hökuməti adından, eləcə də şəxsən öz adımdan Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Qələbənin ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Bu tarixi gün Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsi uğrunda xalqın göstərdiyi şücaətin, milli birliyin və sarsılmaz iradənin parlaq təcəssümüdür. Bu gün Azərbaycan qüdrətli və özünə inamlı dövlət kimi tarixi Zəfərinin bəhrələrini bərpa və yenidənqurma, inkişaf və xalqının davamlı rifahı üçün səfərbər edir. Zati-alinizin uzaqgörən və müdrik rəhbərliyi bu möhtəşəm nəticəyə nail olmaqda mühüm rol oynamışdır.

Pakistan qarşılıqlı inam, ortaq dəyərlər və dərin köklərə malik qardaşlıq əlaqələri üzərində qurulmuş ikitərəfli münasibətlərimizin yüksək səviyyəsi ilə qürur duyur. Azərbaycanla aramızdakı xüsusi münasibətləri yaxın gələcəkdə güclü, çoxşaxəli və dinamik strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmək öhdəliyimizə sadiq qalırıq.

Məhz bu yanaşmadan çıxış edərək, Zati-alinizin qarşılıqlı razılaşdırılmış münasib tarixdə Pakistana çoxdan gözlənilən səfərini səbirsizliklə gözləyirik. Qəti əminəm ki, Zati-alinizin İslamabada səfəri ikitərəfli, regional və qlobal məsələlər üzrə fikir mübadiləsi aparmaq, eyni zamanda strateji və iqtisadi tərəfdaşlığımızı daha da gücləndirmək üçün bir sıra qarşılıqlı faydalı təşəbbüslərin rəsmi olaraq başlanmasına gözəl fürsət yaradacaqdır.

Fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik və gələcək fəaliyyətinizdə davamlı uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və rifah arzulayıram.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Məhəmməd Şahbaz ŞƏRİF ,
Pakistan İslam Respublikasının Baş naziri

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Zəfər Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bu əlamətdar tarix Azərbaycanın dövlətçilik salnaməsində xüsusi yer tutur, xalqın birliyinin gücünü, milli maraqlarını qorumaq əzmində sarsılmaz iradəsini təcəssüm etdirir.

Sizin nüfuzlu rəhbərliyinizlə Azərbaycan BMT Nizamnaməsinin fundamental prinsiplərinə və beynəlxalq hüququn normalarına əsaslanaraq ərazi bütövlüyünü bərpa etmiş, suverenliyini möhkəmləndirmiş, ölkənin gələcək davamlı inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Azərbaycanın Cənubi Qafqazda uzunmüddətli sülhün və sabitliyin möhkəmləndirilməsinə yönəlmiş ardıcıl siyasəti beynəlxalq ictimaiyyətin dəstəyini qazanır. Sülh gündəliyinin irəli aparılması regionun bütün ölkələrinin maraqlarına cavab verir, onların iqtisadi inkişafı üçün yeni perspektivlər açır.

Yeni birgə layihələrlə ardıcıl olaraq zənginləşdirilən Qazaxıstan-Azərbaycan strateji tərəfdaşlığının və müttəfiqliyinin yüksək səviyyəsini məmnunluqla qeyd edirəm. Əminəm ki, xalqlarımızın dostluq və qarşılıqlı hörmət telləri bundan sonra da möhkəmlənəcək, Qazaxıstan ilə Azərbaycan arasında çoxşaxəli əlaqələrin etibarlı təməli olaraq qalacaqdır.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji, rifah və qardaş Azərbaycan xalqının əmin-amanlığı naminə ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Hörmətlə,

Kasım-Jomart TOKAYEV,
Qazaxıstan Respublikasının Prezidenti

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycan xalqının Sizin rəhbərliyinizlə ölkənin beynəlxalq nüfuzunu möhkəmləndirən və artıran, dünyada siyasi və mədəni proseslərin ən mühüm iştirakçılarından birinə çevirən şanlı Qələbəsinin 6-cı ildönümü tamam olur.

Azərbaycanla bağlı əsl qürur hissi keçirirəm, çünki bu diyar qazax torpağı kimi mənə doğmadır. Həmçinin Heydər Əliyevin xatirəsi mənim həyatımda və xalqlarımızın tarixində müstəsna yerə malikdir. Dahi lider 80 il ömür sürsə də, əsrlər boyu yaşayacaq irs və dəyərlər qoyub.

Mən hazırda həyatımı həsr etdiyim nailiyyətlərə yekun vurur və onları ümumiləşdirirəm. Bu il bizim gördüyümüz işlərin ən əsası Bakıda keçirilən Birinci Türkoloji Qurultayın 100 illiyi idi. Bu əsas mövzu qədim vaxtlardan günümüzədək gəlib çatan və müasir dövrdə İlham Əliyev kimi türk dövlətləri liderlərinin xarakterlərində özünü göstərən türkçülüyün tarixi və mədəni dəyərləri ilə bağlıdır.

Rəhbərlik etdiyim Mədəniyyətlərin Yaxınlaşması Beynəlxalq Mərkəzi bu əlamətdar tarixlə bağlı fürsətdən istifadə edərək türk dünyasının görkəmli elm və mədəniyyət xadimlərinin iştirakı ilə böyük tədbirlər təşkil edir və layihələr həyata keçirir. Onların fəal iştirakı nailiyyətlərimizin beynəlxalq səviyyədə tanınmasına imkan verir.

Qoy, bu nailiyyətlər Azərbaycanın və bütün türk dünyasının qələbələrinin layiqli davamına çevrilsin.

Daim Sizin,

Oljas SÜLEYMENOV,
UNESCO-nun himayəsi altında Mədəniyyətlərin Yaxınlaşması Beynəlxalq Mərkəzinin direktoru, "Şöhrət", "Dostluq" və "Şərəf" ordenlərinin kavaleri

Prezident İlham Əliyevin sosial media hesablarında Türkiyə Prezidenti ilə Şuşada görüşünə dair videoçarx paylaşılıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial media hesablarında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Şuşa şəhərində görüşü ilə bağlı videoçarx paylaşılıb.

https://www.facebook.com/reel/3539999462824996

Prezident İlham ƏLİYEV: Pakistanın sarsılmaz həmrəyliyini yüksək qiymətləndiririk



Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifə 8 Noyabr - Zəfər Günü münasibətilə təbrikinə görə təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin sosial media hesablarında paylaşım edilib.

Paylaşımda deyilir: *"Əziz qardaşım Məhəmməd Şahbaz Şərif, məni və Azərbaycan xalqını Zəfər Günü münasibətilə səmimi-qəlbdən təbrik etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm.*

8 Noyabr xalqımız üçün torpaqlarımızın azad olunmasını və 30 ilə yaxın davam edən işğala son qoyulmasını təcəssüm etdirən əlamətdar bir gündür.

Biz Pakistanın sarsılmaz həmrəyliyini yüksək qiymətləndiririk. Keçən il Bakıda keçirilən Zəfər Paradında iştirakınız əbədi dostluğumuzun və qardaşlığımızın daha bir təzahürü oldu".

Birinci vitse-prezident Mehriban Əliyeva Zəfər Günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" hesabında Zəfər Günü ilə bağlı paylaşım edib.



"Bu gün biz böyük qürurla Zəfər Gününü qeyd edirik! Biz Prezidentimizə, cəsarətli əsgərlərimizə, zabitlərimizə və veteranlarımıza hədsiz dərəcədə minnətdarıq! Qəhrəmanlığınıza, şücaətinizə, cəsarətinizə, dözümlülüyünüzə görə, bugünkü bayramı müzəffər xalq kimi qeyd etdiyimizə görə çox sağ olun!

Vətən uğrunda həlak olmuş qəhrəman oğullarımızın nurlu xatirəsini ehtiramla yad edir, onların doğma və yaxınlarına səbir arzulayıram! Qoy Azərbaycanda həmişə sülh və əmin-amanlıq hökm sürsün!

Dərin hörmət və sevgilərlə, Sizin MEHRİBAN".

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

"general-leytenant" hərbi rütbəsi

general-mayor Zaur Zeynalabdul oğlu Rüstəmova

"general-mayor" hərbi rütbəsi

polkovnik Elnur Əli oğlu Ələsgərliyə

polkovnik Hikmət Rövşən oğlu Əliyevə

polkovnik Telman Əsgər oğlu Hüseynova.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 noyabr 2026-cı il

◆ Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri

ƏBƏDİ VƏ SARSILMAZ AZƏRBAYCAN-TÜRKİYƏ BİRLİYİ

Füzuli Beynəlxalq Hava Limanında qarşılanma





Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan noyabrın 8-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Füzuli Beynəlxalq Hava Limanında Türkiyə dövlətinin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qarşıladılar.

Şuşada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub



Noyabrın 8-də Şuşada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.

Türkiyənin və Azərbaycanın Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim olundu.

Prezidentlər rəsmi foto çəkdirdilər.





Şuşada Prezident İlham Əliyevin Türkiyə Prezidenti ilə təkbətək görüşü keçirilib



Noyabrın 8-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla təkbətək görüşü keçirilib.

Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşada mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.



Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident, əziz qardaşım, Azərbaycana, Qarabağa xoş gəlmisiniz.

Zəfər Günündə bizimlə bərabər olmağınız bütün Azərbaycan xalqını sevindirir. Buna görə Sizə xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Düz altı il bundan əvvəl Şuşa şəhəri erməni işğalından azad edilmişdir və ondan bir gün sonra Ermənistan rəsmən təslim olmuşdur. Beləliklə, 30 illik işğal sona çatdı.

Şuşa şəhəri 28 il əsarət altında idi, ancaq öz milli ruhunu itirmədi. Şuşanın azad edilməsi həm böyük rəmzi məna daşıyırdı, həm də İkinci Qarabağ müharibəsinin önəmli hissələrindən biri idi.

Əziz qardaşım, Siz və qardaş türk xalqı 44 gün ərzində bizim yanımızda idiniz. Müharibənin ilk saatlarında Sizin verdiyiniz bəyanat və mənimlə telefon söhbətiniz bütün dünyaya göstərdi ki, qardaş Türkiyə Azərbaycanın yanındadır. Sizin bəyanatınız bizə əlavə güc verdi, ruh verdi. Tarixi sözləriniz - "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" heç vaxt unudulmayacaq. Azərbaycan xalqı bunu yaxşı bilir və buna görə şəxsən Sizə və qardaş Türkiyə xalqına minnətdardır. Sizin göstərdiyiniz siyasi və mənəvi dəstək bizim ruhumuzu daha da artırmışdır.

Azərbaycan Ordusu 44 gün ərzində 300-dən çox şəhər və kəndi döyüş meydanında azad etmişdir. Bu döyüşlərdə 3000 şəhid olmuşdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qanı yerdə qalmadı, onların intiqamı döyüş meydanında alındı və tarixi ədalət bərpa edildi.

İşğal dövründə, təbii ki, müxtəlif vaxtlarda müəyyən ümidlər də var idi - bu məsələ, bu münaqişə sülh yolu ilə öz həllini tapa bilər. Ancaq Ermənistanın qeyri-konstruktiv mövqeyi buna imkan vermədi.

Ardı 4-cü səh.

◆ Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri

ƏBƏDİ VƏ SARSILMAZ AZƏRBAYCAN-TÜRKİYƏ BİRLİYİ

Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər







Əvvəli 3-cü səh.

Bu gün vəziyyət tam başqadır. Bu gün artıq Ermənistanla Azərbaycan arasında normallaşma prosesi gedir və ümid edirəm ki, bu proses konkret nəticələrə gətirib çıxaracaq. Bildiyiniz kimi, artıq bir ildən çoxdur ki, Ermənistan və Azərbaycan sülh sazişini paraflayıb, amma hələ son imza atılmayıb. Bunun müəyyən səbəbləri var. Hesab edirəm ki, bu barədə Türkiyə və Azərbaycan ictimaiyyəti yaxşı bilir.

44 günlük Vətən müharibəsi Türkiyə-Azərbaycan birliyini bir daha göstərdi. Ondan yeddi ay sonra burada, Şuşada tarixi Şuşa Bəyannaməsi imzalandı və bu, bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Halbuki onsuz da biz hər zaman müttəfiq idik. Türkiyə və Azərbaycan xalqları qardaş xalqlardır və dəfələrlə demişəm ki, dünyada bizim qədər bir-birinə bağlı olan xalqlar da yoxdur, dövlətlər də yoxdur. Bu, bizim böyük sərvətimizdir. Şuşa Bəyannaməsi, sadəcə olaraq, bu tarixi, mədəni əlaqələri rəsmi çərçivəyə salmışdır. Bizi birləşdirən ortaq tarixdir, etnik köklərdir, dilimizdir, ədəbiyyatımızdır, mənəvi dəyərlərimizdir. Bu, böyük sərvətdir və bu sərvət üzərində, bu güclü təməl üzərində bu gün dövlətlərarası münasibətlər də inkişaf edir.

Bizim birliyimiz, qardaşlığımız sarsılmazdır. Bunu sarsıtmaq istəyənlər isə öz arzularına heç vaxt çatmayacaqlar. Onların arzuları onların gözlərində qalacaq. Biz - iki xalq, ilk növbədə iki lider bu sərvəti qoruyuruq və heç kimə imkan vermərik ki, bizim aramıza girsin, yaxud da öz şəxsi maraqları naminə bizim birliyimizə, qardaşlığımıza, həmrəyliyimizə kölgə salsın.

Bu gün Türkiyə dövləti əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə böyük gücə çevrilib, dünya miqyasında böyük gücdür. Nəinki bölgədə gedən proseslərdə, eyni zamanda dünya əhəmiyyətli məsələlərdə də söz sahibidir. Türkiyənin güclü iqtisadiyyatı, güclü sənaye potensialı, siyasi çəkisi bu gün reallıqdır və bizi çox sevindirir, bizi gücləndirir. Azərbaycan da son illər ərzində böyük inkişaf yolu keçmişdir və bu gün bu yolla inamla irəliləyir. Biz birlikdə daha da güclüyük. Böyük coğrafiyanı əhatə edən ərazidə Türkiyə-Azərbaycan birliyi önəmli bir amildir. Bu, sabitlik, istiqrar, əməkdaşlıq, təhlükəsizlik amilidir.

Bir daha demək istəyirəm ki, əziz qardaşım, hörmətli Prezidentin sıx qrafikinə baxmayaraq, bu Zəfər Günündə burada, Qarabağda olması bütün dünyaya bizim birliyimizi bir daha göstərir. Əminəm ki, bu birlik əbədi olacaq. Bilirəm ki, heç kimdə - nə Türkiyədə, nə Azərbaycanda bununla bağlı şübhə yoxdur. Biz keçmişdə də bir yerdə olmuşuq, müharibə dövründə də bir yerdə idik, bu gün də bir yerdəyik və gələcəkdə də bir yerdə olacağıq. Hesab edirəm ki, bu tarixi səfərin əsas nəticəsi məhz budur.

Təbii ki, ikitərəfli əlaqələr haqqında danışarkən bir çox məsələlər haqqında danışa bilərik. Bütün bu məsələlər bəllidir, siyasi, iqtisadi əlaqələr, sərmayə qoyuluşu, enerji, nəqliyyat dəhlizləri, Zəngəzur dəhlizi - bütün bunlar bu gün geniş müzakirə olundu. Amma hesab edirəm ki, səfərin əsas nəticəsi məhz dediyim kimidir: "Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır".

Əziz qardaşım, gəldiyiniz üçün Sizə bir daha təşəkkür edirəm. Sağ olun.

❖ ❖ ❖

Sonra Türkiyə Prezidenti bəyanatla çıxış etdi.

Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı

- Hörmətli cənab Prezident, Əziz qardaşım.

Hörmətli heyət üzvləri.

Hörmətli media nümayəndələri.

Sizləri şəxsən öz adımdan, ölkəm və millətim adından ən səmimi hisslərlə və məhəbbətlə salamlayıram.

Qarabağ Zəfərinin altıncı ildönümündə sizlərlə birlikdə olmaqdan məmnunam. Bu əlamətdar ildönümünü şairin "Dilimizdə işlənən ən əziz bir söz kimi, Canımızı isidən ocaq kimi, köz kimi, Ən qoxulu güllərlə çiçək açan Şuşamız", - deyə tərif etdiyi tarix, təbiət və mədəniyyət şəhəri gözəl Şuşada olmaqdan xüsusi məmnunluq duyuram.

Çıxışımın əvvəlində Qarabağın azadlığı uğrunda canlarını fəda edən bütün şəhidlərimizi hörmət və ehtiramla anıram. Qazilərimizə təşəkkürümüzü bildirir, Allahdan onlara cansağlığı, rifah və uzun ömürlər diləyirəm.

Altı il əvvəl İlham qardaşımın qətiyyətli liderliyi ilə bir olan Azərbaycan xalqı böyük qəhrəmanlıqla Qarabağı işğaldan azad etmişdir. Bu Şanlı Zəfər Azərbaycanın haqlı mübarizəsinin ən gözəl nümunəsi və bütün türk coğrafiyasının qürur mənbəyi olmaqda davam edir.

Bildiyiniz kimi, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər tarixin müxtəlif sınaqlarından keçərək bugünkü yüksək səviyyəyə çatmışdır. "Bir millət, iki dövlət" şüarı ilə tərif etdiyimiz bu könül birliyi ortaq keçmişimizdən aldığı güclə sabahlarımıza işıq tutan sönməz bir məşəldir. Qardaşlığımız ortaq dilin, tarixin və mədəniyyətin daha çox fövqündədir. Bakının sevincini Ankaranın sevinci, Şuşanın qürurunu bütün millətimizin qüruru bilməyimiz bundan irəli gəlir.

2021-ci il iyunun 15-də Şuşada imzaladığımız Bəyannamə nəticəsində müttəfiqlik münasibətləri ilə möhkəmləndirdiyimiz bu qardaşlığımızı zəiflətmək istəyənlər dünən olduğu kimi bu gün də, sabah da hədəflərinə əsla çata bilməyəcəklər. Allahın izni ilə birliyimiz daim sarsılmaz olacaqdır.

Biz bu missiyanı, eyni zamanda türk dünyasında da hakim mövqeyə gətirmək üçün var gücümüzlə çalışırıq. Türk Dövlətləri Təşkilatımızın bu gün çatdığı yüksək səviyyə ortaq iradəmizin və səylərimizin ən bariz nəticəsidir. Fürsətdən istifadə edərək, sədrliyi dövründə türk dünyasının birlik və möhkəmliyi üçün göstərdiyi səylərə görə Azərbaycana təşəkkür edirəm. İnşallah, biz də sədrliyimiz dövründə təşkilatın daha güclü, daha institusional quruma çevrilməsi üçün səy göstərəcəyik.

Hörmətli media nümayəndələri, Azərbaycanın 44 günlük Vətən müharibəsi ilə öz torpaqlarını işğaldan azad etməsi Cənubi Qafqazda yeni bir dövrə qapı açıb. Bu gün qarşımızda duran vəzifə döyüş meydanında qazanılan Zəfəri dayanıqlı sülh və sabitliklə taclandırmaqdır. Biz Azərbaycanın haqlı mübarizəsini sahibləndiyimiz kimi, bölgəmizdə dayanıqlı sülhün bərqərar olması yönündə səmimi səylərini də dəstəkləyirik. Qarabağın yenidən bərpası və bölgənin əvvəlki gözəlliyinə qovuşması üçün Azərbaycanın ortaya qoyduğu fəaliyyəti böyük təqdirlə izləyirik.

Qarabağda yenidən yanan hər ocaq, yüksələn hər bina və bərpa olunan tarixi miras Azərbaycan xalqının gələcəyə inamını göstərir. İnşallah, bu yolda təcrübəmizi bölüşməyə, yenidənqurma və bərpa fəaliyyətlərinə töhfə verməyə davam edəcəyik. Ən son Cəbrayılda "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi" və "Ağıllı Tingçilik" müəssisəsini yaratmağın qürurunu yaşadıq. Kənd təsərrüfatı və Meşəçilik Nazirliyimizin töhfələri ilə qurulan bu müəssisə Türkiyə-Azərbaycan əməkdaşlığının yeni bir göstəricisi olmuşdur. Bundan başqa, Ağdamda sahəsi 14 min 500 kvadratmetr olan qırx otaqlı məktəbimizin inşasına da başlandı. İnşallah, gələn il İlham qardaşımla birlikdə açılışını edəcəyik.

Əziz qardaşlarım, çıxışımı yekunlaşdırarkən xüsusilə bu gün buraya gələrkən ayrı-ayrı yeddi tuneldən keçdik. Bu yeddi tunel bölgədə infrastrukturun inşasının nə qədər uğurlu olduğunu ortaya qoyur. Şuşaya gələrkən haradan-haraya gəldiyimizi görməyin xoşbəxtliyi içərisindəyik. İnanıram ki, növbəti gəlişimizdə Şuşa daha çox fərqli olacaq, Füzuli başqa cür fərqli olacaq. Çünki bu işə inanan, can yandıran bir lider var, bir komanda var. Bu lider, bu komanda eyni inancla və eyni qətiyyətlə yoluna davam edir.

Mən Qarabağ Zəfərini canları və qanları ilə tariximizə həkk edən əziz şəhidlərimizi bir daha rəhmətlə yad edirəm. Qəhrəman qazilərimizə təşəkkürlərimi bildirir, azərbaycanlı qardaşlarımı bu şanlı Zəfər münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirəm. Türkiyə və türk milləti olaraq hər zaman yanınızda olmaqda, kədərinizi kədərimiz, sevincinizi sevincimiz bilməkdə, inşallah, davam edəcəyik. Təşəkkür edirəm.

Çıxışımın sonunda mərhum şair Bəxtiyar Vahabzadənin məşhur ifadələrini dilə gətirmək istəyirəm:

Birdir bizim hər halımız,
Diləyimiz, amalımız,
Bayraqlarda hilalımız
Azərbaycan-Türkiyə.

Rəbbim ay-ulduzlu al bayrağımızla şanlı Azərbaycan bayrağının göylərdə yan-yana əbədi dalğalanmasını nəsib etsin. 9 Noyabr - Dövlət Bayrağı Gününüzü ən səmimi hisslərimlə təbrik edir, buradan qardaş Azərbaycan xalqına salam və sevgilərimi çatdırıram.

İlham qardaşıma səmimi evsahibliyi üçün bir daha təşəkkür edirəm.

Azərbaycan və Türkiyə prezidentləri Şuşa qalası önündə foto çəkdiriblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan noyabrın 8-də Şuşa qalası önündə foto çəkdiriblər.

Prezidentlər Xocalı Soyqırımı Memorialını ziyarət ediblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan noyabrın 8-də Xocalı şəhərində Xocalı Soyqırımı Memorialını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan və Türkiyə prezidentləri memorialın önünə əklillər qoyublar.

Komplekslə tanışlıq zamanı bildirilib ki, Xocalı Soyqırımı Memorialı Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı sərəncama əsasən, Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə yaradılıb. Layihə Heydər Əliyev Fondu tərəfindən hazırlanan konsepsiya əsasında reallaşdırılıb.

Memorial dörd bölmədən ibarətdir. İlk iki bölmədə Xocalı soyqırımı qurbanlarının xatirəsini yaşadan ekspozisiya zalı yaradılıb.

Ekspozisiyada təqdim olunan "Faciənin siması" instalyasiyası soyqırımı zamanı qətlə yetirilmiş dinc sakinləri, məhv olmuş ailələri əks etdirir.

Xocalı soyqırımına həsr edilmiş ekspozisiyada Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri, işğalçılıq siyasəti və erməni terrorçuların Azərbaycan torpaqlarında törətdiyi fəsadlar sənədlər, xəritələr və faktlar əsasında təqdim olunur. Burada Xocalının tarixi, münaqişənin xronologiyası, soyqırımı barədə məlumatlar və Ümummilli Lider Heydər Əliyevin soyqırımına verdiyi siyasi-hüquqi qiymət nümayiş olunur.





Ekspozisiya zalındakı Xocalı maketində faciə günü yaşanan dəhşətlərə dair məlumatlar interaktiv formada təqdim edilir. İkinci ekspozisiya zalında faciə zamanı tamamilə məhv edilmiş 8 ailənin taleyi, cinayət nəticəsində bir gecədə yarımçıq qalan həyatlar, arzular süni intellektlə hazırlanan video vasitəsilə nümayiş olunur.

Ekspozisiya zalında Prezident İlham Əliyevin Xocalı həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılması üzrə apardığı ardıcıl siyasət, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə fondun Xocalı soyqırımı qurbanlarının xatirəsinin yaşadılması və ədalətin bərqərar olması istiqamətindəki fəaliyyəti, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində görülən işlər əks etdirilir.

"Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində soyqırımı qurbanlarının xatirəsinə bir sıra ölkələrdə ucaldılmış abidələrin maketləri də burada sərgilənir.

Ekspozisiya 44 günlük Vətən müharibəsinə və dövlət suverenliyinin bərpasına dair məlumatlar, "Böyük qayıdış" və "Viran edilən Xocalı yenidən dirçələcək" ideyaları ilə tamamlanır.

❖ ❖ ❖

Prezident Rəcəb Tayyib Ərdoğan memorialın xatirə kitabına ürək sözlərini yazdı.

◆ Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri

ƏBƏDİ VƏ SARSILMAZ AZƏRBAYCAN-TÜRKİYƏ BİRLİYİ

Azərbaycan və Türkiyə prezidentləri Xankəndidə Zəfər abidəsinin önünə əklillər qoyublar



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan noyabrın 8-də Xankəndi şəhərində Zəfər abidəsini ziyarət edərək önünə əklillər qoyublar.



Azərbaycanın və Türkiyənin birinci xanımları çay süfrəsi arxasında söhbət ediblər

Noyabrın 8-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan ilə çay süfrəsi arxasında söhbət ediblər.



Prezident İlham Əliyevin adından Türkiyə Prezidentinin şərəfinə rəsmi ziyafət verilib

Noyabrın 8-də Xankəndidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın şərəfinə rəsmi ziyafət verilib.



AZƏRTAC xəbər verir ki, ziyafətdə konsert proqramı təqdim olunub.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan incəsənət xadimləri, həmçinin Vətən Müharibəsi qəhrəmanları, "Qarabağ" və "Zəfər" ordenləri ilə təltif edilmiş hərbi qulluqçularla görüşüb, foto çəkdiriblər.



Azərbaycan və Türkiyə prezidentləri, birinci xanımlar təltif edilmiş hərbi qulluqçularla görüşüblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan noyabrın 8-də Xankəndidə Vətən Müharibəsi qəhrəmanları ilə, "Qarabağ" və "Zəfər" ordenlərinə layiq görülmüş hərbi qulluqçularla görüşüblər.



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri başa çatıb

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri noyabrın 8-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, Füzuli Beynəlxalq Hava Limanında Türkiyə dövlətinin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yola saldılar.

Azərbaycan-Türkiyə qardaşlığının və strateji müttəfiqliyinin təcəssümü

Türkiyə Prezidentinin Azərbaycana səfəri və liderlərin Qarabağdan verdiyi mesajlar iki ölkənin həmrəyliyini bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan və Türkiyə münasibətləri beynəlxalq diplomatiyada özünəməxsus yeri olan, tarixi, milli və mənəvi bağlara söykənən nadir qardaşlıq nümunəsidir. İki ölkə arasındakı əlaqələr sıradan strateji tərəfdaşlıq çərçivəsini çoxdan aşaraq sarsılmaz könül birliyinə çevrilib. Azərbaycan və Türkiyəni birləşdirən əsas amillər ortaq tarix, dil, mədəniyyət, milli-mənəvi dəyərlər və xalqlarımızın bir-birinə bəslədiyi tükənməz sevgidir.

Bu ali münasibətlərin kökündə dayanan "Bir millət, iki dövlət" ifadəsi, sadəcə, siyasi şüar deyil, tarix boyu müxtəlif sınaqlardan keçərək möhkəmlənmiş qardaşlığın həqiqi mahiyyətidir. Xalqlarımız əsrlər boyu bir-birinin sevincinə və kədərinə şərik olublar, ən mürəkkəb dövrlərdə çiyin-çiyinə dayanıblar. XX əsrin əvvəllərində, Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu dövründə də qardaş Türkiyə ilə münasibətlər xüsusi əhəmiyyət daşıyıb və bu gün də həmin tarixi təməl üzərində ucalmaqdadır. Xüsusən dövlət başçılarının ardıcıl qarşılıqlı səfərləri, imzalanan mühüm sənədlər və həyata keçirilən birgə regional layihələr bu əlaqələrin institusional əsaslarını daha da möhkəmləndirir.

Bu möhkəm təməlin sarsılmazlığını və dövlətlərimizin bir-birinə olan dərin bağlılığını vurğulayan Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla mətbuata bəyanatında bu həqiqəti xüsusi olaraq qeyd edib: "Dünyada Azərbaycanla Türkiyə qədər bir-birinə bağlı olan dövlətlər yoxdur. 44 günlük Vətən müharibəsi Türkiyə-Azərbaycan birliyini bir daha göstərdi. Bizi birləşdirən ortaq tarixdir, etnik köklərdir, dilimizdir, ədəbiyyatımızdır, mənəvi dəyərlərimizdir. Bu, böyük sərvətdir və bu sərvət üzərində, bu güclü təməl üzərində bu gün dövlətlərarası münasibətlər də inkişaf edir".

Prezident İlham Əliyev vurğulayıb ki, bizim birliyimiz, qardaşlığımız sarsılmazdır: "Bunu sarsıtmaq istəyənlər isə öz arzularına heç vaxt çatmayacaq, onların arzuları onların gözlərində qalacaq". Dövlətimizin başçısı əlavə edib ki, iki xalq, ilk növbədə iki lider heç kimə imkan vermərik ki, bizim aramıza girsin, yaxud da öz şəxsi maraqları naminə bizim birliyimizə, qardaşlığımıza, həmrəyliyimizə kölgə salsın.

Bu bəyanat Azərbaycan-Türkiyə qardaşlığının, sadəcə, emosional bağlara deyil, ən yüksək səviyyədə nümayiş etdirilən qətiyyətli siyasi iradəyə söykəndiyini göstərir. Burada əsas mesaj iki liderin vahid mövqeyi sayəsində heç bir kənar qüvvənin, geosiyasi marağın və ya nifaq cəhdinin bu birliyə xələl gətirə bilməyəcəyidir. Bəyanat iki ölkə arasındakı müttəfiqliyin sarsılmazlığını xatırlatmaqla yanaşı, Azərbaycan və Türkiyənin həmrəyliyinə kölgə salmaq istəyən bütün dairələrə qətiyyətli xəbərdarlıq xarakteri daşıyır.

Azərbaycan-Türkiyə sarsılmaz qardaşlığının ən parlaq nümayişi məhz çətin günlərdə özünü büruzə verib. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək xalqımızın yaddaşında əbədi yer tutub. Türkiyənin dövlət rəhbərliyi və qardaş xalqı ilk saatlardan Azərbaycanın haqq mövqeyini açıq şəkildə dəstəkləyib. Eynilə 2023-cü ildə Türkiyədə baş vermiş dəhşətli zəlzələlər zamanı Azərbaycanın dəstəyi və göstərdiyi həmrəylik iki xalq arasındakı qardaşlığın qarşılıqlı xarakter daşıdığını, birimizin ağrısının digərimizin ağrısı olduğunu bir daha bütün dünyaya subut etdi.

Vətən müharibəsindən cəmi 7 ay sonra imzalanan tarixi sənəd isə bu əlaqələri rəsmi olaraq ən yüksək zirvəyə qaldırdı. 2021-ci il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə münasibətlərində yeni bir mərhələ açdı, iki ölkə arasındakı müttəfiqlik bağlarını hüquqi-siyasi çərçivədə möhkəmləndirdi.

Prezident İlham Əliyev bu tarixi məqamın əhəmiyyətini belə ifadə edib: "Halbuki onsuz da biz hər zaman müttəfiq idik. Türkiyə və Azərbaycan xalqları qardaş xalqlardır və dəfələrlə demişəm ki, dünyada bizim qədər bir-birinə bağlı olan xalqlar da yoxdur, dövlətlər də yoxdur. Və bu bizim böyük sərvətimizdir. Şuşa Bəyannaməsi, sadəcə olaraq, bu tarixi mədəni əlaqələri rəsmi çərçivəyə salıb".

Bu dostluq və müttəfiqlik təkcə iki ölkə üçün deyil, bütövlükdə geniş bir coğrafiya üçün təhlükəsizlik və sabitlik zəmanətidir. Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyənin böyük gücə çevrilməsi, güclü iqtisadiyyatı və siyasi çəkisi ilə dünya miqyasında söz sahibinə çevrilməsi Azərbaycanı da gücləndirir. Prezident İlham Əliyevin dediyi kimi, biz birlikdə daha da güclüyük və böyük coğrafiyanı əhatə edən ərazidə Türkiyə-Azərbaycan birliyi mühüm bir amil, mühüm bir faktordur: "Bu, sabitlik, istiqrar, əməkdaşlıq, təhlükəsizlik faktorudur".

Bu həmrəyliyin və ortaq gələcəyin sarsılmazlığını Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da çıxışında bəyan edib. Türkiyənin dövlət başçısı münasibətlərin tarixi köklərini və gələcək perspektivini qiymətləndirərək vurğulayıb ki, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər tarixin müxtəlif sınaqlarından keçərək bugünkü yüksək səviyyəyə çatıb: ""Bir millət, iki dövlət" şüarı ilə ifadə etdiyimiz bu könül birliyi ortaq keçmişimizdən aldığı güclə sabahımıza işıq tutan sönməz bir məşəldir. 15 iyun 2021-ci il tarixində Şuşada imzaladığımız bəyannamə ilə müttəfiqlik bağını möhkəmləndirdiyimiz bu qardaşlığımızı zəiflətmək istəyənlər dünən olduğu kimi, bu gün də, sabah da məqsədlərinə əsla çata bilməyəcəklər. Uca Allahın izni ilə birliyimiz hər zaman davam edəcək".

Bu bəyanat bir daha sübut edir ki, Azərbaycan-Türkiyə müttəfiqliyi təkcə rəsmi razılaşmalara deyil, sarsılmaz mənəvi və tarixi təməllərə söykənir. Şuşa Bəyannaməsi ilə taclanan bu birlik kənar təzyiqlərə və nifaq cəhdlərinə qarşı ən güclü qalxandır. Liderlərin nümayiş etdirdiyi bu qətiyyətli iradə iki qardaş dövlətin gələcəkdə də bütün sınaqlardan layiqincə çıxacağını zəmanət altına alır.

İki qardaş dövlət regional və beynəlxalq platformalarda vahid mövqedən çıxış edir, bir-birinin maraqlarını qarşılıqsız müdafiə edirlər. Azərbaycan-Türkiyə qardaşlığı həm də türk dünyasının inteqrasiyasına, regionda sülhün, inkişafın, əməkdaşlığın bərqərar olmasına xidmət edən tarixi bir missiyadır. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu səfərlərin ana xəttini təşkil edən əsas nəticə birliyin sarsılmazlığıdır.

Azərbaycan və Türkiyə qardaşlığı tarixin bütün sınaqlarından şərəflə çıxaraq zəfərlərlə taclanan, bənzəri olmayan əməkdaşlıqdır. Qarabağda yenidən ortaya qoyulan bu sarsılmaz həmrəylik, iradə və xalqlarımızın qəlbindəki sonsuz sevgi göstərir ki, Azərbaycan-Türkiyə birliyi əbədi olacaq, regional sülhün, ədalətin və tərəqqinin ən etibarlı dayağı kimi gələcək nəsillərə işıq saçmaqda davam edəcək.

İsmayıl QOCAYEV,
"Azərbaycan"

◆ Prezident İlham Əliyevin
Şuşa, Xankəndi və Ağdama səfəri

Qarabağ azadlığının təntənəsini yaşayır

Şuşa Dövlət Peşə Təhsil Mərkəzinin açılışı olub






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Şuşa Dövlət Peşə Təhsil Mərkəzinin əsaslı təmirdən sonra açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına yaradılmış şərait barədə məlumat verdi. Bildirildi ki, nazirliyin sifarişi ilə Şuşa Dövlət Peşə Təhsil Mərkəzində əsaslı təmir işlərinə 2025-ci ilin mart ayında başlanılıb.

İkimərtəbəli, 360 yerlik tədris binasında 9 emalatxana, 3 təlimat sahəsi, musiqi alətlərinin hazırlanması və bərpası emalatxanası, 5 tədris otağı, rəsm otağı, fizika və kimya laboratoriyaları, laborant, informatika və hərbi təlim otaqları, həmçinin yeməkxana var. Şuşa Dövlət Peşə Təhsil Mərkəzinin beşmərtəbəli yataqxanasında akt zalı, texniki yaradıcılıq sahəsi, emalatxanalar, kitabxana, o cümlədən elektron kitabxana, tədris və yataq, istirahət və fitnes otaqları, ictimai iaşə obyekti yerləşir.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mühüm istiqamətlərindən biri də insan kapitalının inkişafı və müasir təhsil infrastrukturunun formalaşdırılmasıdır. Ölkə miqyasında son illərdə yüzlərlə yeni məktəb binasının inşası, mövcud tədris ocaqlarının əsaslı təmiri və ən son texnoloji avadanlıqlarla təchiz olunması gənc nəslin yüksək standartlara cavab verən təhsillə təmin edilməsinə geniş imkanlar açıb. Bu baxımdan Şuşa Dövlət Peşə Təhsil Mərkəzi böyük əhəmiyyətə malikdir. Mərkəz bölgədə geniş vüsət alan bərpa və quruculuq işlərində bilavasitə iştirak edəcək yerli ixtisaslı kadrların, peşəkar mütəxəssislərin hazırlanmasında mühüm platformaya çevriləcək.

Qarabağ Universitetinin Kitabxanasının və İnnovasiya Mərkəzinin binalarının təməli qoyulub




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Xankəndidə Qarabağ Universitetinin Kitabxanasının və İnnovasiya Mərkəzinin binalarının təməlqoyma mərasimlərində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına binalarda yaradılacaq şərait barədə məlumat verildi.

Bildirildi ki, kitabxana tədris, elmi-tədqiqat və innovasiya fəaliyyətinin dəstəklənməsi, müasir informasiya resurslarına çıxış imkanlarının genişləndirilməsi və tələbəyönümlü akademik mühitin formalaşdırılması baxımından mühüm infrastruktur obyektlərindən biri olacaq, tələbə və əməkdaşların təhsil, elmi-tədqiqat və informasiya ehtiyaclarının qarşılanmasına, müstəqil öyrənmə və tədqiqat bacarıqlarının inkişafına, həmçinin professor-müəllim heyətinin elmi fəaliyyətinin dəstəklənməsinə xidmət edəcək.

Müasir standartlara cavab verəcək dördmərtəbəli binada eyni vaxtda təxminən 1100 tələbənin istifadəsinə imkan verən funksional oxu zallarının, fərdi və qrup şəklində öyrənmə, görüş və akademik əməkdaşlıq üçün nəzərdə tutulan məkanların yaradılması planlaşdırılır. Universitetin akademik ehtiyaclarını qarşılamaqla və potensialını gücləndirməklə yanaşı, region ictimaiyyəti üçün də informasiya mənbəyi rolunu oynayacaq kitabxana binası elmi müzakirələrin, bilik və təcrübə mübadiləsinin təşviqinə, universitetlə əhali arasında əlaqələrin genişləndirilməsinə və Qarabağda sosial-mədəni mühitin inkişafına töhfə verəcək.

Qeyd edilib ki, Qarabağ Universitetinin İnnovasiya Mərkəzi innovasiya və sahibkarlıq ekosisteminin inkişafı, elmi-tədqiqat nəticələrinin praktiki tətbiqinin təşviqi, müasir texnologiyaların və innovativ ideyaların dəstəklənməsi baxımından mühüm infrastruktur obyektlərindən biri olacaq. Mərkəz tələbələrin yaradıcılıq, tənqidi düşünmə və problem həlletmə bacarıqlarının inkişafına, innovativ təşəbbüslərinin dəstəklənməsinə, həmçinin universitet-sənaye əməkdaşlığının genişləndirilməsinə xidmət edəcək. Mərkəz eyni zamanda Qarabağ regionunun sosial-iqtisadi inkişafına töhfə verən təşəbbüslərin dəstəklənməsi, yerli ehtiyaclara uyğun innovativ həllərin hazırlanması və universitetlə dövlət qurumları, özəl sektor və digər tərəfdaşlar arasında əməkdaşlığın inkişaf etdirilməsi baxımından əhəmiyyətli rol oynayacaq. Mərkəz universitetdə innovasiya mədəniyyətinin formalaşmasına, elmi biliklərin iqtisadi və sosial dəyərə çevrilməsinə, həmçinin Qarabağ regionunda texnoloji inkişafın, sahibkarlığın və bilikəsaslı iqtisadiyyatın təşviqinə töhfə verəcək.

Qarabağ Universitetinin Klinikasının Təcili tibbi yardım şöbəsi açılıb






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Qarabağ Universitetinin Klinikasının Təcili tibbi yardım şöbəsinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Qarabağ Universitetinin rektoru Şahin Bayramov və Universitetin Klinikasının baş direktoru Samir Babayev burada yaradılmış şərait barədə dövlətimizin başçısına məlumat verdilər.

Bildirildi ki, təsdiq edilmiş memarlıq-planlaşdırma həllinə uyğun həyata keçirilən işlər çərçivəsində mövcud mühəndis-kommunikasiya sistemləri yenidən qurulub, şöbənin müasir tələblərə uyğun təşkili təmin edilib.

Təcili tibbi yardım şöbəsində xəstələrin qəbulu, müayinəsi və müalicəsinin səmərəli təşkili məqsədilə müasir tələblərə cavab verən funksional zonalar yaradılıb. Burada reanimasiya, uşaq pediatriya sahələri, palata, tibbi xidmətlərin və gündəlik fəaliyyətin təşkili üçün dərmanların saxlanılması və xidmətçi otaqları var. Şöbənin müvafiq tibbi avadanlıq və müasir mühəndis-kommunikasiya sistemləri ilə təchiz edilməsi onun funksional imkanlarının genişləndirilməsinə və tibbi xidmətlərin səmərəli təşkilinə imkan yaradır. İlkin qiymətləndirilməsi aparılmış pasiyentlərin tibbi göstərişlərə uyğun olaraq digər müəssisələrə köçürülməsi üçün reanimasiya və intensiv terapiya imkanları ilə təchiz edilmiş təcili tibbi yardım avtomobilləri mövcuddur.

Klinikada hazırda 70 stasionar, o cümlədən 5 reanimasiya çarpayısı var. Əlavə olaraq Təcili yardım şöbəsində 19 çarpayı və 5 əməliyyat zalı nəzərdə tutulub. Beləliklə, burada eyni vaxtda 70 stasionar və 19 təcili yardım pasiyentinə xidmət göstərmək mümkün olacaq.

Tibb müəssisəsində 2027-ci il üzrə inkişaf planı çərçivəsində ümumilikdə 230-250 əməkdaşın çalışması proqnozlaşdırılır.

Universitet Klinikasının əsas missiyası yalnız tibbi xidmət göstərmək deyil, eyni zamanda müasir tibb təhsili, klinik təcrübə və gələcəkdə elmi-tədqiqat fəaliyyətini birləşdirən tibb mərkəzi kimi inkişaf etməkdən ibarətdir.

Prezident İlham Əliyev Xankəndi Stadionunun açılışında iştirak edib






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Xankəndi Stadionunun əsaslı yenidənqurmadan sonra açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına stadionda yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, Xankəndi Şəhər Stadionu 1956-cı ildə istifadəyə verilib. 2023-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində Xankəndi şəhəri erməni işğalından azad olunub. Bundan sonra stadionun əsaslı şəkildə yenidən qurulmasına başlanılıb.

Xankəndi Şəhər Stadionu əsaslı təmir edilərək UEFA-nın 3-cü kateqoriya standartlarına uyğun qurulub. Stadionun ərazisi genişləndirilərək 3,39 hektara çatdırılıb.

Stadionun ümumi tamaşaçı yerlərinin sayı ümumilikdə 8554-dür. Onlardan da 8214-ü standart oturacaqlı, 251-i isə xüsusi qonaqlar üçün olan yerlərdir. Bundan başqa, 59 yer media, 30 yer isə fiziki imkanları məhdud olan şəxslər üçün nəzərdə tutulub.

Uzunluğu 105, eni isə 68 metr olan futbol meydançasına süni ot örtüyü döşənib. Meydançanın ətrafında isə atletika zonası yerləşir. Bu zona 100 metr, eyni zamanda 200 metrdən 10 min metrədək məsafələrə qaçış, o cümlədən maneələrlə qaçış, uzununa tullanma və digər zonalardan ibarətdir. Stadionda futbolçular və texniki heyət, həmçinin hakimlər, məşqçilər, media nümayəndələri üçün otaqlar, konfrans zalı, tibb məntəqəsi var.

Qeyd edək ki, Xankəndi Şəhər Stadionunun əsaslı təmirdən sonra istifadəyə verilməsi Azərbaycanda idmana göstərilən dövlət qayğısının bariz nümunəsidir. Bu layihənin icrası işğaldan azad edilmiş ərazilərdə idman infrastrukturunun inkişafı baxımından mühüm rol oynamaqla Azərbaycanda idmana və gənc nəslin sağlam yetişməsinə göstərilən diqqəti əyani şəkildə nümayiş etdirir. Bölgələrimizdə olimpiya idman kompleksləri, stadionlar və digər müasir idman obyektlərinin yaradılması Azərbaycanın idman ölkəsi kimi dünyada nüfuzunu daha da artırır. Təsadüfi deyil ki, bu gün ölkəmiz mötəbər qlobal idman yarışlarına uğurla evsahibliyi edir, nüfuzlu beynəlxalq idman qurumları öz tədbirlərinin məhz Azərbaycanda keçirilməsində maraqlıdırlar. Bu xüsusda ölkəmizdə ilk dəfə 15 yaşadək oğlan futbolçular arasında təşkil olunmuş (FIFA U-15) dünya çempionatı və festivalını, həmçinin gələn il 20 yaşadək kişi futbolçular arasında keçiriləcək dünya çempionatını (FIFA U-20 World Cup) qeyd etmək olar.

◆ Prezident İlham Əliyevin Şuşa, Xankəndi və Ağdama səfəri

Qarabağ azadlığının təntənəsini yaşayır

Prezident İlham Əliyev Ağdam Rayon Mərkəzi Xəstəxanasının tikintisi ilə tanış olub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxana binasının tikintisi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Anar Bayramov dövlətimizin başçısına inşaat işlərinin gedişi ilə bağlı məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 6 hektardan çox olan ərazidə xəstəxana kompleksinin əsas binası, əlavə korpuslar, həmçinin yardımçı tikili və qurğular inşa edilir. Xəstəxana kompleksində inzibati bölmə, qəbul və təcili tibbi yardım, terapiya, kardiologiya, cərrahiyyə, travmatologiya-ortopediya, ürək-damar, oftalmologiya, LOR, pediatriya və digər şöbələr fəaliyyət göstərəcək. Burada həmçinin funksional və uşaq poliklinikaları, klinik diaqnostika laboratoriyası, şüa-diaqnostika, hemodializ, fizioterapiya və tibbi bərpa şöbələrinin yaradılması nəzərdə tutulur. Xəstəxana müasir standartlara cavab verən tibbi avadanlıqla təchiz ediləcək.



Prezident İlham Əliyev Ağdamda ortopedik döşək istehsalı müəssisəsinin açılışında iştirak edib











Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Ağdam Sənaye Parkında "Komfy" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) ortopedik döşək istehsalı müəssisəsinin açılışında iştirak edib.




AZƏRTAC xəbər verir ki, "Komfy" MMC-nin direktoru Fuad Nəcəfov müəssisə barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirilib ki, "Komfy" MMC-yə 2024-cü ildə Ağdam Sənaye Parkının rezidenti statusu verilib. Müəssisənin illik istehsal gücü 130 min ədəd döşəkdir. Burada müxtəlif ölçüyə, konstruksiyaya və sərtlik dərəcəsinə malik döşəklərlə yanaşı, bonel və paket yay sistemləri də istehsal olunacaq. Müəssisədə Azərbaycanda ilk dəfə "roll-pack" formatında, yəni sıxılaraq rulon şəklində qablaşdırılan döşəklər istehsal ediləcək. Bu, daşınma xərclərini azaltmaqla ixrac imkanlarını genişləndirəcək. Beləliklə də məhsulların daxili bazarla yanaşı, digər ölkələrə satışı nəzərdə tutulur. Müəssisə yerli və xarici hotellərin tələblərinə uyğun döşəklər də istehsal edəcək. Burada 65 nəfər daimi işlə təmin ediləcək. Ümumi dəyəri 2,5 milyon manat olan layihənin maliyyələşdirilməsində özəl investisiya ilə yanaşı, İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondunun (ABİF) dövlət zəmanəti ilə 700 min manat kredit vəsaitindən istifadə edilib. Sənaye Parkının rezidenti kimi müəssisə 114 min manat dəyərində əlavə dəyər vergisindən (ƏDV) və gömrük rüsumlarından azad olunub.

Qeyd edək ki, Prezident İlham Əliyevin fərmanı ilə 2021-ci ildə yaradılmış Ağdam Sənaye Parkı 190 hektar ərazini əhatə edir. Burada 37 rezident və 2 qeyri-rezident olmaqla, ümumilikdə 39 müəssisə qeydiyyata alınıb. Layihələrin ümumi dəyəri 375,5 milyon manat, faktiki yatırılmış investisiyanın məbləği 192,6 milyon manatdır. Layihələr üzrə hazırda 1000-dən çox insan işlə təmin olunub. Rezidentlərin ümumi satış həcmi 2,96 milyard manata, ixracın həcmi isə 132,6 milyon manata çatıb.

Ağdam Sənaye Parkında metal məmulatları istehsalı müəssisəsi istifadəyə verilib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Ağdam Sənaye Parkında "ASMC" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) metal məmulatları istehsalı müəssisəsinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Almet Holding" Açıq Səhmdar Cəmiyyətinin (ASC) təsisçisi Şirin Camallı dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, əsas təsisçisi "Almet Holding" ASC olan "ASMC" MMC 2024-cü ildə Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. Ümumi dəyəri 24,9 milyon manat olan layihə iki mərhələdə həyata keçirilir. Dəyəri 8,8 milyon manat olan birinci mərhələnin maliyyələşdirilməsində özəl vəsaitlə yanaşı, İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu (ABİF) tərəfindən subsidiyalaşdırılan 4,7 milyon manata yaxın bank kreditindən istifadə edilib. İkinci mərhələ üzrə 16,1 milyon manat investisiya nəzərdə tutulur. Sənaye Parkının rezidenti kimi müəssisə 470 min manat dəyərində əlavə dəyər vergisi (ƏDV) və gömrük rüsumlarından azad olunub.

Təqribən 1,7 hektar ərazidə yerləşən zavodda polad həsir, tikanlı, çəkilmiş, yanmış və sinklənmiş məftil və mismar istehsal olunacaq. Birinci mərhələdə illik istehsal gücü 4 min 920 ton polad həsir, 3 min 480 ton çəkilmiş məftil, 3 min 180 ton mismar, 1800 ton yanmış məftil, 12 min ton məftil və 1080 ton soyuq deformasiya olunmuş armatur təşkil edəcək. İkinci mərhələdə isə illik 10 min ton qalvanikləşdirilmiş və 8 min 240 ton yüksəkkarbonlu çəkilmiş məftil istehsalı planlaşdırılır. Müəssisənin istehsal etdiyi polad həsir, məftil və mismar azad olunmuş ərazilərdə aparılan tikinti-bərpa işlərində geniş istifadə edilən materiallardır. Bu məhsulların bölgədə istehsalı tikinti layihələrinin materialla yerindən təminatına və daşınma xərclərinin azalmasına imkan yaradır.



İtaliya, Almaniya, Türkiyə və Çinin aparıcı şirkətlərinin avadanlığının quraşdırıldığı müəssisədə məhsulların daxili bazarda satışı ilə yanaşı, ixracı da nəzərdə tutulur.

Hazırda burada 26 nəfər çalışır. Müəssisə tam gücü ilə işə düşəndən sonra daimi iş yerlərinin sayı 100-ə çatdırılacaq.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərin ölkənin iqtisadi məkanına reinteqrasiyası istiqamətində dövlət başçısının rəhbərliyi ilə genişmiqyaslı tədbirlər həyata keçirilir. Sənaye parklarında yaradılan infrastruktur, vergi və gömrük güzəştləri, Azərbaycan Biznesinin İnkişafı Fondunun güzəştli maliyyələşmə və zəmanət mexanizmləri özəl sektorun regiona investisiya yatırmasını stimullaşdırır.

Ağdam Zeytun müəssisəsində yaradılan şəraitlə tanışlıq





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Ağdam Zeytun müəssisəsində yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, "Aqroinkişaf 2017" MMC-nin direktoru Ruslan Sadıxov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, şirkət tərəfindən 2020-ci ilin dekabrından işğaldan azad olunmuş Ağdam ərazisində sahələr minalardan və hərbi sursatlardan təmizlənəndən sonra torpaq hazırlığı və planlaşdırma işləri görülərək dərhal əkinə başlanılıb. İlkin olaraq ərazidə taxıl əkini aparılıb. Taxıl sahələrində məhsuldarlıq 40 sentner təşkil edib. Hazırda isə burada 1150 hektar ərazidə zeytun bağı salınıb. Ərazidə 700 mindən çox ağac əkilib. Gələcəkdə isə zeytun və badam ağaclarının sayının 1 500 000-ə çatdırılması nəzərdə tutulur.

Burada ildə 10 min ton zeytun (və ya 2 min ton yağ) istehsalı planlaşdırılır. İstehsalatda müasir kənd təsərrüfatı texnikasından istifadə edilir.

Layihə çərçivəsində müvəqqəti suvarma kanalları çəkilib, Eyvazxanbəyli-Xaçınçay avtomobil yolu (3690 metr) təmir olunub, inzibati və texniki zonalar yaradılıb. On hektar ərazidə meşə massivi salınıb, əlavə olaraq 50 hektar meşə sahəsinin salınması planlaşdırılır. Ərazidə yanacaqdoldurma məntəqəsi, meteostansiya yaradılıb. Dövlətimizin başçısına ölkəmizdə qoz istehsalı sənayesi barədə də məlumat verildi. Azərbaycana qoz idxalının əvəzlənməsi və ixracyönümlü qoz istehsalı sənayesinin yaradılması məqsədilə 2017-ci ildən başlayaraq "Aqroinkişaf 2017" MMC tərəfindən Şəki-Oğuz rayonlarının ərazisində 2 min hektardan çox sahədə müasir intensiv salxımlı qoz növləri yetişdirilən bağların salınması artıq yekunlaşmaq üzrədir.





Prezident İlham Əliyev 2022-ci ildə Oğuz rayonunda qozyuma, qurutma, çeşidləmə və qablaşdırma zavodunun təməlini qoyub. MMC tərəfindən bu müəssisə üçün 2025-ci ildə illik istehsal gücü 10 min ton qoz olan qurğular alınaraq istismara verilib. Toplanmış qoz məhsulu əsasən daxili bazarda satılmaqla yanaşı, xarici bazarlara da (Türkiyə, Gürcüstan, Rusiya, İtaliya) ixrac olunub. Min hektara yaxın sahədə isə müasir intensiv badam bağları salınır.

Müəssisə müasir kənd təsərrüfatı texnikası, damcı suvarma sistemi, meteostansiyalar, fitolaboratoriya və digər zəruri avadanlıqla təchiz olunub.

Prezident İlham Əliyevə "Acınohur Zeytun vadisi" layihəsi üzrə görülən işlər barədə də ətraflı məlumat verildi.

Sonda Prezident İlham Əliyev ərazidə zeytun ağacı əkdi.

Dövlət və hökumət rəsmiləri Bakıda Zəfər parkında olublar





8 Noyabr - Zəfər Günündə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, Milli Məclisin Sədri Sahibə Qafarova, digər dövlət və hökumət rəsmiləri Bakıdakı Zəfər parkında olublar.

AZƏRTAC xəbər verir ki, dövlət və hökumət rəsmiləri Zəfər abidəsinin önünə gül dəstələri düzüblər. Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli sərəncamına əsasən, Şuşanın işğaldan azad olunduğu gün - 8 noyabr ölkəmizdə hər il Zəfər Günü kimi qeyd edilir.

Heydər Əliyev və xanımı Alyona Əliyeva Bakıda Zəfər abidəsini ziyarət ediblər



Noyabrın 8-də Zəfər Günü münasibətilə Heydər Əliyev və xanımı Alyona Əliyeva Bakıdakı Zəfər parkında Zəfər abidəsini ziyarət ediblər.

Milli Məclisin kollektivi Zəfər parkını ziyarət edib

Noyabrın 8-də Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, Sədr müavinləri Ziyafət Əsgərov, Musa Qasımlı, parlamentin komitə sədrləri, deputatlar, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Aparat rəhbərinin müavinləri, Aparatın, İşlər İdarəsinin şöbə müdirləri və müavinləri 8 Noyabr - Zəfər Günü münasibətilə Zəfər parkını ziyarət ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, deputatlar və Milli Məclisin kollektivi parkdakı Zəfər abidəsinin önünə tər güllər düzüblər.

"Azərbaycan"



Baş Prokurorluğun rəhbərliyi Zəfər parkında



Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Baş Prokurorluğun rəhbər heyəti 8 Noyabr - Zəfər Günü münasibətilə Zəfər parkını ziyarət edib.

Ziyarət zamanı Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib, Zəfər abidəsi önünə gül dəstələri düzülüb.

Həmkarlar ittifaqlarının kollektivləri Zəfər abidəsini ziyarət ediblər





8 Noyabr - Zəfər Günü münasibətilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, üzv və tabe təşkilatların kollektivləri Zəfər abidəsini ziyarət ediblər.

"Tut Əlimdən" Uşaq Reabilitasiya Mərkəzində Tarixi Zəfərin ildönümü münasibətilə bayram şənliyi keçirilib









"Tut Əlimdən" Uşaq Reabilitasiya Mərkəzində Tarixi Zəfərin ildönümü münasibətilə bayram şənliyi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, Çinin Azərbaycandakı səfiri Lu Mey, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova və digər qonaqlar iştirak ediblər.

Şənliyin ən yaddaqalan məqamlarından biri uşaqların hazırladıqları rəngarəng bayram proqramı olub. Onların çıxışları, əl işlərindən ibarət yaradıcılıq nümunələri və səmimi təqdimatları qonaqlar tərəfindən böyük maraq və sevgi ilə qarşılanıb.

Çin tərəfindən mərkəzə hədiyyə olunan avadanlıqların təqdimatı isə mərasimin mühüm hissəsini təşkil edib. Yeni avadanlıqlar mərkəzin maddi-texniki imkanlarının genişləndirilməsinə, uşaqların gündəlik qayğısı üçün yaradılmış şəraitin daha da yaxşılaşdırılmasına töhfə verəcək.

Hər bir uşağın eşidildiyi, anlaşıldığı, sevildiyi və özünü təhlükəsiz hiss etdiyi mühitin yaradılması dövlətimizin uşaq siyasətinin və sağlam cəmiyyət quruculuğunun əsas istiqamətlərindəndir.





"Yaşamadığımız, düşünə bilmədiyimiz bir möcüzəni Siz bizə yaşatdınız"

Şanlı Zəfərimizin qürurunu, əzəmətini və haqq-ədalətin təntənəsini ən dərin hisslərlə yaşadığımız bu unudulmaz günlərdə Azərbaycanın hər qarış torpağı yeni bir növraq yaşayır. Uzun illər nisgilin, qürbət acısının ağır yükünü çiyinlərində daşıyan keçmiş məcburi köçkün soydaşlarımız üçün isə indi təqvimin hər günü itirilmiş illərin bərpası, ana torpağa qovuşmağın təntənəsidir.

Noyabrın 6-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonunun Cahangirbəyli kəndinin birinci mərhələsinin açılışında iştirak etmələri, Cahangirbəyli və Cəbrayıl rayonunun Soltanlı kəndlərinə köçən sakinlərə təzə mənzillərinin açarlarını təqdim etmələri bu möhtəşəm tarixi daha bir parlaq səhifə ilə zənginləşdirdi.

Zəfər qürurlu qayıdış karvanları

2020-ci ilin noyabrında azadlığa qovuşan torpaqlarımızda qələbənin əbədi simvolu olan Şuşaya uzanan Zəfər yolunun təməlini qoyan Prezident İlham Əliyevin bu müqəddəs bölgəyə hər səfəri əzəli sakinlərinin doğma ocaqlarına qayıtdıqlarının qürurlu bəyanıdır. Bu gün zirvələrində üçrəngli bayrağımızın əbədi dalğalandığı Qarabağ və Şərqi Zəngəzur başqa bir ruhla, coşquyla nəfəs alır. İllərin həsrəti yerini ana torpağa qovuşmağın sonsuz səadətinə verib. Düz otuz il məcburi köçkünlüyün ağır maddi və mənəvi çətinliklərinə sinə gərən soydaşlarımız bir an olsun belə doğma yurdlarına dönəcəklərinə olan inamlarını itirmədilər. Onların qəlbində bu sarsılmaz ümidi sönməyə qoymayan isə Prezident İlham Əliyevin xalqımızın milli maraqlarının təmin olunmasına yönələn qətiyyətli və uzaqgörən siyasəti oldu. Ölkəyə rəhbərlik etdiyi ilk illərdən torpaqlarımızın azadlığını özünün şərəf borcu, ali məqsədi hesab edən dövlətimizin başçısı hər zaman məcburi köçkünlərimizin yanında oldu, onlarla hər görüşündə mütləq öz ocaqlarına qayıdacaqlarını inamla və qətiyyətlə söylədi. Bu gün xalqımız həmin uzaqgörən vədlərin gerçəkləşdiyi tarixi anları yaşayır: Qarabağ və Şərqi Zəngəzura ardıcıl qayıdış karvanları zəfər qüruru ilə yola salınır...

Prezident İlham Əliyevin doğma el-obalarına qovuşan keçmiş məcburi köçkünlərin evlərinə qonaq gedərək onların sevinclərini bölüşməsi də artıq xoş ənənəyə çevrilib.

Növbəti bayram əhvallı görüş Zəfərimizin 6-cı ildönümünü qeyd etdiyimiz günlərdə yaşandı. Noyabrın 6-da Zəfər bayramı ərəfəsində gerçəkləşən bu səfər zamanı Prezident İlham Əliyev Cahangirbəyli və Soltanlı kəndlərinə köçən sakinlərlə görüşdə çıxış edərək şanlı Qələbəmiz və azad edilən ərazilərdə ötən illər ərzində görülən nəhəng işləri diqqətə çatdırdı: "Azərbaycan xalqı 44 günlük Vətən müharibəsi zamanı bir yumruq kimi birləşmişdi. Bu Zəfər bizim qəlbimizdə əbədi yaşayacaq. Xalqımız və gələcək nəsillər bu Zəfərlə daim fəxr edəcəklər. Çünki biz ədaləti bərpa etdik, öz ləyaqətimizi bərpa etdik və döyüş meydanında qan tökərək öz haqqımızı bərpa etdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin... ...Onların qisası döyüş meydanda alınıb və bu gün onların əziz xatirəsinə ən böyük hörmət əlaməti bax, Qarabağın, Şərqi Zəngəzurun belə gözəl dirçəldilməsidir".

Ölkəmizin rəhbəri əlavə etdi ki, bu gün biz demək olar ki, müntəzəm olaraq yeni gözəl kəndlər, şəhərlər salırıq, sıfırdan qururuq: "Çünki mənfur düşmən bizim bütün şəhər və kəndlərimizi yerləyeksan etmişdi, o cümlədən Cahangirbəyli, Soltanlı kəndlərini də tam dağıtmışdı. Bu gün bu iki kəndə təqribən 700-ə yaxın ailə qayıdır. Sizin üçün gözəl evlər tikilib. Əminəm ki, siz bu şəraitdən səmərəli şəkildə istifadə edəcəksiniz. Əsas məsələ odur ki, artıq köçkünlük həyatı arxada qalır".

"Bəlkə yuxu görürəm..." - səmimi hisslərin ifadəsi...

Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərlə görüşləri, yaşanan səmimi dialoqlar unudulmaz anlarla yadda qalır. Dövlət başçısının Cahangirbəyli və Soltanlı kəndlərinin sakinləri ilə görüşündə də elə oldu. Məhz bu səmimi mühitdə 33 illik həsrətin son nöqtəsi qoyuldu. İllərlə ürəklərdə gəzdirilən ən kövrək hisslər, böyük inam və təşəkkür ifadələri dilə gəldi.

"Otuz ildən sonra, yox, otuz üç ildən sonra Sizin bizi buraya qaytarmağınız əslində möcüzədir. Mənim üçün möcüzədir. Mən fikirləşirəm ki, bəlkə yuxu görürəm, inanın səmimiyyətimə. Sonra baxıram ki, yox, yuxu deyil. Allah Sizi qorusun, Allah Sizə cansağlığı versin", - deyə sakinlərdən biri öz səmimi duyğularını ifadə etdi.

Yaxud digər sakinin dediklərindən: "Yaralı, əsir düşmüş vətənimizin yeganə xilası onun yaralarını ancaq Zəfərlə sarımaq olardı ki, bu mümkünsüz işi Siz bacardınız, əziz Prezidentimiz... ...Ulu Öndərimizdən və şəhidlərimizdən bizlərə əmanət qalmış bu Vətən torpağının bundan sonra bərpa olunub yenidən dirçəlməsi üçün qalan vəzifə artıq biz vətəndaşların borcudur. Sizə söz veririk ki, yurdumuzun abadlığı üçün biz də hər zaman dövlətimizin və Sizin arxanızdayıq".

Söhbət əsnasında Prezident sakinlərin gələcək planları, təsərrüfat qurmaq istəkləri ilə yaxından maraqlandı.

Dövlət başçısının "Burada nə işlə məşğul olacaqsınız?" sualını cavablandıran kişi sakinin "maşının daşını atıb" kənd təsərrüfatı ilə məşğul olacağını bildirməsi torpağa bağlılığın və qurub-yaratmaq əzminin bariz nümunəsi idi: "Burada kənd təsərrüfatı ilə. Bizim camaat işlək camaatdır, cənab Prezident, əkəcəklər, biçəcəklər".


Bölgədə Zəngəzur (TRIPP) dəhlizinin açılması, dəmir yolunun çəkilməsi, məktəb və bağçaların fəaliyyətə başlaması ilə böyük inkişafın olacağını bildirən Prezident İlham Əliyev kənddə məşğulluq imkanlarının geniş olacağını xüsusi vurğuladı: "Burada iş çox olacaq. Zəngəzur dəhlizi də kəndin ərazisindən keçir. Burada böyük inkişaf gözlənilir, dəmir yolu da işləyəcək... ...Məktəbi də soruşmuşam, müəllimlər məktəbdə, bağçada işləyəcəklər".

Görüşdə yaşanan kövrək, eyni zamanda qürurverici anlardan biri şəhid anasının - 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli Ziyadxan Əliyevin anasının dilindən səslənən o unudulmaz sözlər oldu: "Necə deyim, yaşamadığımız, düşünə bilmədiyimiz bir möcüzəni Siz bizə yaşatdınız, əsgərlərimizlə, ordumuzla bərabər, xalqın birliyi ilə bərabər. İnşallah, birliyimiz pozulmasın. Allah Sizi var eləsin. Siz bizim əbədiyaşar Prezidentimizsiniz".

Otuzillik ayrılığa son qoyan yurda möhtəşəm qayıdış həm də xalqımızın milli qürurunun, iradəsinin və ədalətin bərpasının əbədi dastanıdır. Azad ərazilərdə ucalan hər yeni ev, çiçəklənən torpaqlar bir daha sübut edir ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi, şanlı ordumuzun qəhrəmanlığı ilə qazanılan bu Zəfərin işığı daim Qarabağ və Şərqi Zəngəzura - bütöv Azərbaycana nur saçacaq.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Zəfərin qüdrəti Qarabağın və Şərqi Zəngəzurun dirçəlişində öz əksini tapır



8 Noyabr - Zəfər Günü xalqımızın milli qürurunun, sarsılmaz iradəsinin, dövlətimizin qüdrətinin və ərazi bütövlüyümüzün bərpasının rəmzidir. 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixində yeni dövrün başlanğıcı oldu.

Zəfər yalnız torpaqlarımızın işğaldan azad edilməsi ilə kifayətlənmədi, həm də ölkəmizin gələcək inkişafı üçün geniş imkanlar yaratdı. Bu gün Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən nəhəng quruculuq işləri həmin tarixi Qələbənin davamı, onun iqtisadi, sosial və mənəvi müstəvidə təntənəsidir.

Otuz ilə yaxın işğal altında qalan torpaqlarımızda şəhərlər, kəndlər, tarixi abidələr, yaşayış məntəqələri və infrastruktur obyektləri dağıdılmış, yerlə-yeksan edilmişdi. Bir zamanlar həyatın canlandığı yurd yerləri xarabalığa çevrilmiş, minlərlə insan doğma ocağından didərgin düşmüşdü. Lakin Azərbaycan xalqı heç vaxt doğma torpaqlarına qayıdacağına inamını itirmədi. Hər bir məcburi köçkünün qəlbində yaşatdığı yurd həsrəti Vətən müharibəsində qazanılan Zəfərlə sona çatdı. İndi həmin torpaqlarda yüksələn binalar, salınan yollar, məktəblər, xəstəxanalar və istehsal müəssisələri Azərbaycanın gücünü, xalqımızın qurub-yaratmaq əzmini nümayiş etdirir.

Noyabrın 8-də Zəfər Günü münasibətilə Azərbaycan xalqına müraciət edən Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq işlərinin mahiyyətini və tarixi əhəmiyyətini xüsusi qeyd etdi. Dövlət başçısı bildirdi ki, Azərbaycan xalqı bu gün azad Qarabağda qurub-yaradır, öz torpaqlarının sahibi olduğunu bütün dünyaya nümayiş etdirir: "Bu gün biz azad Qarabağda qurub-yaradırıq. Bu gün biz - bu torpaqların sahibləri bütün dünyaya göstəririk ki, bura bizim torpağımızdır. Çünki biz qurub-yaradan xalqıq. İşğal dövründə Ermənistan ancaq bizim təbii sərvətlərimizi talayırdı, meşələrimizi qırırdı, mədənlərimizi qanunsuz olaraq istismar edirdi. Biz isə şəhərləri sıfırdan qururuq. İşğal dövründə bizim bütün şəhər və kəndlərimiz yerlə-yeksan edilmişdir. Bu, misli görülməmiş barbarlıqdır. Bizim tarixi abidələrimiz, məscidlərimiz Ermənistan tərəfindən dağıdıldı və təhqir olundu. İndi genişmiqyaslı quruculuq işləri gedir, "Böyük qayıdış" proqramı icra edilir. Artıq 97 min insan azad edilmiş ərazilərdə yaşayır, təhsil alır, çalışır və hər ay biz keçmiş köçkünlərin öz doğma torpaqlarına qayıtmasının şahidləriyik".

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq işlərinin əsas məqsədi yalnız dağıdılmış şəhər və kəndləri yenidən bərpa etmək deyil, həm də burada müasir və dayanıqlı həyat şəraiti yaratmaqdır. Dövlət başçısının rəhbərliyi ilə icra olunan "Böyük qayıdış" proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda yaşayış məntəqələri, sosial obyektlər, nəqliyyat infrastrukturu və iqtisadi müəssisələr kompleks şəkildə yenidən qurulur. Müasir şəhərsalma prinsipləri əsasında həyata keçirilən layihələr bölgənin iqtisadi potensialının reallaşdırılmasına, yeni iş yerlərinin açılmasına və əhalinin məşğulluğunun təmin edilməsinə xidmət edir. Bununla da işğal dövründə həyatın dayandığı bu torpaqlarda yeni inkişaf mərhələsinin əsası qoyulur, doğma yurda qayıdan sakinlərin burada rahat və təhlükəsiz yaşaması üçün zəruri şərait yaradılır.

Noyabrın 6-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonunun Cahangirbəyli və Cəbrayıl rayonunun Soltanlı kəndlərinə köçən sakinlərlə görüşü də bu tarixi prosesin növbəti əlamətdar hadisəsi oldu. Dövlət başçısının sakinlərlə söhbəti zamanı səsləndirdiyi fikirlər həm Zəfərin mənəvi mahiyyətini, həm də həyata keçirilən quruculuq siyasətinin əsas məqsədini aydın ifadə etdi. Prezident İlham Əliyev bildirdi: "Azərbaycan xalqı 44 günlük Vətən müharibəsi zamanı bir yumruq kimi birləşmişdi. Bu Zəfər bizim qəlbimizdə əbədi yaşayacaq. Xalqımız və gələcək nəsillər bu Zəfərlə daim fəxr edəcəklər. Çünki biz ədaləti bərpa etdik, öz ləyaqətimizi bərpa etdik və döyüş meydanında qan tökərək öz haqqımızı bərpa etdik".

Dövlət başçısının şəhidlərimizin əziz xatirəsi ilə bağlı söylədiyi fikirlər də xüsusi məna daşıyır. Prezident vurğuladı ki, onların xatirəsinə ən böyük hörmət əlaməti Qarabağın və Şərqi Zəngəzurun belə gözəl dirçəldilməsidir. Bu gün azad edilmiş torpaqlarda həyata keçirilən hər bir layihə Vətən uğrunda canından keçmiş qəhrəmanlarımızın müqəddəs xatirəsinə ehtiramın ifadəsidir. Yeni salınan hər kənd, istifadəyə verilən məktəb, doğma ocağına qayıdan hər ailə şəhidlərimizin uğrunda mübarizə apardığı arzuların gerçəkləşdiyini göstərir.

Prezident İlham Əliyevin noyabrın 7-də Ağdam, Xankəndi və Şuşaya səfəri çərçivəsində iştirak etdiyi açılış və təməlqoyma mərasimləri də quruculuq prosesinin geniş miqyasını nümayiş etdirdi. Bir vaxtlar tamamilə dağıdılmış Ağdam bu gün müasir sənaye, səhiyyə və yaşayış infrastrukturu ilə yenidən formalaşır. Dövlət başçısının Ağdam Zeytun müəssisəsində yaradılan şəraitlə tanış olması, Ağdam Sənaye Parkında "ASMC" MMC-nin metal məmulatları istehsalı müəssisəsinin və "Komfy" MMC-nin ortopedik döşək istehsalı müəssisəsinin açılışlarında iştirakı bölgənin iqtisadi potensialının inkişaf etdirilməsi istiqamətində atılan mühüm addımlardır. Bu müəssisələrin yaradılması yalnız istehsal imkanlarının genişləndirilməsi baxımından deyil, həm də yeni iş yerlərinin açılması, yerli iqtisadi fəallığın artırılması və Qarabağın ölkə iqtisadiyyatına inteqrasiyası baxımından əhəmiyyətlidir.

Sosial infrastrukturun inkişafı da Böyük qayıdışın əsas istiqamətlərindəndir. Prezident İlham Əliyevin Ağdam Rayon Mərkəzi Xəstəxanasının binasında aparılan tikinti işləri ilə tanış olması əhalinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsinə verilən önəmin göstəricisidir. Müasir səhiyyə müəssisələrinin yaradılması insanların doğma torpaqlarında rahat yaşamasına, sağlamlığının qorunmasına və bölgədə uzunmüddətli məskunlaşmanın təmin edilməsinə xidmət edir.

Qarabağın dirçəlişində təhsil və elmin inkişafına da xüsusi diqqət yetirilir. Noyabrın 6-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Zəngilan Şəhər Təhsil Kompleksinin açılışında iştirak etmələri bunun bariz nümunəsidir. Yeni təhsil ocaqlarının yaradılması gələcək nəsillərin müasir bilik və bacarıqlara yiyələnməsi üçün geniş imkanlar açır. Xankəndidə Qarabağ Universitetinin kitabxanasının və İnnovasiya Mərkəzinin binalarının təməllərinin qoyulması, universitetin klinikasının Təcili tibbi yardım şöbəsinin açılması da bölgənin elm, təhsil və səhiyyə mərkəzinə çevrilməsi istiqamətində mühüm hadisələrdir. Bu layihələr Qarabağda intellektual potensialın gücləndirilməsinə, elmi tədqiqatların və innovativ fəaliyyətin inkişafına xidmət edəcək. Şuşa Dövlət Peşə Təhsil Mərkəzinin əsaslı təmirdən sonra açılması isə əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrların hazırlanması baxımından əhəmiyyət daşıyır.

Həmin gün əsaslı yenidənqurmadan sonra Xankəndi Stadionunun açılışı da xüsusi rəmzi məna kəsb edir. İdman infrastrukturu insanların sağlam həyat tərzinin təşviqi ilə yanaşı, bölgənin ictimai və sosial həyatının canlanmasına töhfə verir. Xankəndidə universitetin, səhiyyə müəssisələrinin və idman obyektlərinin inkişaf etdirilməsi şəhərin Azərbaycanın mühüm mədəni, elmi və ictimai mərkəzlərindən birinə çevrilməsi üçün zəmin yaradır.

İşğaldan azad edilmiş bütün ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri Qarabağ və Şərqi Zəngəzurun yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir. Yenidən qurulan şəhər və kəndlər, yaradılan müasir infrastruktur, istifadəyə verilən sosial və iqtisadi obyektlər, fəaliyyətə başlayan təhsil və səhiyyə müəssisələri bu torpaqlarda həyatın hərtərəfli bərpasına xidmət edir. Doğma yurdlarına qayıdan insanların məskunlaşması, məşğulluğunun təmin edilməsi və rahat yaşayışı üçün yaradılan şərait isə Böyük qayıdışın real nəticələrini göstərir. Bu gün Azərbaycan dünyaya mühüm bir həqiqəti nümayiş etdirir. Xalqımız öz torpaqlarını azad etmək qüdrəti ilə yanaşı, onları yenidən dirçəltmək iradəsinə də malikdir.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

Tərtərdə bayram ovqatı

Zəfər Günü münasibətilə keçirilən tədbirdə rayon rəhbərliyi, məhkəmə və hüquq-mühafizə orqanlarının əməkdaşları, YAP rayon təşkilatının, Ağsaqqallar Şurasının sədrləri əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini və Şəhidlər Abidə Kompleksini ziyarət ediblər.



Zəfər bayramı rayon icra hakimiyyətinin, YAP rayon təşkilatının və Qarabağ Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyev adına parkda təntənəli bayram konserti ilə davam edib. Konsert proqramında tanınmış müğənnilərin ifasında səslənən bir-birindən rəngarəng vətənpərvərlik mahnıları tamaşaçılar tərəfindən böyük rəğbət və alqışlarla qarşılanıb. Yüksək vətənpərvərlik ruhu və coşqu ilə keçən bayram proqramı tədbir iştirakçılarında unudulmaz anlar yaşadıb, hər kəsdə yüksək ovqat doğurub.

Lazım QULİYEV,
"Azərbaycan"

9 Noyabr Dövlət Bayrağı Günüdür

"Bayraq mənliyimdir, bayraq kimliyim"

9 Noyabr Azərbaycan xalqının milli qürurunu, dövlətçilik iradəsini və müstəqillik əzmini özündə yaşadan, tariximizin şanlı səhifələrindən birinə çevrilən əlamətdar gündür. O, sadəcə, bir dövlət rəmzinin təsdiq olunduğu tarix deyil, həm də xalqımızın azadlıq mübarizəsinin, milli kimliyinin, tarixi yaddaşının və sarsılmaz dövlətçilik ənənələrinin təntənəsi günüdür. Bayrağımız hər bir azərbaycanlının qəlbində Vətən sevgisinin, milli birliyin və müstəqilliyə sədaqətin müqəddəs nişanəsidir.



1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə üçrəngli bayrağımız dövlət rəmzi kimi qəbul edildi. Bu tarixi qərar xalqımızın müstəqil dövlət qurmaq iradəsinin, milli özünüdərkinin və gələcəyə inamının parlaq təcəssümü idi.

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə üçrəngli bayrağımız dövlət idarələrindən endirilsə də, onu xalqımızın yaddaşından, qəlbindən və azadlıq arzularından silmək mümkün olmadı. Bayraq fiziki olaraq endirilsə də, müstəqillik ideyası nəsillərdən-nəsillərə ötürülərək yaşadı. Bu bayraq bir xalqın azad yaşamaq haqqının, milli ləyaqətinin və dövlətçilik əzminin rəmzi olduğu üçün direklərdən ürəklərə enmişdi. 1990-cı il noyabrın 17-də isə milli tariximizdə yeni və mühüm bir səhifə açıldı. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə üçrəngli bayrağımız Naxçıvan Muxtar Respublikasının Ali Məclisində dövlət bayrağı kimi qəbul edildi. Bu addım milli dövlətçilik tariximizin bərpası istiqamətində böyük siyasi cəsarət və qətiyyət nümunəsi idi. 1991-ci il fevralın 5-də isə üçrəngli bayrağımız yenidən Azərbaycan Respublikasının Dövlət Bayrağı elan edildi. Beləliklə, xalqımız öz tarixi rəmzinə, milli kimliyinə və müstəqil dövlətçilik ənənələrinə qovuşdu.

Bu gün bayrağımız müstəqil Azərbaycanın bütün dünyada tanınan, ehtiramla qarşılanan dövlət rəmzidir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər bayrağımıza yeni bir əzəmət, qürur bəxş etdi. Uzun illər işğal altında qalan torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası dövlətçilik tariximizin möhtəşəm hadisələrindəndir. Bir zamanlar həsrətlə gözlədiyimiz bayrağımız bu gün Qarabağda, Şərqi Zəngəzurda, Xankəndidə və digər əzəli torpaqlarımızda qürurla dalğalanır.

Bu Zəfərin arxasında Vətən sevgisi ilə döyünən ürəklər, misilsiz qəhrəmanlıq göstərən igidlər, canından keçərək şəhidlik zirvəsinə ucalan oğullarımız dayanır. Onların qanı, canı və müqəddəs əmanəti hesabına bu bayraq azad torpaqlarımızda yenidən ucaldı. Hər dalğalanışında bir şəhidin xatirəsi, hər zirvəsində bir qəhrəmanlıq izi, hər rəngində xalqımızın tarixi və milli mənəvi dəyərləri yaşayır.

Bu gün bayrağımıza baxarkən təkcə onun rənglərini deyil, bütöv bir xalqın taleyini, mübarizəsini, ağrı-acısını, sevincini və qələbəsini görürük. O, bizim keçmişimizlə gələcəyimiz arasında müqəddəs bir körpüdür. Bayrağa, Vətənə hörmət, dövlətə sədaqət, şəhidlərimizin əmanətinə sahib çıxmaq deməkdir. Onu qorumaq, ucalığını yaşatmaq hər bir azərbaycanlının mənəvi borcudur.

Dövlət bayrağım! Sən dalğalandıqca Azərbaycan yaşayacaq, dövlətimiz güclənəcək, xalqımızın müstəqillik iradəsi daha da möhkəmlənəcək. Sənin kölgəndə böyüyən gələcək nəsillər azadlığın, müstəqilliyin və Vətən sevgisinin nə qədər böyük nemət olduğunu heç zaman unutmayacaqlar.

Dalğalan, müqəddəs bayrağımız! Sən azadsan, Azərbaycan azaddır! Sən ucasan, Azərbaycan ucadır! Müstəqilliyimiz əbədi, suverenliyimiz dönməz, dövlətçiliyimiz sarsılmazdır!

9 Noyabr - Dövlət Bayrağı Günün mübarək, Azərbaycan!

Elşən QƏNİYEV,
"Azərbaycan"



Bayraq ucalanda Vətən ucalar

Varlığımız, ucalığımızdır bayrağımız. İndi o, vüqarla dalğalanır işğaldan azad olunmuş torpağımızda, Vətənimizin hər yerində, neçə-neçə ölkədəki Azərbaycan elçiliklərinin qarşısında.

İdmançılarımızın dünya arenalarında qazandıqları qələbələr zamanı ucalan bayrağımız hər birimizin qəlbini sevinc hissi ilə doldurur, riqqətə gətirir. Müstəqilliyimizin atributlarından biri olan bayrağımız qələbə paradlarında, el şənliklərində, tədbirlərdə Zəfər simvolu kimi dalğalanır. Bakıda Xəzərin qucağındakı Bayraq meydanında ucalır əzəmətli Azərbaycan Bayrağı.

Bu bayraq haqqında gör nə qədər şeirlər yazılıb, nəğmələr bəstələnib. Mənim də qəlbimdən bu misralar süzüldü.

Bayraq bir millətin özünüdərki,
Qeyrəti, məsləki, əqidəsidir.
İliyindən keçib canından gələn,
Dilində göyərən haqqın səsidir.

Uca əcdadımın Qobustandakı
Qayada cizgisi, qavaldaşıdır.
Yüz illər, min illər yol keçib gələn,
Nəsillər yaşadan qan yaddaşıdır.

Xətai idrakı, Babək qılıncı,
Koroğlu sazının öz simidir o.
Babam Füzulinin qərib məzarı,
Hələbdə soyulan Nəsimidir o.

Kəpəzdi, Qoşqardı, Arazdı, Kürdü,
Mayası atəşdən, oddan yoğrulub.
Üç rəngi köçürüb öz varlığına,
Bir aylı gecədə sanki doğulub.

Dönüb bir millətin səcdəgahına,
İgidlər önündə onun and içər.
"Yaşa, ana yurdum, sən yaşa ,"- deyə
Girib döyüşlərə canından keçər.

Vətən övladları igid, cüssəli,
Düşmənin bağrını dağıdar, sökər.
Heç nədən qorxmayan oğullar belə
Bayrağın önündə yalnız diz çökər.

Döyüşlər, savaşlar önündə gedib,
Zəfər ilhamıyla dalğalanıbdır.
Çox vaxt cəbhələrdə hamıdan qabaq
İlkin zərbələri bayraq alıbdır.

Namusdu, qeyrətdi, şöhrətdi, şandı,
Bayraq ucalanda millət ucalar.
Bayrağı ucaldan oğullar varsa,
O millət həmişə zəfərlər çalar.

Dik saxla başını, dik tut, Bayrağım!
Qəddin əyilməsin heç vaxt bir daha!
Hələ qarşıdadır sənin xoş çağın,
Gedək o günləri doğan sabaha!

Seyran CAVADOV,
"Azərbaycan"

Qələbə rəmzi

Dövlət Bayrağı Günü... Hər gün əzizlədiyimiz, varlığından qürur və şərəf duyduğumuz müqəddəs bayrağımıza sevgi və ehtiramın təntənəsi. Xalqımızın və dövlətçiliyimizin tarixinə, milli-mənəvi dəyərlərimizə ali münasibət bəsləyən Prezidentimiz İlham Əliyevin 17 noyabr 2009-cu il sərəncamına əsasən, hər il noyabrın 9-da qeyd etdiyimiz əziz bayram.

108 il əvvəl qurulan, lakin ömrü çox qısa olan Azərbaycan Xalq Cümhuriyyətinin - Şərqdə ilk demokratik respublikanın, arzusu ürəyində qalan, amallarına sədd çəkilən babalarımızın yadigarıdır üçrəngli bayrağımız. Ulu Öndərimiz Heydər Əliyevdən əmanətdir bizə. Məhz 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin qəbul etdiyi qərarlar müstəqillik mübarizəsi tariximizin ən əlamətdar hadisələri sırasına yazıldı. Ümummilli Liderin sədrliyi ilə keçirilən iclasda onun təşəbbüsü və təklifi ilə qəbul edilən tarixi qərarlardan biri müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı olması barədə idi. Qərarda həmçinin Azərbaycan Respublikasının ali qanunverici orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxması, respublikamızın milli tarixi ənənələrinə uyğun olaraq yeni dövlət rəmzlərinin - bayrağın, gerbin, himnin qəbul olunması təklif edildi. Bax beləcə, 33 il əvvəl, sovet hakimiyyətinin hələ "yaşadığı" bir vaxtda Heydər Əliyev üçrəngli bayrağımızı xalqımıza, Azərbaycanımıza qaytardı. Heç üç ay keçmədən - 1991-ci il fevralın 5-də respublika Ali Soveti üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi təsdiq olunması barədə qərar qəbul etdi.

O vaxtdan bəri çox keşməkeşlərdən keçdi bayrağımız. Namərd qonşumuzun olmazın vəhşiliklərinin, ona dəstək verənlərin namərdliyinin şahidi oldu. Qaçqınlı-köçkünlü günlərimizi bərabər yaşadı bizimlə. Sapı özümüzdən olan baltaların dağıtdığı, talan etdiyi iqtisadiyyatımızı gördü... Yağı əlində qalan yurd yerlərimizin həsrətini bizimlə bərabər çəkdi... Lakin sınmadı, əyilmədi bayrağımız.

Etibarlı əllər tutmuşdu onu. Biz ondan, o da bizdən güc aldı. Ulu Öndərimizin uzaqgörənliklə göstərdiyi yolla irəlilədik. Müdrik liderimiz İlham Əliyevin ardınca getdik, yumruq kimi birləşdik, günü-gündən gücləndik. Elə bir güclü Azərbaycan qurdu ki, Prezidentimiz, elə bir yenilməz ordu yaratdı ki, Müzəffər Ali Baş Komandanımız, elə bir gənc nəsil yetişdirdi ki, dövlətimizin başçısı, cəmi 44 günə illərdir sinəsini döyüb "qürurlanan" yağıya diz çökdürdü. Torpaqlarımızda həmişəlik at oynadacağını düşünən düşmən yurdumuzda bərqərar etməyə çalışdığı bayrağını ayaq altında, silahını döyüş meydanında atıb qaçdı.

Biz isə müqəddəs üçrəngli bayrağımızla döndük öz doğma torpağımıza, yurd-yuvamıza. Prezidentimiz Şuşada, Zəngilanda, Füzulidə, Kəlbəcərdə, Xankəndidə, Xocalıda, bir sözlə, işğaldan azad edilmiş torpaqlarımızın hər tərəfində bayrağımızı ucaltdıqca göz yaşlarımızı saxlaya bilmədik. Bu dəfə sevinc göz yaşlarını...

İndi Qarabağın və Şərqi Zəngəzurun elə bir kəndi və şəhəri yoxdur ki, orada Azərbaycan bayrağı dalğalanmasın. Düşmənə gözdağı olan Azərbaycan bayrağı!

Müqəddəsdir bu bayraq. Bizimlə bərabər odlardan-alovlardan keçdiyi üçün. Vətən torpağı uğrunda həyatını qurban verən igidlərimizi son mənzilə yola salıb şəhid evlərində qəhrəmanlıq rəmzi kimi qorunaraq nəsillərə yadigar qaldığı üçün. Bizi qələbədən-qələbəyə apardığı üçün. Daha işıqlı sabahlara doğru gedən yolumuzda yol yoldaşımız olduğu üçün...

Bayraq Günün mübarək, qalibiyyət bayraqlı Azərbaycan!

Flora SADIQLI,
"Azərbaycan"

Müstəqil dövlətimizin etibarlı dayağı

Torpaqlarımızın işğaldan azad olunmasından 6 il ötür. 6 il öncə Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında İkinci Qarabağ müharibəsində 30 ilə yaxın davam edən erməni işğalına son qoydu. Silahlı Qüvvələrimiz, müstəqil dövlətimiz bu müharibədə dosta da, düşmənə də gücünü, qüdrətini göstərdi.



44 günlük Vətən müharibəsi bir daha göstərdi ki, döyüşlərdə qalib gələn güclü və qüdrətli Azərbaycan Ordusudur, sübut etdi ki, Vətən savaşında qazanılan qələbə Ümummilli Lider Heydər Əliyevin bünövrəsini qoyduğu ordu quruculuğu siyasətinin uğurlu nəticəsidir.

Güclü, qüdrətli Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində uğurlu əks-hücum əməliyyatları zamanı noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kəndi erməni işğalçılarından azad etdi. Bu, bir daha göstərdi ki, ölkəmizdə ordu quruculuğu həmişə dövlətin əsas diqqət mərkəzində olub. Elə bu diqqətin nəticəsində də ordumuz İkinci Qarabağ müharibəsində yüksək peşəkarlıq nümayiş etdirib, həm texniki imkanları və taktiki addımları, həm də əməliyyatların hazırlanması və icra edilməsi baxımından dünya üçün indiyə qədər görünməmiş nümunə olub. Prezident İlham Əliyev hərbçilərimizin İkinci Qarabağ müharibəsində göstərdiyi şücaətdən, fədakarlıqdan danışarkən demişdir: "Bizim Ordumuz müharibə zamanı öz gücünü göstərdi, iradəsini göstərdi, xalqımız bütövlükdə əyilməz ruhunu göstərdi. Hərbçilərimiz böyük fədakarlıq göstərmişlər, sözün əsl mənasında ölümə gedirdilər və 3 minə yaxın övladımız şəhid oldu. Ordumuz kifayət qədər güclü idi. Ordumuzun gücləndirilməsi heç kimə sirr deyildi".

İkinci Qarabağ müharibəsində düşmən üzərində qazanılan qələbədən sonra da ordu quruculuğu bir an olsun belə dayandırılmayıb, əksinə, bu proses daha sürətlə davam edir. Dövlətimizin gündən-günə artan iqtisadi gücü, maliyyə imkanları hesabına Silahlı Qüvvələrimiz ən müasir hərbi texnika və avadanlıqlarla təmin olunur. Silahlı Qüvvələrin döyüş imkanlarının artırılması, daha da güclənsə dirilməsi məqsədilə zəruri islahatlar həyata keçirilir, yeni hərbi hissə və birləşmələr yaradılır, qoşun növlərinin texnika və silah-sursatla təchizatının modernləşdirilməsi, hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması üçün müdafiə sahəsinə ayrılan dövlət xərcləri artırılır.

Prezident İlham Əliyev müharibədən sonra ordu quruculuğu iştiqamətində atılan zəruri addımlardan söz açaraq demişdir: "İkinci Qarabağ müharibəsindən sonra biz dayanmadıq, əksinə, irəliyə gedirik. Biz daim hazır olmalıyıq. Təhdidlər artır, təhlükələr artır və biz hər bir təhlükəni dəf etməyə qadir olmalıyıq. Bu gün də belədir. Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır - həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib. Ordu quruculuğu bu gün lazımi səviyyədə təmin edilir və bundan sonra da təmin ediləcəkdir".

Prezident İlham Əliyev Azərbaycan Ordusunun gələcək inkişaf prespektivləri barədə mühüm açıqlamalar verərkən komando birliklərinin formalaşdırılmasından, yerli hərbi sənayemizin sürətli inkişafından, həmçinin Silahlı Qüvvələrin 44 günlük Vətən müharibəsində göstərdiyi şücaətdən də danışıb. Dövlətimizin başçısı Azərbaycan Ordusunda komando birliklərinin formalaşdırılmasına toxunaraq bildirib ki, bizim komando qüvvələrimiz artıq tam formalaşıb, çox böyük qüvvəyə çevrilib və bu proses davam edəcək. Üstəlik, xüsusi təyinatlı qüvvələrimizin də sayı artacaq. Ümumiyyətlə, Prezident İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə Azərbaycan Ordusunun inkişafı, modernləşməsi, NATO standartlarına uyğunlaşdırılması üçün sistemli işlər aparılıb.

Böyük Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra ölkəmizdə ordu quruculuğu prosesi beləcə sürətlə davam edir. Azərbaycan Ordusu getdikcə gücünü, qüdrətini artırır. Bu gün inamla deyə bilərik ki, daim güclənən Silahlı Qüvvələrimiz üzərinə düşən bütün vəzifələri yerinə yetirmək, ərazi bütövlüyümüzü və suverenliyimizi müdafiə etmək, sərhədlərimizi qorumaq gücünə malik və qadirdir. Xalqımız fəxr edə bilər ki, ölkəmizə qarşı yarana biləcək istənilən təhdidə layiqli cavab verməyə qadir Silahlı Qüvvələrimiz və iradəli, qətiyyətli Ali Baş Komandamız var.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"



Tarixdən güc alan ideologiya

Prezident İlham ƏLİYEV: "Azərbaycançılıq məfkurəsi bizim bütün uğurlarımızın təməlində dayanan fəlsəfədir"

Elə ideyalar var ki, zaman keçdikcə, sadəcə, siyasi və ya ictimai düşüncə çərçivəsindən çıxaraq, bütöv bir xalqın mənəvi dayağına, dövlətin varlıq fəlsəfəsinə çevrilir. Azərbaycançılıq məfkurəsi də belə ideyalardandır. O, bizi birləşdirən ortaq tarix, milli kimlik, mənəvi dəyərlər, Vətən sevgisi və gələcəyə dair vahid baxışın ifadəsidir.

Azərbaycançılıq təsadüfən yaranmış ideoloji yanaşma deyil. Onun təməlində xalqımızın çoxəsrlik dövlətçilik ənənələri, zəngin mədəni irsi, milli-mənəvi dəyərləri və tarixi sınaqlardan keçərək formalaşmış birliyi dayanır. Həmin ideologiyanın müasir Azərbaycan dövlətçiliyində möhkəmləndirilməsi isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndərin siyasi uzaqgörənliyi sayəsində azərbaycançılıq cəmiyyəti birləşdirən, milli həmrəyliyi gücləndirən, dövlətçiliyin qorunmasını ümummilli məqsədə çevirən möhkəm ideoloji dayağa çevrildi.

Bu ideyanın gücü ən ağır tarixi sınaqlarda özünü göstərdi. Azərbaycan zaman-zaman siyasi təzyiqlərlə, hərbi təhdidlərlə, iqtisadi çətinliklərlə üzləşdi. Amma hər zaman Vətənə bağlılıq, milli iradə və müstəqillik əzmi xalqımızı ayaqda saxladı. Həmin iradə illərlə davam edən mübarizədə, torpaq həsrətində, şəhidlərin qanı ilə yazılan tarixdə öz təcəssümünü tapdı.

Bu gün azərbaycançılıq məfkurəsi dövlət siyasətimizin ideoloji əsaslarından biri olmaqla yanaşı, milli birliyimizin, həmrəyliyimizin və gələcəyə baxışımızın başlıca fəlsəfəsidir. Prezident İlham Əliyevin dünən Xankəndidə Zəfər Günü münasibətilə xalqa müraciətində səsləndirdiyi fikirlər də bu məfkurənin müasir Azərbaycan üçün daşıdığı əhəmiyyəti bir daha aydın ifadə edir. Dövlət başçısı azərbaycançılığın xalqımızı birləşdirən, bütün uğurlarımızın təməlində dayanan və bizi gələcəyə aparan milli ideya olduğunu vurğulayaraq deyib: "Azərbaycançılıq məfkurəsi bizim bütün uğurlarımızın təməlində dayanan fəlsəfədir. Azərbaycançılıq bütün vətəndaşlarımızı birləşdirən fəlsəfədir. Azərbaycançılıq bizi irəliyə aparan məfkurədir. Azərbaycanda bütün etnik qruplar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bizi birləşdirən vətəndaşlıq, həmrəylik və azərbaycançılıq məfkurəsidir. Bu, bizim milli ideyamızdır. Bir daha demək istəyirəm ki, bu, gələcəyə aparan yoldur".

Bu fikirlər azərbaycançılığın yalnız tarixi keçmişimizdən qaynaqlanan ideya olmadığını, həm də bugünkü dövlətimizin inkişaf istiqamətini və sabahımızın konturlarını müəyyənləşdirən milli məfkurə olduğunu göstərir. İdeyanın ən böyük gücü isə müxtəlifliyimizi birliyə, fərqli baxışlarımızı ümumi məqsədə, vətəndaşlıq məsuliyyətimizi vahid dövlətçilik iradəsinə çevirə bilməsindədir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu gün iqtisadi və hərbi baxımdan inkişaf edən, öz milli maraqlarını qətiyyətlə qoruyan güclü dövlətdir. Lakin güclü dövlət olmaq yalnız əldə edilən uğurlarla kifayətlənmək demək deyil. Güc həm də sabahı düşünmək, mümkün təhdidləri qabaqlamaq, iqtisadi və texnoloji inkişafı sürətləndirmək, müdafiə qabiliyyətini daim yüksəltmək, gənc nəslin intellektual potensialını artırmaqdır. Əsl müstəqillik elə bir qüdrətə sahib olmaqdır ki, kimsə ölkəmizə qarşı təhdid planları qurmağı ağlından belə keçirməsin. Bu, sülhün, təhlükəsizliyin və suverenliyin etibarlı təminatı olan güclü dövlət quruculuğunun fəlsəfəsidir.

Azərbaycançılıq məfkurəsi gələcəyin Azərbaycanını qurmaq ideyasıdır. Bu ideologiyanın daşıyıcısı olan hər bir vətəndaş bilməlidir ki, dövlətə bağlılıq yalnız bayrağa sevgi ilə məhdudlaşmır. Bu, öz işinə məsuliyyətlə yanaşmaq, qanunlara hörmət etmək, milli maraqları qorumaq və gələcək nəsillər qarşısında mənəvi məsuliyyət daşımaqdır.

Azərbaycançılıq birgəyaşayış mədəniyyətidir. Bu torpaqda yaşayan insanların dili, dini, etnik mənsubiyyəti fərqli ola bilər, lakin Vətən birdir, dövlət birdir, gələcək birdir. Bizi birləşdirən də məhz bu ortaq taledir. Azərbaycanı Azərbaycan edən onun rəngarəngliyi, bu rəngarəngliyi vahid milli kimlik ətrafında birləşdirə bilən həmrəyliyi və mənəvi bütövlüyüdür.

Bu gün Zəfər tariximizin işığında gələcəyə baxarkən bir həqiqəti unutmamalıyıq: dövlətin gücü xalqın birliyindən, xalqın gücü isə öz dövlətinə inamdan başlayır. Dünən torpaqlarımızın azadlığı uğrunda bir yumruq kimi birləşən xalqımız bu gün də quruculuq, inkişaf və tərəqqi naminə eyni həmrəyliyi nümayiş etdirir.

Zəfər bizə gücümüzü, iradəmizi və tarixi məsuliyyətimizi bir daha xatırlatdı. İndi qarşımızda daha böyük vəzifə dayanır. Bu, tarixi qələbəni davamlı inkişafın, elmin, mədəniyyətin, iqtisadi qüdrətin və güclü dövlətçiliyin Zəfərinə çevirməkdir. Çünki Vətən gələcək nəsillərə əmanətdir. Onu qorumaq, ucaltmaq, daha qüdrətli etmək hər birimizin borcudur. Köklərimizdən güc alaraq gələcəyə inamla addımlamaq, milli birliyimizi qorumaq və müstəqil Azərbaycanın dövlətçilik iradəsini yaşatmaq azərbaycançılıq məfkurəsinin əsl mahiyyətidir.

Zəfərimiz tariximizdir, birliyimiz gücümüzdür, müstəqilliyimiz isə gələcəyimizin ən böyük təminatıdır!

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

Qələbəmizin təminatçısı xalqın iradəsi, ordunun qüdrəti, iqtidarın qətiyyəti oldu

Azərbaycan Vətən müharibəsinədək hərbi qüdrətinin artırılması, Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirmişdi. Ölkənin iqtisadi imkanlarının güclənməsi, müdafiə sənayesinin inkişafı, müasir silah və hərbi texnikanın istehsalı və alınması, hərbi infrastrukturun yenilənməsi Azərbaycan Ordusunun keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə şərait yaratmışdı.

Ordumuzun arsenalına daxil edilən pilotsuz uçuş aparatları, yüksəkdəqiqlikli raket-artilleriya sistemləri, zirehli texnika və digər müasir döyüş vasitələri onun hərbi-texniki üstünlüklərini əhəmiyyətli dərəcədə artırmışdı. Eyni zamanda Azərbaycan hərbçilərinin müxtəlif ölkələrdə keçirilən təlimlərdə iştirakı, beynəlxalq hərbi əməkdaşlığın genişləndirilməsi, döyüş hazırlığının və peşəkarlıq səviyyəsinin yüksəldilməsi Silahlı Qüvvələrimizi regionun ən qüdrətli ordusuna çevirmişdi.

Amma Vətən müharibəsində Azərbaycan Ordusunun gücünü yalnız müasir silah və texnikanın imkanları ilə ölçmək düzgün olmazdı. Bu ordunun hər bir əsgər və zabitini irəli aparan ən böyük qüvvə doğma torpaqların işğaldan azad edilməsi arzusu, Vətənə sonsuz məhəbbət, milli qürur və tarixi ədalətin bərpasına olan sarsılmaz inam idi. Azərbaycan hərbçiləri müasir döyüş texnologiyalarından məharətlə istifadə etməklə yanaşı, yüksək peşəkarlıq, çevik qərarvermə, döyüş əzmi və fədakarlıq nümayiş etdirdilər. Onlar mürəkkəb döyüş şəraitində qarşıya qoyulan tapşırıqları əzmkarlıqla yerinə yetirərək sübut etdilər ki, ordunun əsl qüdrəti həm də əsgərin mənəvi gücündə, Vətəninə sədaqətində və qələbəyə sarsılmaz inamındadır.

Vətən müharibəsinin hər günü Azərbaycan əsgər və zabitlərinin iradəsinin yeni bir sınağı idi. Onlar Qarabağın və Şərqi Zəngəzurun hər qarış torpağı uğrunda canlarından keçməyə hazır olduqlarını nümayiş etdirdilər. Müharibənin başladığı ilk gündən - 2020-ci il sentyabrın 27-dən yalnız qalibiyyət xəbərləri ilə doğma xalqı sevindirdilər. İşğalçı Ermənistanın silahlı qüvvələrinə döyüş meydanında ağır zərbələr endirərək Qarabağın və Şərqi Zəngəzurun düşmən tapdağı altında qalmış ərazilərini azad etdilər.

Zəfər Günü münasibətilə Azərbaycan xalqına Xankəndi şəhərindən müraciət edən Prezident, Ali Baş Komandan İlham Əliyev vurğuladı ki, bizim əsgər və zabitlərimiz müdafiə xətlərini yarmaq üçün sinələrini qabağa verib şəhid olmuşlar, yaralanmışlar, şəhadət zirvəsinə ucalmışlar. Dövlətimizin başçısı qeyd etdi ki, bizi irəliyə aparan milli ruhumuz idi: "Təbii ki, uzun illər ərzində ordu quruculuğu, Silahlı Qüvvələrimizin peşəkarlığının artırılması, müntəzəm olaraq hərbi təlimlərin keçirilməsi, döyüş qabiliyyətinin artırılması, ordumuzun müasir texnika ilə, silahlarla təchiz edilməsi amilləri Qələbəmizin qazanılmasında böyük rol oynamışdır. Amma Qələbəyə aparan əsas yol xalqımızın, əsgər və zabitlərimizin ürəyindən keçirdi. Bizi irəliyə aparan yol ləyaqət yolu idi".

Qəhrəman Azərbaycan Ordusu Vətən müharibəsində düşmənin illərlə möhkəmləndirdiyi, alınmaz hesab etdiyi müdafiə xətlərini yararaq strateji əhəmiyyətli yüksəklikləri, yaşayış məntəqələrini bir-birinin ardınca azad etdi. Savaşın ilk günlərindən etibarən Azərbaycan Ordusu təşəbbüsü öz əlində saxladı. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və digər istiqamətlərdəki uğurlar hərbi əməliyyatların gedişində ciddi dönüş yaratdı. Hər azad edilən kənd, qəsəbə və şəhər xalqımızın qələbəyə olan inamını daha da artırdı, cəbhədə vuruşan əsgər və zabitlərimizin döyüş əzmini yüksəltdi.

Vətən müharibəsinin ən mühüm mərhələlərindən biri Şuşa uğrunda aparılan döyüşlər oldu. Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı, tarixi və mənəvi yaddaşımızın ayrılmaz parçası olan Şuşanın azad edilməsinin müstəsna əhəmiyyəti vardı. Odur ki, Azərbaycanın qəhrəman oğulları olduqca mürəkkəb relyefə malik ərazidə, çətin hava şəraitində, dağlıq və meşəlik sahələrdən keçərək Şuşaya doğru irəlilədilər. Qayalıqları, sıldırım yolları aşan qəhrəman hərbçilərimiz xüsusi cəsarət, dözümlülük və peşəkarlıq nümayiş etdirdilər. Şuşa uğrunda döyüşlər Azərbaycan əsgərinin döyüş hazırlığının, mənəvi gücünün və Vətən sevgisinin bariz nümunəsi oldu.

Azərbaycan 30 ilə yaxın torpaqlarını Ermənistanın işğalından danışıqlar yolu ilə azad etməyə səy göstərdi. Amma işğalçı dövlət və onun xarici havadarları münaqişənin həllində maraqlı olmadıqlarını göstərir, işğal müddətini uzatmağa çalışırdılar. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində vurğuladı: "Ermənistan tərəfi o qədər azğınlaşmışdı ki, hətta bizi daim hədələyirdi. Yeni ərazilər uğrunda yeni müharibə ilə hədələyirdi, "Qarabağ Ermənistandır və nöqtə" sözləri ilə bizim ləyaqətimizi alçaltmağa çalışırdı. Biz isə buna döyüş meydanında cavab verdik və döyüş meydanında kimin kim olduğunu hər kəs əyani şəkildə gördü. Bir nəfər belə olsun Azərbaycan Ordusundan qaçan, fərarilik edən olmayıb. Halbuki Ermənistan rəhbərliyinin etirafına görə, Ermənistan ordusunda 12 minə yaxın fərari olmuşdur. Bax, fərq bundan ibarətdir. Azərbaycan döyüş meydanında tam üstünlüyü təmin edərək, 8 noyabr günündə - Zəfər bayramını qeyd etdiyimiz gündə Şuşanın azad edilməsi faktiki olaraq İkinci Qarabağ müharibəsinin taleyini həll etdi. Ondan bir gün sonra - noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktına imza atdı".

Ermənistanın hərbi-siyasi rəhbərliyi müharibəni davam etdirməyin mümkünsüzlüyünü dərk edərək kapitulyasiya aktını imzalamağa məcbur oldu. Bəyanatın şərtlərinə əsasən, 2020-ci il noyabrın 10-dan etibarən bütün hərbi əməliyyatlar tam dayandırıldı. Bu sənədin şərtlərinə uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonları Azərbaycana qaytarıldı. Beləliklə, üçtərəfli Bəyanatın imzalanması ilə Vətən müharibəsi başa çatdı. Bu, Azərbaycanın uzun illər davam edən işğala son qoymaq, ərazi bütövlüyünü bərpa etmək istiqamətində apardığı mübarizənin qələbə ilə başa çatması idi.

44 günlük Vətən müharibəsi Azərbaycan dövlətinin qüdrətini, xalqımızın birliyini və ordumuzun döyüş qabiliyyətini bütün dünyaya nümayiş etdirdi.

Bu gün azad edilmiş torpaqlarımızda dövlət bayrağımız dalğalanır. Şuşada, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Ağdamda, Kəlbəcərdə və Laçında həyat yenidən canlanır. Qarabağ və Şərqi Zəngəzurun işğalı artıq tarixdə qalıb. Azərbaycan xalqı bu tarixi ibrət dərsi kimi heç zaman yaddan çıxarmayacaq. Vətən müharibəsində şəhid olan igidlərimizin əziz xatirəsini, qazilərimizin qəhrəmanlığını isə gələcək nəsillər şərəf və cəsarət nümunəsi kimi xatırlayacaqlar.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"


Zəfərin Xankəndidən ucalan səsi

İkinci Zəfər tağının önündə səslənən müraciət tarixi qələbəmizin mənəvi və siyasi məzmununu bir daha nümayiş etdirdi

Elə tarixi anlar var ki, sanki zaman dayanır, keçmişin ağrıları, bu günün qüruru və gələcəyin əzəməti göz önündə canlanır. Elə məkanlar var ki, oradan səslənən sözlər adi müraciət çərçivəsini aşaraq bütöv bir xalqın tarixi yaddaşına, milli iradəsinə və dövlətçilik salnaməsinə həkk olunur.

8 Noyabr - Zəfər Günü münasibətilə Prezident İlham Əliyevin Azərbaycan xalqına Xankəndidən, şanlı Qələbəmizin şərəfinə ucaldılmış ikinci Zəfər tağının önündən ünvanladığı müraciət məhz belə tarixi məqamlardan idi. Bu müraciət Zəfərin doğurduğu qürurun, bərpa edilmiş suverenliyin və qalib Azərbaycanın yenilməz dövlətçilik iradəsinin bütün dünyaya növbəti bəyanı idi. Bir vaxtlar həsrətin, mübarizənin və tarixi ədalət uğrunda mücadilənin ünvanı olan Xankəndidən bu gün Qələbə səsinin ucalması hadisəyə xüsusi rəmzi məna, dərin tarixi məzmun və misilsiz mənəvi əzəmət qazandırır.

Dövlətimizin başçısının müraciətini Xankəndidən səsləndirməsi təsadüfi deyil, Azərbaycanın 30 illik işğala son qoymasının, tarixi ədalətin bərpasının, ərazi bütövlüyünün və dövlət suverenliyinin təmin edilməsinin rəmzi ifadəsidir. İşğal zamanı şeytan yuvasına çevrilmiş Xankəndi bu gün Azərbaycanın bütövlüyünün, dövlətçilik iradəsinin və quruculuq əzminin ünvanıdır. Bu baxımdan Prezident İlham Əliyevin məhz Xankəndidən xalqa müraciəti Zəfər tariximizin mənəvi məntiqini tamamlayan mühüm hadisə kimi diqqət çəkir. Dövlət başçısı müraciətində bu rəmzi məqamı xüsusi vurğulayaraq bildirmişdir: "Bu təbrik sözlərimi mən Xankəndidə, Zəfər tağının önündə deyirəm. Bu, bizim şanlı Zəfərimizin şərəfinə ucaldılmış ikinci zəfər tağıdır. Birincisi Bakıda, ikincisi isə burada, Xankəndidədir".



Bakı və Xankəndi - Zəfər tariximizin iki mühüm ünvanı. Paytaxtda ucaldılmış Zəfər tağı ümumxalq qələbəsinin təntənəsini, Xankəndidəki ikinci Zəfər tağı isə həmin qələbənin tarixi nəticələrini, Azərbaycanın öz torpaqlarında suverenliyinin bərpasını təcəssüm etdirir. Bu iki rəmzi məkan bir həqiqətin - Azərbaycan xalqının öz iradəsi, birliyi və qəhrəmanlığı ilə tarixinin ən mühüm sınaqlarından qalibiyyətlə çıxdığının ifadəsidir.

Xankəndidəki Zəfər tağına aparan pilləkənin hər pilləsində Vətən müharibəsi günlərinin həkk olunması da xüsusi məna daşıyır. Prezident İlham Əliyev bu barədə belə demişdir: "Amma onu da bildirməliyəm ki, bu pilləkəndə eyni zamanda şəhidlərimizin qanı da həkk olunub". Sözsüz ki, bu, Zəfərin qiymətini ifadə edən ən təsirli fikirdir. Çünki 44 günlük Vətən müharibəsinin hər günü qəhrəmanlıqla yanaşı, ağır itkilər, şəhidlik zirvəsinə yüksələn igidlərimizin fədakarlığı ilə yadda qaldı. Bu gün xalqımızın yaşadığı qürur və sevincin arxasında şəhidlərimizin müqəddəs qanı, qazilərimizin şücaəti, əsgər və zabitlərimizin misilsiz döyüş əzmi dayanır. Zəfər tağına aparan pilləkən, əslində, xalqımızın qürurla keçdiyi qəhrəmanlıq yolunun rəmzidir. Prezidentin müraciətində 44 günlük Vətən müharibəsinin tarixi əhəmiyyəti, xalqımızın milli həmrəyliyi və ordumuzun qəhrəmanlığı geniş yer aldı. Dövlətimizin başçısının "44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Biz haqlı olaraq bu Zəfərlə fəxr edirik" sözləri qələbənin gələcək nəsillər üçün də milli yaddaşın ayrılmaz hissəsi olacağını birmənalı şəkildə ifadə edir.

2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi Vətən müharibəsinin taleyini həll edən tarixi hadisə oldu. Sonrakı mərhələdə - 2023-cü il sentyabrın 20-də Azərbaycanın bütün ərazisində dövlət suverenliyinin bərpası ilə yeni tarixi reallıq yarandı. Prezidentin "Qarabağ Azərbaycandır və nida işarəsi" ifadəsinə Xankəndidən səsləndirdiyi "O nida işarəsini biz 2023-cü il sentyabrın 20-də bax, burada - Xankəndidə qoyduq" fikri bu tarixi hadisənin rəmzi ifadəsidir.

Müraciətin mühüm məqamlarından biri də azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq işləri idi. Dövlət başçısının "Bu gün biz azad Qarabağda qurub-yaradırıq" deməsi Zəfərdən sonrakı mərhələnin əsas məzmununun aydın ifadəsidir. Bu gün Qarabağda və Şərqi Zəngəzurda şəhərlər, kəndlər yenidən qurulur, infrastruktur yaradılır, keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdırlar. Artıq 100 minə yaxın insanın azad edilmiş ərazilərdə yaşaması, təhsil alması və çalışması Böyük qayıdışın real nəticələrini nümayiş etdirir.

Prezident İlham Əliyev müraciətində milli-mənəvi dəyərlərə və azərbaycançılıq məfkurəsinə də mühüm yer ayırdı. Dövlət başçısının "Azərbaycançılıq məfkurəsi bizim bütün uğurlarımızın təməlində dayanan fəlsəfədir" fikri qələbənin arxasında dayanan milli həmrəyliyin əhəmiyyətini ifadə edir. Məhz bu birlik xalqımızı ən çətin sınaqlardan keçirərək Vətən müharibəsində vahid amal ətrafında birləşdirdi.

Xankəndidən səslənən müraciət keçmişə ehtiram, bu günə qürur və gələcəyə inamın vəhdətidir. Burada şəhidlərin xatirəsi, ordumuzun qəhrəmanlığı, xalqımızın iradəsi, dövlətimizin qüdrəti və Qarabağda aparılan quruculuq işləri vahid Zəfər salnaməsində birləşdi.

Xankəndidə ucalan ikinci Zəfər tağı təkcə Qələbənin memarlıq rəmzi olmaqla yanaşı, xalqımızın sınmayan iradəsinin, şəhidlərimizin əbədi xatirəsinin, müstəqil dövlətimizin gücünün və tarixi yaddaşımızın ifadəsidir. Prezident İlham Əliyevin məhz bu tağın önündən xalqa müraciət etməsi bir daha göstərdi ki, Azərbaycan Zəfərini yalnız tarixə yazmır, onu quruculuqla, birliklə və suveren dövlətçiliklə yaşadır.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Reportaj

Zəfər parkı - qəhrəmanlığımızın rəmzinə çevrilən ünvan

Azərbaycan Prezidenti İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli sərəncamı ilə hər bir azərbaycanlı üçün əziz və müqəddəs olan Şuşanın işğaldan azad edildiyi gün - 8 noyabr tarixi Zəfər Günü kimi təsis edildi. Artıq 6-cı ildir ki, xalqımız bu müdəqqəs günü böyük təntənə və sevinclə qeyd edir. Zəfər sevincini xalqımıza yaşadan oğullar isə heç vaxt unudulmur, yaddan çıxmır, daim qürur və iftixarla anılır.



Prezident İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, 44 günlük Vətən müharibəsində göstərilmiş misilsiz qəhrəmanlığın və qazanılmış möhtəşəm tarixi Zəfərin yaddaşlara həkk edilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi, gələcək nəsillərə çatdırılması məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin salınmasına başlanmışdır. Dövlət başçısının imzaladığı sərəncamdan 4 il sonra Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyevin iştirakı ilə 8 noyabr 2024-cü ildə Zəfər parkının açılışı olmuşdur. Açılış mərasimində çıxış edən dövlətimzin başçısı demişdir: "Bu gün Zəfər Günündə şəhərimizin ən gözəl yerlərindən birində Zəfər parkı açılıb. Gözəl Zəfər tağı, Zəfər abidəsi, ərazisi 10 hektara yaxın olan gözəl park, onun aşağısında Zəfər muzeyi artıq inşa edilib, onun tərtibatı gedir. Gələcəkdə Zəfər muzeyi də olacaq. Bu gözəl yerdə şəhərimizin, yenə də deyirəm, ən gözəl yerlərindən birində bu gün bizim parlaq Zəfərimizi əks etdirən yeni simvolumuz artıq yaradılıb. Şəhərə gedən iki yolun kəsişməsində Zəfər tağı yerləşir. Həm müasir üslubda inşa edilib, həm çox əzəmətlidir. Hündürlüyü də 44 metrdir, sütunlarının da sayı 44-dür. Bu parkda və indi tərtib olunan muzeydə bir çox önəmli rəmzlər var. Bu rəmzlər bizimlə əbədi olacaq. Bu Qələbə bizimlə əbədi olacaq. Azərbaycan xalqı bundan sonra qalib xalq, Azərbaycan dövləti müzəffər dövlət kimi yaşayacaqdır".

Zəfər parkı bu gün xalqımızın müqəddəs ziyarətgahıdır. Hamımızın qürur və iftixarla üz tutduğumuz park Azərbaycan dövlətinin və xalqının şəhidlərə olan ehtiramının, hörmətinin və diqqətinin rəmzidir. Yalnız əlamətdar günlərdə deyil, adi vaxtlarda da şəhərimizin sakinləri və qonaqları abidənin önünə gül dəstələri qoyur, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş oğulların xatirəsini ehtiramla yad edirlər.

Dünən isə parkda qələbəlik idi. Xalqımız böyük sevinc içində Zəfər gününü qeyd edirdi. Ziyarətə gələnlərin ardı-arası kəsilmirdi. Xalqımızın vətənpərvər övladları əllərində gül dəstələri, ürəklərində böyük sevinc şəhidlərin əziz xatirəsini ehtiramla yad etmək üçün Zəfər parkına üz tuturdu.

Zəfər parkını ziyarətə gələnlərin arasında uşaqlar, gənclər, hərbi geyimli, sinəsi ordenli, medallı qazilər də az deyildi. Kimliyindən asılı olmayaraq, hamı şəhidlərimizə ehtiramını, hörmətini bildirməyə gəlmişdi. Bu xoş, qürur dolu gündə sanki yaxınlıqdakı ağacların da, hərdən seyrək buludların arasından boylanan Günəşin də üzü gülürdü.

Hərbi geyimli ziyarətçilərdən birinə yaxınlaşıb tanış olduq. Ehtiyatda olan zabit Ceyhun Əliyev dedi ki, İkinci Qarabağ müharibəsi başlayan ilk gündən Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə vuruşub: "Addım-addım ermənilər geri qovurduq. Özünü "məğlubedilməz" hesab edən düşmən əks-hücumlarımız qarşısında dayana bilməyərək silah-sursatlarını, meyitlərini mövqelərində atıb qaçırdılar. Təəssüflər olsun ki, əməliyyatların birində ağır yaralandım, döyüş yolum yarımçıq qaldı. Qəhrəmanlığımızın, mübarizliyimizin rəmzi olan Zəfər parkına tez-tez gəlirəm. Bu möhtəşəm abidə İkinci Qarabağ müharibəsində böyük qəhrəmanlıq göstərərək şəhid olan cəsur oğullarımızın şücaətini özündə əks etdirir. Buna görə əminlik hissi ilə deyə bilərəm ki, Zəfər parkı xalqımızın və dövlətimizin şəhidlərə olan ehtiramının, minnətdarlığının ifadəsidir".

Şəhid anası Nahidə Teymurova isə bildirdi ki, oğlu Vüsal da Zəfərin qazanılması, torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə böyük cəsarət və qəhrəmanlıqla vuruşub, qürur yerimiz olan Şuşa şəhəri uğrunda gedən döyüşlərdə şəhid olub: "Azərbaycan xalqına böyük sevinc bəxş edən Zəfərin qazanılmasında onun da payı var. Buna görə də şəhid anası kimi Zəfər parkını ziyarətə böyük qürur və iftixarla gəlmişəm. Bu gün hamı kimi mən də göz yaşlarımı silib düşmən üzərində qazanılmış Zəfərimizə sevinirəm. Qoy qələbələrimiz əbədi olsun! Şəhidlərimizə, qəhrəmanlarımıza belə yüksək dəyər verdiyinə, şəhid ailələrinə böyük diqqət və qayğı göstərdiyinə görə Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlığımı bildirirəm".

Növbəti həmsöhbətimiz şəhər sakini Tamella Alqayeva oldu. Dedi ki, Zəfər parkı tez-tez üz tutduğu məkanlardan biridir: "Ziyarətə gələnlərin üzündəki sevinci görəndə sanki dünyanı mənə bağışlayırlar. Baxıram ki, ziyarətə gələnlərin arasında gənclərimiz çoxdur. Düşünürəm ki, Zəfər Parkının açılmasında vətənpərvərliyin təbliği çox mühüm rol oynayır. Park 44 günlük Vətən müharibəsində qazanılan zəfəri özündə yaşadır. Sözsüz ki, parkdakı abidələr və ekspozisiyalar gənclərimizin, sabahın əsgərlərinin vətənpərvərlik hisslərini daha da artırır".

Zəfər günündə Zəfər parkını ziyarətə gələnlərin ardı-arası kəsilmirdi. Xalqımızın vətənpərvər övladları ürəklərində böyük qürur, əllərində gül dəstələri ilə böyük bayramı qeyd edirdilər.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"

Müharibənin başa çatması yeni regional nizamın formalaşmasına yol açdı

2020-ci il noyabrın 10-u Cənubi Qafqazın müasir tarixində dönüş nöqtəsi oldu. Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən imzalanmış üçtərəfli Bəyanat 44 günlük Vətən müharibəsinə son qoydu və onun hərbi-siyasi nəticələrini təsbit etdi. Lakin bu sənədin tarixi əhəmiyyətini yalnız 2020-ci ilin noyabrında baş vermiş hadisələr çərçivəsində qiymətləndirmək mümkün deyil. Ötən altı ildə təkcə bəyanatın qəbul edildiyi şərait deyil, regionun siyasi reallıqları da əsaslı şəkildə dəyişib.



Milli Məclisin deputatı Sevinc FƏTƏLİYEVA qəzetimizə açıqlamasında dedi ki, 10 noyabr sənədini qiymətləndirərkən ilk növbədə onun imzalandığı şərait nəzərə alınmalıdır: "Döyüş meydanındakı vəziyyət, Şuşanın azad edilməsi və hərbi-strateji qüvvələr nisbətinin dəyişməsi danışıqlar üçün tamamilə yeni şərtlər yaratmışdı. Əgər 2020-ci ilin sentyabrınadək onilliklər boyu davam edən diplomatik proses faktiki olaraq mövcud status-kvonun qorunmasına xidmət edirdisə, Vətən müharibəsinin nəticələri qüvvələr balansını köklü şəkildə dəyişdirdi. Məhz Azərbaycanın hərbi uğurları Ağdam, Kəlbəcər və Laçın rayonlarının döyüş əməliyyatları davam etdirilmədən geri qaytarılmasına şərait yaratdı. Beləliklə, bəyanat ərazi məsələsinə dair bərabər mövqeyə malik iki tərəf arasında əldə edilmiş kompromisi deyil, bölgədə yaranmış yeni vəziyyətin nəticəsini təsbit edirdi. Bununla yanaşı, hərbi əməliyyatların dayandırılmasına dair razılaşma ilə hərtərəfli sülh müqaviləsi arasında fərq qoymaq vacibdir".

Deputat qeyd etdi ki, müharibədən sonrakı dövrün əsas problemlərindən biri üçtərəfli Bəyanatın ayrı-ayrı müddəalarının tam icra edilməməsi oldu. Bu, ilk növbədə Qarabağ ərazisində erməni silahlı birləşmələrinin mövcudluğunun davam etməsinə aid idi. Silahlı infrastrukturun saxlanılması, separatçı qurumların fəaliyyətini davam etdirməsi və əvvəlki siyasi gündəliyi qoruyub saxlamaq cəhdləri müharibədən sonrakı nizamlanmanın məntiqinə birbaşa zidd idi. Azərbaycan bu məqamlara dəfələrlə diqqət çəkirdi. "İkinci problem Laçın yolunun fəaliyyəti ilə bağlı idi. Sənədə əsasən, bu yol Ermənistanla Qarabağın erməni sakinləri arasında əlaqəni təmin etmək üçün nəzərdə tutulmuşdu. Lakin Azərbaycan tərəfinin dəfələrlə qeydə aldığı kimi, həmin marşrutdan silah-sursatın, hərbi təyinatlı yüklərin və şəxsi heyətin daşınması üçün istifadə edilirdi. Yola nəzarət, təhlükəsizlik və ondan istifadə qaydaları ilə bağlı məsələlər tədricən əsas gərginlik mənbələrindən birinə çevrildi. Nəqliyyat kommunikasiyalarının açılması məsələsi də az əhəmiyyət daşımırdı. Bəyanatın doqquzuncu bəndi iqtisadi və nəqliyyat əlaqələrinin bərpasını, o cümlədən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqənin təmin olunmasını nəzərdə tuturdu. Siyasi leksikona Zəngəzur dəhlizi kimi daxil olmuş bu istiqamət üzrə öhdəliklərin praktiki icrası isə sonrakı illərdə təmin edilmədi", - deyə o əlavə etdi.

Prinsipial dönüşün 2023-cü ilin sentyabrında baş verdiyini deyən S.Fətəliyeva bildirdi ki, lokal xarakterli antiterror tədbirləri nəticəsində erməni silahlı birləşmələri tərk-silah edildi, separatçı strukturların fəaliyyətinə son qoyuldu. Azərbaycan Qarabağ bölgəsinin bütün ərazisi üzərində dövlət nəzarətini bərpa etdi. Baş verənlərin siyasi əhəmiyyəti hərbi əməliyyatın bilavasitə nəticələrindən daha geniş idi. 2023-cü ilin sentyabrınadək Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü ilə onun ərazisinin bir hissəsində mövcud olan faktiki idarəetmə sistemi arasında ziddiyyət qalırdı. Tam dövlət nəzarətinin bərpası ilə həmin ziddiyyət aradan qaldırıldı. Nəticədə sonrakı danışıqların predmeti də dəyişdi. Qarabağın siyasi statusu məsələsi dövlətlərarası gündəlikdən birdəfəlik çıxarıldı. Ön plana ərazi bütövlüyünün qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası, təhlükəsizliyin təmin edilməsi və iki qonşu dövlət arasında normal münasibətlərin əsaslarının yaradılması məsələləri keçdi.

S.Fətəliyeva vurğuladı ki, növbəti mühüm mərhələ 2025-ci il avqustun 8-i oldu. Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin, ABŞ Prezidenti Donald Trampın və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən görüşdə Birgə Bəyannamə imzalandı. Eyni zamanda Azərbaycan və Ermənistanın xarici işlər nazirləri sülh sazişinin razılaşdırılmış mətnini parafladılar. Vaşinqton razılaşmaları mühüm siyasi mərhələ oldu. Çünki bu razılaşmalar silahlı münaqişənin nəticələrinin idarə olunmasından dövlətlərarası sülhün hüquqi əsaslarının yaradılmasına keçidi təsbit etdi. Lakin sənədin paraflanması ilə yekun imzalanması arasında prinsipial fərq var. 2026-cı ilin noyabrına olan vəziyyətə görə, sülh sazişi hələ imzalanmayıb və qüvvəyə minməyib. "Üçtərəfli Bəyanatın doqquzuncu bəndinin sonrakı inkişafı xüsusi diqqətə layiqdir. 2020-ci ildə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında nəqliyyat əlaqəsinin bərpası başlıca olaraq müharibədənsonrakı nizamlanmanın tərkib hissəsi kimi qiymətləndirilirdi. Altı ildən sonra bu məsələ daha geniş geoiqtisadi əhəmiyyət qazandı. Artıq söhbət yalnız ayrı-ayrı ərazilər arasında nəqliyyat bağlantısının təmin edilməsindən deyil, həm də beynəlxalq ticarət üçün əlavə marşrutun formalaşdırılmasından, Cənubi Qafqazın tranzit imkanlarının genişləndirilməsindən və onun Avrasiya logistika sistemində rolunun gücləndirilməsindən gedir. Bu istiqamətə 2025-ci ilin Vaşinqton razılaşmaları çərçivəsində nəzərdə tutulan TRIPP layihəsi mühüm təkan verdi. Bununla belə, 2020-ci il Bəyanatında nəzərdə tutulan ilkin nəqliyyat modeli ilə Vaşinqtonda razılaşdırılmış yanaşmanın tam eyni olmadığını nəzərə almaq lazımdır. Yeni mexanizm dövlətlərin suverenliyinə və yurisdiksiyasına hörmət prinsipinə əsaslanır, layihənin praktiki icrası üçün ayrıca razılaşmaların əldə olunmasını nəzərdə tutur", - deyə o bildirdi.

S.Fətəliyeva vurğuladı ki, 2020-ci ilin noyabrı ilə 2026-cı ilin noyabrında regionda mövcud olan vəziyyəti müqayisə etdikdə bir neçə fundamental dəyişikliyi qeyd etmək olar: "İlk növbədə Azərbaycan-Ermənistan danışıqlarının predmeti köklü surətdə dəyişib. Onilliklər ərzində münaqişənin məntiqini müəyyənləşdirən əraziyə nəzarət məsələsi öz yerini dövlətlərarası tanınma, sərhədlər, təhlükəsizlik və iqtisadi münasibətlərlə bağlı məsələlərə verib. Xarici aktorların iştirakının konfiqurasiyası da dəyişib. Rusiya sülhməramlı kontingenti missiyasını başa vurub, ATƏT-in Minsk prosesi rəsmən fəaliyyətini dayandırıb, ABŞ isə yeni nəqliyyat və sülh gündəliyinin irəli aparılmasında mühüm rol qazanıb. Eyni zamanda, Azərbaycan və Ermənistan arasında birbaşa razılaşmaların əhəmiyyəti artıb. Bu, beynəlxalq dəstəyi istisna etmir, lakin öhdəliklərin yerinə yetirilməsinə görə əsas məsuliyyəti dövlətlərin öz üzərinə qoyur. Nəhayət, Azərbaycanın regional əhəmiyyəti də dəyişib. Bu gün ölkəmizin rolu təkcə 2020-ci və 2023-cü illərin hərbi-siyasi nəticələri ilə deyil, həm də enerji, logistika, regional təhlükəsizlik və beynəlxalq əməkdaşlıq sahələrindəki imkanları ilə müəyyənləşir. Bununla belə, uzun illər davam etmiş münaqişənin bütün nəticələrinin artıq aradan qaldırıldığını söyləmək hələ tezdir".

Deputatın sözlərinə görə, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanat ilkin əsas funksiyasını yerinə yetirib: genişmiqyaslı hərbi əməliyyatları dayandırıb və sonrakı nizamlanma üçün keçid şəraiti yaradıb. Nəticə etibarilə 2020-ci il noyabrın 10-nun tarixi əhəmiyyəti yalnız həmin gün müharibənin başa çatması ilə ölçülmür. Həmin tarix bütövlükdə regionun gələcəyini dəyişmək üçün şəraitin yaranması ilə əlamətdardır.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Ağdamda sevinc yaşanır

Ağdam Muğam Mərkəzində Zəfər Gününə həsr olunmuş bayram tədbiri keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin mərkəzi meydanda ucaldılmış abidəsini, Şəhidlər xiyabanını və "Şəhidlər" Abidə Kompleksini ziyarət ediblər.




Rayon icra hakimiyyətinin və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə baş tutan bayram tədbirində rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov, Milli Məclisin deputatı Bəxtiyar Əliyev, aparatın əməkdaşları, YAP Ağdam rayon təşkilatının sədri Mansur Quliyev, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər, veteranlar, ictimaiyyət nümayəndələri və media mənsubları iştirak ediblər. Çıxış edənlər 2020-ci il sentyabrın 27-dən başlayıb 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad edilməsi ilə nəticələnən Vətən müharibəsinin tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilməsindən, xalqımızın öz liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirməsindən, qalib ordumuzun 19-20 sentyabr 2023-cü ildə həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunmasından bəhs etmişlər.

Tədbir Ağdam Musiqi Kollecinin "Qarabağ" instrumental ansamblının müşayiəti ilə Əməkdar artist Fehruz Səxavətin, kollecin müəllim və tələbələrinin təqdimatında xalq və bəstəkar mahnılarından ibarət musiqi nömrələri ilə yekunlaşıb.

Lazım QULİYEV,
"Azərbaycan"

Prezident İlham Əliyevin G20-yə dəvət olunması ölkəmizin beynəlxalq nüfuzunun göstəricisidir

Prezident İlham Əliyevin G20 Liderlər Sammitinə dəvət olunması ölkəmizin beynəlxalq münasibətlər sistemindəki mövqeyinin göstəricisidir. Bu, Azərbaycanın qlobal iqtisadi və siyasi proseslərdə iştirak imkanlarının genişləndiyini nümayiş etdirir.



Milli Məclisin deputatı Könül NURULLAYEVA qəzetimizə açıqlamasında diqqətə çatdırdı ki, G20 dünyanın aparıcı iqtisadiyyatlarını bir araya gətirən ən mühüm beynəlxalq əməkdaşlıq platformalarından biridir. Buraya dünyanın ən böyük iqtisadiyyatlarına malik dövlətlərlə yanaşı, Avropa İttifaqı və Afrika İttifaqı da daxildir. G20 iştirakçılarının dünya ümumi daxili məhsulunun təxminən 85 faizini, dünya əhalisinin isə təqribən üçdəikisini təmsil etməsi bu platformanın qlobal miqyasını aydın göstərir. "G20-nin əsas əhəmiyyəti ondan ibarətdir ki, burada dünya iqtisadiyyatının gələcəyi, maliyyə sabitliyi, beynəlxalq ticarət, enerji təhlükəsizliyi, ərzaq təminatı, iqlim dəyişiklikləri, rəqəmsal transformasiya və digər strateji məsələlər müzakirə olunur. Burada formalaşan razılaşmaların və siyasi mövqelərin dünya iqtisadiyyatına, maliyyə bazarlarına və beynəlxalq münasibətlərə ciddi təsiri olur", - deyə o əlavə etdi.

Deputat bildirdi ki, Azərbaycan G20-nin daimi üzvü olmasa da, bu platforma ilə əməkdaşlıq təcrübəsinə malikdir. Müxtəlif illərdə ölkəmiz ev sahibi dövlətin dəvəti ilə sammit və nazir səviyyəli toplantılarda iştirak edib. Bu platformada təmsil olunmaq rəsmi Bakıya milli maraqlarımızı beynəlxalq səviyyədə ifadə etmək və yeni əməkdaşlıq istiqamətlərini müzakirə etmək imkanı verir.

K.Nurullayeva vurğuladı ki, Azərbaycanın beynəlxalq əhəmiyyətini şərtləndirən bir sıra amillər mövcuddur: "Ölkəmiz Xəzər hövzəsinin mühüm enerji təchizatçılarından biridir. Eyni zamanda Avropa ilə Asiya arasında nəqliyyat və logistika əlaqələrinin inkişafında mühüm mövqeyə malikdir. "Şərq-Qərb " və "Şimal-Cənub " nəqliyyat dəhlizləri Azərbaycanın regional və beynəlxalq iqtisadi əlaqələrdə rolunu artırır. Enerji təhlükəsizliyi, alternativ enerji mənbələrinin inkişafı, "yaşıl enerji" layihələri və regional bağlantılar G20 sammitinin gündəliyi ilə birbaşa əlaqəlidir. Bu baxımdan Azərbaycanın təcrübəsi və mövqeyi beynəlxalq müzakirələrə əlavə töhfədir".

Deputat bildirdi ki, digər mühüm məsələ investisiya imkanlarıdır. G20 sammiti çərçivəsində aparılacaq ikitərəfli görüşlər ölkəmizə yeni sərmayələrin cəlb edilməsi, qeyri-neft sektorunun inkişafı, sənaye, kənd təsərrüfatı, rəqəmsal iqtisadiyyat və "yaşıl enerji" sahələrində tərəfdaşlıqların genişləndirilməsi üçün əlverişli şərait yaradır.

Ə.QARDAŞXANOVA,
"Azərbaycan"

«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 14 iyul (Bazar ertəsi günü) tarixli 224-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



AZƏRBAYCAN

Düşənbə, 15 şəvvalül-mükərrəm sənə 1337.
14 təmmuz 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 35 rublə,
2 aylığı 60 rublə, 3 aylığı 90 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə,
2 aylığı 70 rublə, 3 aylığı 100 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 5 rublə,
axırıncı səhifədə sətri 4 rublə,
itən şeylər və yer axtaranlar üçün 3 rublə.

OPERETTA
Hökumət Teatrosunda
Axşam tamaşası
Zülfüqar bəy və Üzeyir bəy Qardaşlarının Müdiriyyəti
Düşənbə [bazar ertəsi] günü,
şəvvalül-mükərrəm ayının 15-də
(iyul ayının 14-də 1919-cu ildə)
şükuhlu [təntənəli] bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
Üzeyir bəyin
"O olmasın, bu olsun"
operası.
Biletlər indidən teatronun
kassasında satılmaqdadır.
Tamaşa başlanacaq
axşam saat 9-un yarısında.

QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

Azərbaycan Dəmiryol Müdiriyyətindən

Əmrnamə nömrə 66
2 iyul 1919
İkinci uçastok mühafizə naçalniki müavini vəzifəsini müvəqqətən ifa edən Nikolay Koşelyov öz vəzifəsinə müvafiq olmadığından, iyulun 1-dən xidmətdən kənar edilir.

Yollar naçalniki, mühəndis:
T[eymur bəy] Məlikaslanov
Mühafizə naçalniki:
[Xanbaba bəy] Sədrəddinbəyov

Əmrnamə nömrə 67
Dördüncü uçastok mühafizə xidmətçisi Hüseyn Rəhmanov kişmiş oğurluğu işində tutulmuş olan maşinist Kiril Rakotindən 220 manat miqdarında aldığı rüşvəti naçalnikə təqdim etmişdir. Mühafizə xidmətçisi Hüseyn Rəhmanov vəzifəsini bu cür sədaqətli ifa etdiyindən xidmət namından ona razılıq izhar edirəm.

Yollar naçalniki, mühəndis:
T[eymur bəy] Məlikaslanov
Mühafizə naçalniki əvəzinə: [Osman] Mirzəbəyov

Əmrnamə nömrə 68
3 iyul 1919
Dəmiryollar mühafizə naçalniki müavini Georgi Georgiyeviç Dotsov öz ərizəsinə görə həmin iyul ayının 20-də xidmətindən kənar edilir. Ona verilən 3339 nömrəli birinci klas bileti və şəxsi şəhadətnaməsi etibardan saqit [etibarsız] hesab olunur.

Yollar naçalniki, mühəndis:
T[eymur bəy] Məlikaslanov
Mühafizə naçalniki:
[Xanbaba bəy] Sədrəddinbəyov

Əmrnamə nömrə 17
6 iyul 1919
İkinci uçastok mühafizə xidmətçisi Yunis Yaqubov vaqonda pud yarım un aparmasına icazə verməkdən ötrü Viktor Taranov nam [adlı] sərnişindən aldığı 40 manat rüşvəti naçalnikə təqdim etmişdir. Mühafizə qulluqçusu Yunis Yaqubova öz vəzifəsini bu cür sədaqətli ifa etməsinə görə xidmət namından razılıq izhar edirəm.

Əslində imza etdi:
Yollar naçalniki əvəzinə mühəndis: Vəkilov
Mühafizə naçalniki:
[Xanbaba bəy] Sədrəddinbəyov

Əmrnamə nömrə 73
9 iyul 1919
Həmin iyulun 8-dən Ağasalah Hacıyev ikinci uçastok mühafizə naçalniki müavini vəzifəsini müvəqqətən ifa etməyə buraxılır.

Əslində imza etdi:
Yollar naçalniki, mühəndis:
T[eymur bəy] Məlikaslanov
Mühafizə naçalniki:
[Xanbaba bəy] Sədrəddinbəyov

Neft ticarəti haqqında
Aksiz, gömrük və kirayə üçün möhlət verilməklə rəhnsiz neft və neft məhsulatı aparmaq üçün 1919 sənəsi iyulun 7-də Vükəla Şurası [Nazirlər Kabineti] nəzdindəki Maliyyə və İqtisad Komitəsi tərəfindən təsdiq edilmiş müvəqqət qanunlar:

Aksiz, gömrük və kirayə üçün möhlət verilməklə rəhnsiz Batuma neft məhsulatı göndərilməsi ancaq Sovet Syezd nəzdində olan neft və neft məhsulatı satışı bürosunda iştirak edən neft firmaları namından olar. Firma neft göndərdiyi zaman öz malını Batumda özü satacağı və ya bu işi başqasına həvalə edəcəyi arzusunda olduğunu izhar edir. Yük gərəkdir büronun adına və onun ixtiyarına göndərilsin, yaxud həman neft firması namına ki, hansı ki, öz malını özü satacağını izhar etmişdir. Aksiz, gömrük və kirayə üçün möhlət vermək üzrə göndərilən neft yüklərinin dublikatları göndərənlərin əlinə verilməyib, Batumda olan Azərbaycan Cümhuriyyəti general-konsulu namına göndərilir. Mal göndərənlərə isə göndərilən neft məhsulatının vaqon miqdarı, dürüst vəzni və nə növ olduğu haqqında müfəssəl bəyanatla şəhadətnamələr verilir. Vaqonlar Batuma gələn kimi neft konsulun nümayəndəsi iştirakı ilə büro ixtiyarında olan anbarlara tökülür. Varid [daxil] olan yükün miqdarı haqqında müfəssəl əqd [akt] yazılıb, konsulxana və büro nümayəndələri tərəfindən imzalanaraq saxlamaq üçün büronun məsuliyyətinə verilir.

Neft məhsulatının aksiz, gömrük, kirayə və qeyri nakladnoy xərcləri verildikdən sonra həman anbarlardan buraxılmasına icazə verilir. Neft satışından hasil olan və firmanın, büronun ehtiyacı üçün mal mübadiləsindən ötrü istifadə edilməyən məbləğ yükün göndərildiyi yerə görə, valyuta ilə Batumda Azərbaycan nümayəndəsinə və ya şərt edilən banka verilir. Bunun əvəzinə isə mal satan (firma və ya büro) Bakıdan Batuma göndərilən malın kursuna görə, Bakı pulu alır. Bu kurs Ticarət və Sənaət Nəzarəti tərəfindən qoyulub, Ticarət, Sənaət və Ərzaq Nəzarəti ilə Bakı birjası nəzdində olan komitə tərəfindən xüsusi surətdə təsdiq edilən qanun üzrə təyin edilir.

Batumda yükləri buraxmaq, almaq və saxlamaq qanunları, bundan ötrü lazım olan qulluqçular ştatı və ştata lazımi düsturüləməllər [təlimatnamələr], həmçinin bunlara məsarif təyini və bu məsarifləri almaq üsulu büro tərəfindən hazırlanıb Ticarət, Sənaət və Ərzaq Nəzarəti tərəfindən təsdiq edilir. Hər həftə büro (yaxud konsulxana nümayəndəsi) Batumdan buraxılacaq neft məhsulatı haqqında büronun və ya əlavə firmaların verəcəkləri pulları haqqında Ticarət, Sənaət və Ərzaq Nəzarətinə xəbər verməlidir.

İmza etdi:
Ticarət, Sənaət və Ərzaq Nəzarəti nəzdində olan
Şura üzvü Manço
Əslinə mütabiqdir.
Ümumi şöbə kargüzarı (imza)

TELEQRAF XƏBƏRLƏRİ

London - İngilis Bəhriyyə [Donanma] idarəsində 70 nəfər Almaniya bəhri afiserlərinin siyahısı vardır ki, bunların içində məşhur Tirpitz də vardır. Skapada flotu qərq etdiklərinə görə, bunlar mühakimə ediləcəklərdir.

* * *

Royter xəbər verir ki, ingilislər Şimali Rusiyanı təxliyəyə başlamışlardır. Yaxın bir zamanda orada kimsə qalmayacaqdır. Qafqaziyadan da ingilis əsgərləri dəvət ediləcəkdirlər.

Denikin yanında
Denikin ilə yaxın olan və bu günlərdə Londona varid olan [gələn] bir ingilis afiseri ilə "Royter" ajansı müsahibədə bulunmuşdur. Afiser demişdir ki, Yekaterinodarda Denikin ixtiyarında 17 milyon ingilis lirəsi qiymətində ləvazimi-hərbiyyə [hərbi ləvazimat], külli aeroplan, tank, silah vardır. Afiser əlavə eyləmişdir ki, Yekaterinodarda mahir təyyarəçilər də mövcuddur. Londonda Denikinin Kolçaka mülhəq olmasına [qoşulmasına] böyük əhəmiyyət verilir. Çox mümkündür ki, yaxın bir zamanda bu iki generalın ordusu birləşsin.

* * *

Almaniyanın hökumət qoşunları Hamburq şəhərini işğal etmişlərdir. Müsadimədə [toqquşmada] 160 nemes saldatı qətl edilmişlərdir.

QƏZETƏLƏRDƏN

Feldmarşal Hindenburq
Feldmarşal Hindenburq öz istefası münasibətilə Almaniya Baş vəziri Ebertə bu məzmunda bir məktub göndərmişdir:

"Sülh müahidənaməsinin [sazişinin] imza edilməsi münasibəti ilə zeyldəki [aşağıdakı] məlumatı verməyə özümü borclu bilirəm:

1916-cı il avqust ayının 20-dən Almaniyanın Ali Komandanlığının hər bir binagüzarlığına [qərarına] və hərəkətinə mən cavabdehəndəyəm [cavabdehəm] və bütün məsuliyyət mənim üzərimə düşür. Hakəza [eləcə də], əlahəzrət Kayzerin də bütün əmr və binagüzarlığına mən məsulam. Bütün müharibələrin aparılması və üsulu mənim məsləhətim və mənim məsuliyyətimlə icra edilmişdir. Təvəqqe edirəm, bu bəyanatımı alman millətinə və Müttəfiq hökumətlərə yetirəsiniz."

Sabiq feldmarşal Hindenburq[un] Kolberqdən Hannoverə gəlməsi qayət təmtəraqlı olmuşdur. Hannoverdə vağzalda mumaileyhi [adı çəkilən şəxsi] böyük cəlalla qarşılayıb, şəhər qlavası onu istiqbal eyləmişdir [qarşılamağa çıxmışdır]. Hindenburq özünə edilən ehtiramdan, özünə bəxş edildiyi evdən dolayı təşəkkür eyləmişdir. Külli izdiham generalı təbrik eyləmişdir. Hindenburq öz evi yaxınlığında müxtəsər bir nitq irad eyləmişdir [söyləmişdir]:

"Siz cavan nemeslərin öhdəsinə dağılmış olan Almaniyanı təzədən tikmək düşür. Sizdə nemes ruhu vardır. Siz buna nail olmalısınız ki, düşmənlərimiz bizi məzəmmət etməyib, bizə ehtiram eyləsinlər. Cənabi-haqqın müavinəti ilə biz yenə kəmafissabiq [keçmişdə olduğu kimi] vətənimizin tərəqqi və təalisinə [ucalmasına] nail olarıq."

TÜRKÜSTANDA

Mərvdə
Məhəlli [yerli] qəzetələr xəbər verirlər ki, bolşeviklər Mərvi aldıqdan sonra ciddi surətdə nizam və qanun bərpa edilmişdir. Qanunu pozan bolşevik əsgərləri güllələnmişlərdir. Bolşeviklər Mərvdə birinci zəruri şeylərə bu qərar üzrə məzənnə qoymuşlardır: çörəyin girvənkəsi 40 qəpik, ət 2 manat 50 qəpik, süd butulkası 3 manat ilaxır.

Türküstanda Azərbaycan Konsulxanası
* İyul ayının 4-də Aşqabadın ümumiyyətlə təxliyə edildiyi münasibətilə Azərbaycan Konsulxanası Mavərayi-Bəhri-Xəzər [Zakaspiysk] Hökuməti ilə birlikdə Tazəşəhərə köçmüşlərdir. Aşqabad şəhəri bolşeviklər tərəfindən işğal ediləcəyi təqdirdə Azərbaycan təbəələrinin haqqını və əmlakını Şura Hökumətinin Türküstanda aldığı yerlərdə müdafiə etməyi İran konsuluna vagüzar [həvalə] eyləmişdir.

* İyul ayının 7-dən etibarən Tazəşəhərdə Konsulxana agentliyi fəaliyyəti müvəqqətən dayandırılmışdır. Agentliyin məmurları Konsulxanaya köçürülüb, şimdi Tazəşəhərdə Konsulxana işə başlamışdır.

* Bu günlərdə Tazəşəhər hökuməti Azərbaycan təbəələrinin Tazəşəhərdən çıxmasına icazə verməyirdi. Konsulun cidd-cəhdi sayəsində şimdi bu mümaniət [maneçilik] götürülmüşdür.

* Mərv, Aşqabad, Tecan və İrandan Qızıl-Arvada və Tazəşəhərə külli fərari gəldiyi üçün Azərbaycan Konsulxanası onlara müavinət etmək uğrunda hər növ tədbirlər ittixaz edir [tədbirlər görür]. Tazəşəhərdə yemək və yatmaq üçün yerlər hazır edilmişdir. Qızıl-Arvadda dəxi böylə məntəqələr açılacaqdır. Fərarilərin halı çox fənadır. Şəhərdə ərzaq şeylərinə böyük ehtiyac vardır. Bu axır vaxtlarda yeməli şeylər qətiyyən bazarda görünməyir.

GÜRCÜ MÜRƏXXƏSİ QAMBAŞİDZE İLƏ MÜSAHİBƏ

Bu günlərdə Londondan varid olan [gələn] gürcü mürəxxəslərindən [nümayəndələrindən] [David] Qambaşidze zeyldəki [aşağıdakı] məlumatı verir:

"Sülh Konfransı hələ Gürcüstan və Zaqafqaziya cümhuriyyətləri məsələsini müzakirə eyləməmişdir. Gürcüstana böyük əhəmiyyət verən İngiltərədir. Zaqafqaziya və Gürcüstan məsələsi, Şərq məsələsi ingilis komitəsindədir. Bu məsələ İtaliya komitəsində Rusiya məsələsi kimi idi. Bu axır vaxtlarda onlar İngiltərə komissiyası kimi rəftarda bulunmağı qət eyləmişlərdir [qərara almışlar]. Yaponlar isə bizim məsələmizi Qərbi Asiya məsələsi kimi tələqqi edirlər [qiymətləndirirlər]. Yalnız Fransa Zaqafqaziya məsələsini Rusiya məsələsi kimi tələqqi edir.

Hamıdan artıq bizim məsələlərdən İngiltərə məlumat alır və hər bir məsələ barəsində düzgün cavab verir. Bizim barəmizdə verilən məlumat böylədir: gərək bizdə və gərək sabiq Rusiyanın başqa torpaqlarında rüşvətxorluq və dövləti əmlakı oğurlamaq şiddətlənmişdir. Bu da rusların yüz illərlə ağalıq etmələrinin nəticəsidir.

Avropa dövlətləri qət eyləmişlər ki, Rusiyada bolşevizmi yıxsınlar. Fəqət heç kim Gürcüstanı Rusiyaya mülhəq etmək [birləşdirmək] istəməyir. Bu barədə "Tayms" qəzetəsində yazılmış olan fəqərə [məlumat] general Miln tərəfindən edilən dokladla müvafiqət etməyir [uyğun gəlmir].

Bolşevizmi yıxmaq məsələsində avropalılar Denikin ilə Kolçaka artıq ümid bağlamışlardır. Orada Rusiya planı vardır ki, Gürcüstan və Azərbaycan qitəsindən [bölgəsindən] başqa yerlər qara xətt ilə cızılmışdır.

General Milnin dokladında denilir ki, torpaq reforması artıq narazılığa səbəb olur. General Briqqs Londondan göndərilmişdi ki, Gürcüstanın Denikin və Dabravol ordu ilə olan əlaqəsini bilsin. Gürcüstanda general Briqqs məsələyə aşna olub məlum olmuşdur ki, Gürcüstanın Denikin ilə birləşməyə heç bir həvəsi yoxdur.

Fransada mütəəssib hərəkətlər müşahidə edilir. Mayda olan əmələ nümayişi fransız ordusunun patronu olsaydı müvəffəqiyyətsiz olardı. Ordu bu nümayişi almanlara istinad verirdi. İngiltərədə böyük sosialnı reformalar qoyulmuşdur. Bizim istiqlaliyyətimizi təsdiq edəcəklərinə böyük ümid vardır."

NƏZARƏTLƏRDƏ [NAZIRLIKLƏRDƏ]

Ermənistandakı müsəlman qırğınlarından naşi [ötrü] Xariciyyə Nəzarəti tərəfindən Bakıdakı Ermənistan nümayəndəsinə işbu məzmunda bir təliqə [rəsmi məktub] göndərilmişdir:

Azərbaycan Hökumətinin əldə etdiyi rəsmi və xüsusi məlumata görə, erməni nizami qoşunları top dəstələri ilə Böyük Vedi, Çənan, Qələvan, Qaşlı və başqa müsəlman kəndlərini mühasirə edərək atəşə tutmuşlardır. Azərbaycan Hökuməti istiqlaliyyət elanının birinci günündən daima kəndi müqəddəratlarını əllərinə almış, rus istibdadından əziyyət və rəzalətə mübtəla olmuş qonşu millətlərlə dostluq əlaqəsi peyda etmək, xüsusən hüdud məsələlərinin sülh üzrə həll edilməsi nöqteyi-nəzərini təqib etmişdir. Millətlərin müqəddəratı həllinə dair məsələlərdə Azərbaycan Hökuməti daima məsələlərin qan tökməksizin məhəllərində [yerində] və həkəm [münsif, arbitr] vasitəsilə və yaxud Sülh Konqresində həll edilməsi tərəfdarı olmuşdur.

Təəssüflər olsun ki, Ermənistan Hökuməti Azərbaycan nöqteyi-nəzərini təqib etmədiyindən, öz müqəddəratlarını əllərinə almış müsəlmanlar əleyhinə cəza dəstələri göndərərək zorla ərazini kəndi torpağına ilhaq etmək [birləşdirmək] xəyalına düşmüşdür. Böylə cəza dəstələri əhalinin həyəcanına bais olacağı təbii olduğu kimi, qonşu millətlərin miyanında [arasında] da niza [nifaq, çəkişmə] törədə biləcəkdir.

Bütün bu vaxtadək baş vermiş hadisatı [hadisələri] və baş verə biləcək hadisatın bütün məsuliyyətini Ermənistan Hökuməti üzərinə atmaqla, Azərbaycan Hökuməti öz nöqteyi-nəzərində baqi [dəyişməz] qalmaqla, öz hökumətim namından erməni qoşunlarının müsəlmanlar əleyhinə yapdıqları fəaliyyətinə ciddi etiraz etməklə rica edirəm ki, kəndi hökumətiniz nəzdində müsəlmanlar əleyhinə filcümlə [ümumiyyətlə], xüsusən MilistanVedibasar dairəsi kəndləri əleyhinə başlanmış iqdamata [addımlara] təcili surətdə xitam vermək üçün təşəbbüsatda bulunasınız.

Xariciyyə naziri: imza

- Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] məlum etmişdir ki, hal-hazırda Xüsusi Komisyon tərəfindən Şuşa və Cəbrayıl qəzalarında arpa, buğda və düyü alınmağa başlanmışdır. Nəzarət rica etmişdir ki, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti də öz nümayəndəsini o komisyona təyin etsin. Nəzarət Qarabağdakı kəndi müvəkkilinə müraciətlə Komisyona adam təyin qılmasını təklif etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən Vükəla Şurasına [Nazirlər Kabinetinə] idxal və Şura tərəfindən təsdiq edilmiş İrəvandakı Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin müsəlmanlara müavinət şöbəsi məxaricatı [xərcləri] üçün 177 min rublə təxsisinə [ayrılmasına] dair qanun layihəsi Məclisi-Məbusan təsdiqinə idxal edilmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Ermənistandakı siyasi nümayəndəmizə teleqrafən xəbər vermişdir ki, Ermənistan qaçqın müsəlmanlarına paylanmaq üçün onun ünvanına 10 vaqon ərzaq göndərilmişdir. Təqsim məsələsi tənzimindən [bölüşdürmə məsələsinin qaydaya salınmasından] ötrü də Nəzarətin xüsusi məmuru oraya azim olmuşdur [yola düşmüşdür].

- Bu günlərdə Gədəbəy zavodu fəhlələri əhvalını məhəllində [yerində] təhqiq üçün Məsai Nəzarəti [Əmək Nazirliyi] tərəfindən oraya göndərilmiş Nəzarət katibi Kazımzadə cənabları səfərindən övdət edib [qayıdıb] zavod əhvalına dair bir məruzə vermişdir. Məruzədən məlum olduğu üzrə, zavod fəhlələrinin əhvalı nəhayət dərəcədə fənadır. Aldıqları məvacib gündən-günə ərzaq və mühimmatın qiyməti artdığından kafi olmayır. Xəstə düşmüş fəhlələri zavod xəstəxanasına qəbul etmək istəməyirlər. Bir çox fəhlə acından və zəiflikdən vəfat etmişlərdir. Zavod sahibləri tərəfindən vəfat etmiş ailələrə maaş verilməyir. Keçən sənənin mart ayından etibarən 8 saatlıq iş günü qəbul edilmişsə də, müştərək müqavilənamə [kollektiv müqavilə] yoxluğundan fəhlələri artıq da çalışdırırlar. Fəhlələr rica edirlər ki, heç olmasa, onlara 20 günlük bir vaxt verilsin ki, əkin işlərinə çıxa bilsinlər. Böylə olarsa, bir qədər təmin edilmiş olacaqdırlar. Fəhlə üçün bəzzaziyə malı [parça, manufaktura] yoxdur. Binaənileyh [ona görə], rica etmişdirlər ki, Bakıdan mal göndərilsin. Fəhlələr arasında Mirzə Sadıqov nam [adlı] bircə nəfər ziyalı fəhlə vardır. Onu da qovmağı təhti-qərara almışdırlar. Fəhlələr buna da etiraz edirlər və rica etmişlərdir ki, onun zavodda xalq müəllimi sifəti ilə qalması üçün Maarif Nəzarəti nəzdində təşəbbüsatda bulunulsun. Fəhlələr rica etmişlər ki, onlar üçün gecə kursları güşad edilsin [açılsın].

Məhəllində komisyon ilə müdiriyyət arasındakı müzakirat sayəsində bir çox məsail qət edilsə də [bir çox məsələlər həll edilsə də], bir çox məsələlər də həll edilməmiş qalmışdır.

- Bugünlərdə hökumət qətnamələri və qanunlarını havi [ehtiva edən] bir məcmuə nəşrinə başlanacaqdır. Bundan ötrü "Xüsusi şöbə" nam bir şöbə təsis edilmişdir ki, fəqət [yalnız, ancaq] işbu iş ilə iştiğal edəcəkdir [məşğul olacaqdır]. Məcmuənin birinci nömrəsi ən yaxın zamanda təbdən [çapdan] çıxacaqdır.

- Məsai Nəzarəti Kəsbkarlar [Həmkarlar] İttifaqına müraciətən məlum etmişdir ki, zəhmətkeşlərin mənafeyi mühafizəsindən ötrü Nəzarət cənbində [Nazirlik nəzdində] təsis edilmiş Münsiflər şöbəsinə öz nümayəndəsini göndərmək üçün İttifaqa müraciət edildisə də, rəddi-cavab alındı. Axırıncı dəfə olaraq Nəzarət rica etmişdir ki, oraya nümayəndələr göndərilsin. Əks surətdə şöbə xidmətçiləri buraxılaraq şöbə təsviyə [ləğv] ediləcəkdir.

- Xariciyyə Nəzarəti Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciətən məlum etmişdi, Məvarayi-Bəhri-Xəzər [Zakaspiysk] Hökuməti qüvayi-hərbiyyəsi [ordusu] tərəfindən boşa[l]dılmış Bayraməli və Mərvdən İrana qaçmış müsəlmanlara müavinət üçün hökumətdən para istəməlidir. Zira bunların bir hissəsi əvvəlki yerlərinə, digər hissəsi isə Bakıya qayıtmaq məcburiyyətində qalmışlardır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti məsələni Rəisi-vükəlaya [Baş nazirə] vermişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən Cavad qəzasının Qalaqayın kəndi əhalisi tərəfindən buraxılmış mənqul və qeyri-mənqul [daşınan və daşınmaz] əşya və imarətlərin siyahısını tutmaq üçün Talışinski oraya göndərilmişdir. Talışinski cənabları həman köydə yaşayan Şamaxı qaçqınlarının da əhvalını təhqiq etməlidir.

- Gəncə nahiyə müfəttişliyi Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti indində [nəzdində] İrəvan qaçqınlarının məcburən Ərəş və Şəki qəzalarında sakin etdirilmələri haqqında təşəbbüsatda bulunmuşdur. Zira əkilmiş tarlalar sahibləri tərəfindən buraxıldığı üçün məhv olub getməkdədir. [Ümuri-Xeyriyyə və Nafiə] Nəzarəti Ziraət və Dövləti Əmlak Nəzarətindən tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti əmr vermişdir ki, Bakı Mərkəzi Ev Komitəsi cənbindəki [nəzdindəki] iaşə məntəqələri üçün 300 min rublə və Bakıya gələn Lənkəran qaçqınları üçün 15 min rublə buraxılsın.

AZDIR

- 2 -

Keçən məqaləmizdə Qarabağ haqqında çox az danışıldığını, az yazıldığını, az çalışıldığını qeyd etmişdim. Şübhəsiz ki, bu söz yalnız bu gün Parlamanda bir məsələ ətrafında danışıq qalxdığı üçün deyil, aylardan, hətta illərdən bəri göstərilmiş səhlənkarlığa aiddir. Çünki Qarabağın bugünkü vəziyyəti təzə doğmuş bir şey olmayıb, on illərdən bəri hazırlanmış bir zəminədə, bəslənmiş bir ağacda yetişmiş bir meyvədir.

Bu gün azərbaycanlılar qarşısında Lənkəran, Naxçıvan, Şərur, Ordubad, Borçalı və sairə kimi ərazi məsələləri var. Bəziləri Qarabağ məsələsini də o qəbildən hesab edirlər. Fəqət bu, düz deyildir. O yerlər dövri-istiqlalda heç vaxt Azərbaycanın əlində olmamışlardır, yabançılar əlində qalmışlardır. Bunları əlimizə almağa çalışırız. Çünki vətənimizin ayrılmaz bir qitəsi [hissəsi] hesab ediriz. Amma Qarabağ öylə deyildir. Qarabağ heç vaxt bizdən başqasının əlində olmamışdır. Ancaq, bəzi əşqiya [quldur] dəstəsinin qüvveyi-cəbriyyəsinə [zor gücünə] fəda olur.

Hələ bir il tamam deyil. Məhərrəmül-haramın əvvəlinci günü Türk-Azərbaycan ordusu şəhərə girdi. Komandan C[əmil] C[ahid] əfəndi Xan qızı bulağı ucalığından "Bu yerlər artıq Azərbaycan Hökumətini qəbul edəcəkdir. Burası Azərbaycanın ən dəyərli, qiymətli bir hissəsidir. Bizim üçün erməni, türk, rus yoxdur. Ancaq müti və asi var. Mütilərlə mədəniyyətin tələbi, divani-ədalətin hökmü, Quranın əmri ilə rəftar olunacaq. Asilərlə isə bütün mədəni millətlər və dövlətlər kimi qanunla rəftar edəcəyiz" deyə ilk dəfə Azərbaycan Hökumətini təbliğ etdi. O zaman, hamıdan əvvəl Bələdiyyə rəisi Məlik-Şahnazarov musiqi və bayraqla istiqbala [qarşılamağa] çıxmış olan neçə yüz ermənin hüzurunda ermənilər namından [adından] bəyani-təbəiyyət etdi [tabe olduğunu bildirdi]. Fəqət az çəkmədi, beyəti [tabeçilik vədini] sındırdılar, sözlərini saxlamadılar. Yenə əşqiya ayaqlandı, yenə asi cərəyanı gücləndi. Axırda görürsünüz nə oldu.

Səbəbi nədir, hanki amillər, hanki şərait bu hadisəni doğurdu?

İştə, bizim istədiyimiz, Qarabağ məbuslarından tənvirini [aydınlaşdırılmasını] tələb etdiyimiz məsələ burasıdır.

Yenə təkrar ediriz ki, aylar, illərcə bundan qabaq camaat xadimlərimiz, xüsusən son 8 ay müddətində Qarabağ məbusları hər yerdə, hər vasitə ilə bu məsələni açmalı və məlum etməli idilər. Öylə olsa idi, bəlkə bu işlər də əmələ gəlməzdi.

Mənə etiraz edə bilərlər ki, keçirmiş olduğumuz siyasi əhvallar nəzərə alınsın. Fəqət deyərəm: siyasi əhvallar necə dəyişsə də, Qarabağın vəziyyəti əsla dəyişməmişdir, həman coğrafi, əsgəri, milli, etnoqrafi, topoqrafi mövqeyini saxlamışdır. Açılması lazım gələn məsələ də bunlar idi.

Mənə etiraz edirlər ki, iki-üç məbus Parlamanda da çalışıb, kənarda da bu qədər işi görə bilməzlər. Bunun cavabında ərz edərəm ki: əvvəla Parlamanda qarabağlı məbus sabiq Rusiya Dövlət Dumasında ümum müsəlmanların məbusundan çoxdur (nazirdən başqa 7 məbus var). Saniyən [ikincisi], nəinki kənari işlər, hətta Parlamanın öz işlərində onları yalnız buraxmaq barəsində təşəbbüs edildi. Fəqət özləri istifadə etməyi ya bacarmadılar, yainki istəmədilər.

Çünki Parlaman işlərinə bələd, Qarabağın bütün övzası [vəziyyəti] ilə aşna olan zəvatdan [şəxslərdən] bir qədərinin təşəbbüsü ilə hələ beşaltı ay bundan qabaq bir iclas dəvət edildi. Orada qərar verildi ki, Bakıda yaşayan bacarıqlı, işbilən adamlar miyanından [arasından] bir neçə adamdan ibarət bir büro təsis edilsin. Həman büro Qarabağ məbuslarına ümum işlərdə kömək etsin (necə ki, Dövlət Duması Müsəlman fraksiyası nəzdində var idi). Fəqət büro hələ də təsis gözləyir. Qərar verilmiş iclasın dəvətini hələ də, intizarla bəkləyiriz. Halbuki, o vaxt büro təşkil olunub məbuslarımız onlarla əl-ələ versəydilər, çox iş görə bilərlərdi. Məbuslar bunu etmədilər.

Millətlərin, dövlətlərin dili mətbuatdır. Bundan da istifadə edilmədi. Hələ də, edilmək təşəbbüsü müşahidə olunmayır. Halbuki, Şuşada qanlı facia baş verdi. Zəngəzur alov içindədir. Cəbrayıl qəzası təhdid altındadır (deyirlər orada da bir şey var; dünən aldığımız teleqraf da bunu təyid [təsdiq] edir).

Bu gün, sabah Cavanşir qəzası da alışar, böyük bir Qarabağ yanğını əmələ gələr. Heç kəs də bilməz nədən oldu, haradan oldu. Yüzlərcə müsəlman kəndi dağılar, heç gözə görünməz, bir dənə Qaybalı kəndi yandıqda bütün dünya titrər. Təqsir general-qubernatorun boynuna atılar. Vəhalonki [halbuki] mən də, məbuslarımız da, hökumət də, Qarabağda bütün arvad-uşaqlar da, hətta dünyanı titrədən fitnəkarlar özləri də yaxşı bilirlər ki, Qarabağ hadisəsində təqsir tamamilə Erməni Milli Şurasındadır.

Söz gəlmişkən, bunu da qeyd edəlim. Deyirlər Şuşada Erməni Milli Şurasının 5 üzvü qaçmış, 3 nəfəri də general-qubernatorun tələbi üzərinə ingilis heyəti tərəfindən şəhərdən təbid [sürgün] edilmişdir. 3 nəfər təbid edilmiş, buna hamı inana bilər, amma yerdə qalanları necə olmuşlardır? Və Milli Şura ancaq 8 nəfərdənmi ibarət idi ki, 3-ü təbid edildikdə, 5-i qaça və hara qaçmışdır? Doğrudur, ola bilər ki, tutulma qorxusu olan vaxt şəhərdən çıxmışlar. Fəqət uzağa yox, bulvarın başından enmişlər Böyük Daşaltına, oradan Topxananın üstündən Muxtar təriqi [yolu] ilə Şuşa kəndinə, sonra da Keşiş kəndinə getmişlərdir. Orada ətraf kəndlərə səs salıb bir neçə yüz (eşitdiyimizə görə 500) müsəlləh [silahlı] erməni toplayıb sair yaxın kəndlərin adamları ilə köməkləşərək Malıbəyli, Abdal və Gülablı üzərinə hücum etmək istəmişlərdir. Fəqət dava tez sakit olduğundanmı, ya başqa səbəblərə görəmi, nədənsə fikirlərindən daşınmışlardır.

Bu dördüncü dəfədir ki, Şuşa şəhəri və ümum Qarabağ müdhiş yanğın təhlükəsi keçirir. Fəqət, bununla qurtaracaqmı? Xayır! Nə üçün? Səbəbləri gələn məqalədə.

Qarabağlı

QIRMIZI QAN [VƏ] QARA MÜRƏKKƏB

- 4 -

Vətən uğrunda qanını, canını fəda etmək qəsdi ilə yaşayan millət istiqlalını da yaşadar, səltənətini də mühafizəyə qadir olar. Bu yolda ən böyük fədakar bir millət varsa, o da türklərdən ibarətdir. Bunu dəfəatla həm tarix sübut etmişdir, həm də əsrimizdə vüqu bulan türklərin bir çox qəyuranə [qeyrətli] hərəkətləri bunu göstərmişdir.

Timsal üçün uzağa getməyəlim. Azərbaycan türkləri şimal təhlükəsini müşahidə edər-etməz filfövr [dərhal] bunun tədarükünə sarıldılar. Şəhərlərdə, qəsəbələrdə, hətta kəndlərdə müdafiə fikir və tədbirinə qurşandılar. Xəyala gəlməyən həyəcanı müşahidə etmədəyiz. Bir yandan dəmirçilər, baqqallar, əttarlar [ədavat satanlar], xülasə tamam əhli-kəsəbə və sənətkarlar könüllü dəstələri təşkil edib küçələrdə, meydanlarda, hətta məscid həyətlərində hərbi məşqlər öyrənirlər. Bunların arasında 15 yaşında uşaqdan başlamış 60 yaşında əlil qocalara qədər müşahidə olunur. Sənət və kəsblərindən [işlərindən, qazanclarından] fariğ [azad] olan kimi, məşq meydanlarına öylə şövq və həvəslə gedirlər ki, guya bunlar üçün bir toy-bayram hazırlanır.

Əxzi-əsgər [hərbi çağırış] məsələsinə də camaatımız xeylaq rəğbət və həvəs göstərməkdədir. Böylə ki, bir kənddən (Qarabağda) əsgərlik həddinə dolmuş cavanları tələb etdikdə, həman kəndin tamam camaatı ağsaqqallarına qədər böyük bir nümayişlə hökumət nümayəndəsi yanına gedərək izhar etmişlər ki, yalnız cavanları deyil, bəlkə tamam kənd əhli uşaqlarına qədər millət uğrunda fədayi-can etməyə hazırdırlar. Zənn edirəm ki, çadra fəqərəsi [məsələsi] olmasaydı, müdafiə fəqərəsində qadınlar da kişilərdən geri qalmaya idilər. İştə, türklərin fədakarlıq məsələlərində hazırlıqları!

Burası mühəqqəq [qəti, şübhəsiz] olduqdan sonra, fərz edəlim ki, Ermənistanda və Azərbaycanda səfərbərlik elan edilir. Ermənilərin kişiləri müharibə meydanlarına göndərildyi halda, təlim və tərbiyə görmüş qadınları evlərini mürəffəhən [rifah içində] dolandıra biləcəklər və bəlkə müharibə işlərində qadınlığa yaraşan bir çox yararlıq da göstərəcəklər. Azərbaycana gəldikdə, gərək hər evdə əqəllən [ən az] bir kişi qalsın ki, çoluq-çocuğu doyursun, qadınlara pərəstar olsun [baxsın, qulluq etsin]. Böylə olarsa, iki-üç yüz min kişi evdə oturmağa məcbur olaraq qoşunumuzun ədədini xeylaq əskildəcəklər. Bu isə, düşmənlə bizim qüvvəmizin nisbətini pozmağa məcburdur ki, bunun nəticəsi hamıya məlumdur. İştə, qadınların avamlığından törəyə biləcək əngəllər.

Müharibə əsnasında işlənən fənlərin hamısında ermənilərin ənvai [müxtəlif] sənətkarları mövcud olduğu üçün bunları tamamən öz cavanlarına həvalə edəcəklər. Azərbaycana gəldikdə bir çox hərbi fənlərin ustadları hələ ərsəyə gəlmədiyindən, teleqraf, telefon, avtomobil, aeroplan kimi işləri sağ, ya sol firqələrə, yaxud şimal əhlinə həvalə edərsək, şübhəsiz ola biləcək xəyanətləri ilə Azərbaycanı qorxulu uçurumlara atmazlarmı? İştə, millətin fədakarlığı, şühədanın [şəhidlərin] töküləcək qırmızı qanı kifayət edəməz. Bununla bərabər, məlumatlı şəxslərin məharəti, "qara mürəkkəbi" də lazımdır ki, milləti hər girdabi-fəlakətdən rahi-nicata [nicat yoluna] çıxara bilsin.

Pəs, müharibə əsnasında bizə elmli və mütəfənnin [müxtəlif fənləri bilən] şəxslər lazım olduğu kimi, sülh və müsalimət [əmin-amanlıq] günlərində də daha artıq lazım və vacibdir. Necə ki, bu barədə keçmiş məqalələrdə sübut olundu. Aya, buna bir çarə vardırmı?

Qabaqkı məqalədə buna çarə olaraq təlimi-ümumi və icbarini göstərmişdik. Lakin, buna indidən şüru olunarsa [başlanarsa], dörd ildən sonra nəticə göstərəcəkdir demişdik. Bu məsələnin icrası hökumətdən asılıdır. Bunun layihəsini təsdiq edib mövqeyi-icraya qoyunca, yəqin ki, bir qədər vaxtı zaye etmiş olarız. Bundan əlavə, təlimi-icbarinin faydası həddi-təlimə varmış uşaqlar üçündür. Bəs bu həddi keçmiş cavanlara nə çarə etməli?

İştə, məsələmizin ən böhranlı yeri!

Fədakarlıqdan qaçmayan cavanlarımız könüllü dəstələri tərtib verdilər. Tərtib verib də hökumətdən tələb etdilər ki, bunların təlimi üçün zabitlər təyin etsinlər. İş bir məqama gəlmişdi ki, bunların istidasını [xahişini] hökumət qəbul etməyə bilməzdi. Zira məsələ yoğunlayıb böyük etibar qazanmışdı. Odur ki, hökumət bunların xahişini kamali-şövq ilə qarşılayıb istədiklərinə də sərəncam verdi.

Təlim məsələsində də cavanlarımız, yəni "maarif könüllülərimiz" məzkur [deyilən] qərarla təşəbbüsatda bulunsalar, hər 30-40 cavana bir müəllim tələb edərək maarif məramlarına da nail olacaqlar ümidindəyəm. Az çəkməz ki, bu qərarla yüz minlərlə cavanlarımız savad əhli olub, bununla millətə böyük yararlıqlar göstərmiş olarlar. Xülasətül-kəlam, cavanlarımız bilməlidirlər ki, balığa su fərz olan kimi Azərbaycana da savadlı və maarifmənd şəxslər lazımdır.

Hökumətimiz edadiyyələri millilşdirəcək, ali mədrəsə açacaq, daha nələr, nələr yapacaq. Bu, uzun bir yoldur. Həm də yaşlılarımız bundan faydamənd olammazlar. Müəllimlərimiz, mollalarımız, ziyalılarımız, zabitlərimiz, tələbələrimiz, hətta şagirdlərimiz, xülasə kim bacarırsa, zəhməti müzayiqə etməyib könüllülərimizə dərs desinlər, savad öyrətsinlər. Məktəblərdə, məscidlərdə, qışlalarda [kazarmalarda], məclislərdə, mehmanxanalarda, hətta karvansaralarda, xülasə hanki mənzildə və harada mümkündürsə dərs verilsin ki, aman gündür, bəlkə mənzili-məqsudumuza çataq.

Əhalidə böylə bir ciddi təşəbbüslər əlaməti müşahidə olunarsa, şübhəsiz ki, hökumət maddi və mənəvi kömәkləri ilə bunları qarşılayacaqdır.

Əsgərlik fəqərəsini [məsələsini] anlamış cavanlarımız, ey kaş ki, maarif fəqərəsini də öylecə anlamış olaydılar. Onda arvadlarını, hətta qocalarını da oxumağa vadar etmiş olardılar. Könüllü dəstələrimiz istəsələr, bunu asanca əncama gətirə bilərlər. Xülasə, avam və cahil millət ağalıq edə bilməz, vəssalam.

Fərhad Ağazadə

FELYETON
NƏŞRİYYATIMIZIN ƏSBABİ-TƏRƏQQİ VƏ TƏDƏNNİSİ

- 6 -

İslamlar məmləkətlərini vüsətləndirdiyi qədər də ülum və maariflərini də tövsi etmişlər [genişləndirmişlər]. Bağdadda saçılan ülum və maarif toxumu Xorasan, Rey, Xuzistan, Azərbaycan, Mavəraünnəhr, Misir, Hind, Məğrib, Şam, Əndülüs və sairə kimi yerlərdə də meyvə vermişdir. Məzkur qitələrdə [deyilən ərazilərdə] ülum, maarif parlaq dövr keçirərkən, Bağdadda üləma, süləha və ətibba [alimlər, yaxşı əməl sahibləri və təbiblər] yetişirdi.

Xüləfa, üməra, vüzəra, əğniyadan [xəlifələr, əmirlər, vəzirlər, varlılardan] füqəraya qədər həpsi təlifata [əsər yazmağa] məşğul olurlardı. İslamların ittixaz etdikləri [əldə etdikləri] ülum və maarif dürlü şöbələrə bölünmüşdür. Növbənöv elmlər təlifinə müxtəlif heyətlər təyin edilmişdir. Türk əazimi-üləmasından [Türk alimlərinin ən böyüklərindən] Taşköprüzadə kəndi "Məfatihülülum"unda deyir ki, o zamanda elmi şöbələrin ədədi 500-dən ziyadə idi. Ərəb dilinə məxsus ülumi-islamiyyə ilə adabi-islamiyyədən maəda [başqa], elmi şöbələrdən iqtisad, siyasa [siyasət], hikməti-tarixiyyə və coğrafi, tarixi qamuslar [lüğətlər] kimi bəzi asar [əsərlər] vardır ki, islamiyyətdən əvvəl mövcud deyildi.

"Kəşfüz-zünun"a nəzərən islamların yazdıqları kitablar 14501-ə baliğdir [çatır]. Zühur edən ….. ixtilal və sair fəlakətlər əsnasında məhv olan kitablar, şərh və hamiş [dərkənar] surəti ilə yazılan əsərlər bu hesaba daxil deyildir. Hətta islam müəllifləri içində minə qədər yüzlərcə kitab yazanlar olmuşdur.

Məsələn, məşahiri-üdəbadan [məşhur ədiblərdən] Əbu Übeydə 200, əimmeyi-füqəhadan [şəriət hüququ elminin müctəhidlərindən] Əbül-Abbas bin Süreyc 400, Əndülüs kübari-üləma və üdəbasından [Əndülüs alimlərinin və ədiblərinin ən böyüklərindən] İbn Xürrəm 400, Kindi [Yaqub bin İshaq] 231, [Əbubəkr] Razi, [Əbülfəzl] Süyuti, İbn Sina kimi alimlər 100-ə qədər kitablar təlif etmişlər. Hətta Əndülüs üləmasından Əbdülməlik bin Həbib əs-Süləmi və Cəmaləddin əl-Hafiz kimi üləma minər asar [hərəsi min əsər] yazmışlardır. Bu asarın ən ufağı [kiçiyi] 10 cilddən ibarətdir. Halbuki, Sibt bin Cövzinin "Miratüz-zaman"ı 50, İbn Əsakirin "Tarixi-Dəməşq"i 80, Xətib Bağdadinin "Tarixi-Bağdad"ı 14, "Əğani" 20, İbnül-Əsir 20 cildlərdən mütəşəkkildir. Yaqut Həməvinin "Mucəmulbuldan"ını – ensiklopediyasını, İbn Əbdürəbbihin "əl-İqdülfərid"ini və sairləri dəxi bunlardan qiyas etməlidir.

İslamlar maarif məhşəri-kübərası [böyük maarifpərvərlər izdihamı] içində əsər cəm və tədvininə [əsərləri toplamağa və kitablaşdırmağa] çapalayarkən, təbəqat, məqazi, siyər, tarixi-ümumidən əlavə el ədəbiyyatı, qədim əşarı [şeirləri] belə toplamaq üçün seyrü-səyahətə çıxdıqları kimi, coğrafiyaya da son dərəcə əhəmiyyət vermişlərdir. Bu xüsusda ətraflıca məlumat əldə [etmək] mümkün isə də, lakin Corci Zeydanın yazdığına iktifa edəcəyiz [kifayətlənəcəyik]. Mumaileyh [adı çəkilən şəxs] deyir ki:

İslamların coğrafiya yazmasına üç səbəb vardır:

Birincisi həccdir. Zira, islamlar hansı iqlimdə olursalar olsunlar fərizeyi-həcci [fərz olan həcc ibadətini] ifa etmək üçün Məkkəyə gedirlər. Bir müsəlman Hinddə, ya Çində olsa, həccə getmək ona fərzdir. Binaənileyh [ondan ötrü], yolların bilinməsi lazım idi.

İkincisi elm və məlumat təhsili üçün və fəth etdikləri yerlərdə kübar səhabələrin şər'i-şərifi təlim və təmim etmək [şərəfli şəriəti öyrətmək və yaymaq] üçün səyahət etmələridir. Bu səyahətlərin icrası da gediləcək yerlərin və məntəqələrin bilinməsinə möhtacdır. Buna görə, ərəblərin coğrafiyaya dair ilk yazdıqları asar ərəblərin iqamətgahlarından və bədəvi qəbilələrin qonaq yerlərindən təşəkkül edirdi. Bu yolda ilk əsər yazanlar Əbu Səid Əsmayi ilə Əbu Übeyd Sükuni olmuşdur. Bunları mütəaqibən [bunların ardınca], biladi-ərəb [ərəb ölkələri] haqqında məlumati-coğrafiyyəni havi əsər vücuda gətirilmişdir. Həsən bin Əhməd Həmədaninin "Xərirətül-ərəbi", Əbu Əş'əs Kindinin "Tihamə dağları" və sairələri o cümlədəndir.

Üçüncü səbəb isə ərəblər fəth etdikdən sonra məmləkətlərin alınmasına nəzərən ehkam vəz etmək [hökmlər vermək] idi. Çünki sülh ilə alınan məmləkətin qanunu ayrı, qəhr ilə zəbt edilən yerin ehkamı ayrı idi. Bu nöqtələr ehkami-diniyyədən [dinin hökmlərindən] olduğuna görə, üməra və füqəhanın [əmirlərin və şəriət hüququ mütəxəssislərinin] bilmələri zəruri idi. Bu dəxi tarix və coğrafiyadan asılı idi. Binaənileyh, əcnəbi dillərində bulub tərcümə etdikləri coğrafiyadan maəda [əlavə], kəndiləri də bizzat şərqən və qərbən, cənubən və şimalən, dənizləri, bütün əqtari-kainatı [kainatın bütün tərəflərini] dönüb dolaşaraq gördüklərini, bildiklərini, topladıqlarını təhqiqat üzrə qeyd və tədvin etmişlər [kitablaşdırmışlar].

«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 14 iyul (Bazar ertəsi günü) tarixli 224-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Hətta yunanlı Batlamyus Klavdinin 4350 şəhərləri, iki yüzə baliğ [çatan] dağların daxilindəki mədənləri hesabati-fələkiyyə və riyaziyyə [astronomik və riyazi hesablamalar] ilə tənzim etdiyi xəritələri havi coğrafiyasındakı bir çox yanlışlıqları təshih etmişlər.

Ərəb alimləri tarixi-ümumiyyəyə dair əsərlər vücuda gətirməyə nasıl sərfi-qeyrət etmişlərsə, coğrafiya elminə dair mötəbər asar yazmağa da öylecə bəzli-hümmət eyləmişlərdir [səy göstərmişlər].

Ərəblərdə ilk dəfə yazılan müfəssəl coğrafiya dördüncü əsri-hicri ibtidalarında [hicrətin dördüncü əsrinin əvvəllərində] Şeyx Əbu Zeyd Bəlxinin "Süvərül-əqalim"idir. Bu coğrafiyada məmaliki-islamiyyə [islam məmləkətləri] 20 qismə təqsim olunmuş [bölünmüş], hər qismi haqqında müfəssəl məlumat verilmişdir.

Yenə İstəxrinin o əsrdə yazılmış "Məsalikül-məmalik" nam [adlı] coğrafiyasıdır. Müşarünileyh bizzat [adı çəkilən adam şəxsən] əqtari-cahanı [dünyanın bir çox yerini] səyahət edərək bir çox məmləkətlər, dənizlər və şəhərlər haqqında tədqiqat və tətəbböat [araşdırmalar] icra eyləmişdir. Bu dəxi Bəlxi kimi islam məmləkətini 20-yə təqsim etmişdir. Bu qisimlər diyari-ərəb, Cəzirətül-ərəbdən [Ərəbistan yarımadasından] başlayaraq Türküstanda müntəha [son] bulur. Və bu qisimləri ayrı-ayrı zikr və tövsif [vəsf] etməklə bərabər, hər məmləkətin sənaye və ticarətini və sai-rəsini kamalınca yazmışdır.

İbn Hövqalın yazdığı "əl-Məsalik vəl-Məmalik" daha müfəssəl, daha müntəzəmdir. Müşarünileyh uzun müddət səyahət etmiş, gördüklərini tamamilə yazmışdır. Hər məmləkətə məxsus bir xəritə tənzim etdikdən maəda [əlavə], şəhərləri, nəhrləri, dağları, dənizləri, adaları dəxi tərsim eyləmişdir [çəkmişdir].

Eyni zamanda İbn əl-Fəqih Həmədani, [Şəmsəddin] Müqəddəsi və [Əli bin Hüseyn] Məsudi dəxi coğrafiyaya dair əsərlər yazmışdır. Hətta, Məsudi bir qaç dəfə Hindistanın əqsayi-hüduduna [uzaq sərhədinə] qədər səyahət etmiş, müşahidatını təhqiqat üzrə təhrir eyləmişdir [yazmışdır].

Bu surətlə, get-gedə böyük və müfəssəl olaraq hürufi-heca üzrə [əlifba sırasına görə] coğrafi qamuslar [lüğətlər] vücuda gətirilmişdir. Bilxassə [xüsusilə], 626 hicridə vəfat edən Yaqut Həməvinin "Mucəmul-buldan"ı hamıdan yüksək və mümtaz [seçilmiş] mövqe tutur. Müşarünileyh [adı çəkilən şəxs] bu əsərində məmləkətləri, dağları, dərələri, səhraları, köyləri, qonaq yerlərini, portları, dənizləri, nəhrləri, heykəlləri, bütxanələri, bütləri tərif və tövsif [vəsf] etdiyi kimi, zikr eylədiyi hər şəhərin doğulanları və məşahiri [məşhurları] haqqında geniş məlumat verməklə kitabına bir çox təracimi-əhval [tərcümeyi-hallar] əlavə etmişdir. Böyləliklə, Yaqut Həməvinin bu kitabı həm coğrafi, həm tarixi, həm də ədəbi bir qamus ədd [hesab] olunur.

Əbül-Fəda namı ilə məruf olan [tanınan] Həma əmirinin "Kitabül-müxtəsər fi-əhvalül-bəşər"i dəxi bu qəbildəndir.

Coğrafiya elminin tərəqqisinə xidmət edən bir çox ərəb səyahətnamələri yazılmışdır ki, bütün cahan tarixini və içində yaşayan ünsürlərin ənənatını [ənənələrini], ürfadatını, rüsum və adabını [mərasimlərini və qayda-qanunlarını] dolayısılə havidir [ehtiva edir].

İslamlarda az müddət zərfində vücuda gətirilən rəsədxanalar, xəstəxanalar, mədrəsələr, kitabxanalar, kimyagərlik, nəbatat və əczaçılıq şayani-təqdirdir [təqdirəlayiqdir].

Aləmi-islamda böyük əllərlə başlanan asari-mədəniyyət hər bir millət üçün cığır açmış və mövzu təşkil eyləmişdir. Burasını avropalı müvərrixlər [tarixçilər] də etiraf edir. Böylə vaqiələrdən şayani-əhəmiyyət birisi də böyük Türkiyə məmləkətinin "şəhərlər şahı" adlanan paytaxtı İstanbulda dəxi yeni icad edilmiş bir mətbəənin təsis edilməsidir.

Ülum və fünunun və hər dürlü əfkari-mədəniyyənin sürəti-intişarına [mədəni fikirlərin sürətlə yayılmasına] xidmət edən mühüm ixtiraatın biri də mətbəəçilik deyilən "fənni-tibaət"dir [çap elmidir]. Bu sənəti 1400 miladidə Almaniyanın Mayns qəsəbəsində doğulan Qutenberq 1440-cı miladi, 844 hicridə icad etmişsə də, Türkiyədə 1139-cu sənədə başlanmışdır. Macar əfazili-müvərrixinindən [tarixçilərinin ən fəzilətlilərindən] Karaçson əfəndi bu xüsusda böylə idareyi-kəlam edir [söz edir]:

1130-da məsnədi-sədarəti ehraz edən [baş vəzirlik vəzifəsini əldə edən] Damad İbrahim paşa ülum və fünun ilə Avropa mədəniyyətinin Türkiyədə təmim etdirilməsini [yayılmasını] arzu və izhar etməkdə idi. Fransa səfarətindən övdət edən [qayıdan] Səid əfəndi təşviqiylə bərabər, qapıçıbaşılarından Mütəfərriqə İbrahim ilə müşarünileyh sədrəzəmə [adı çəkilən baş vəzirə] mətbəə təsisi haqqında müraciət etmişdir. Sədrəzəm həzrətləri təsvib edib [bəyənib], kifayət edəcək miqdarda onlara para vermişdir.

İbrahim əfəndi Vyanadan həkkaklar, hürufat [şriftlər] tökənlər və mətbəəçilər gətirib işə başlamaq istəmişsə də, qeyri-məmul bir mümaniətə [arzuedilməz bir müqavimətə] uğramışdır. Zira o zamanlar İstanbulda yüzlərcə adamlar kitab istinsax etmək [köçürmək] və yazısı olmayanların məktubatını [məktublarını, yazılarını] yazmaqla keçinirlərdi. Onlar bu məsələdən xoşnud olmamışlar. Bir çox patıltı-gurultu çıxarmışlarsa da, ricali-hökümət dahilərinin [dahi hökumət adamlarının] aqilanə tədabiri [tədbirləri] qarşısında bir şey yapammamışlardır.

Üçüncü Sultan Əhməd həzrətlərinin müsaidəsi [icazəsi], Şeyxülislamla bərabər bir çox türk məşahiri-üləmasının [məşhur alimlərinin] yazdıqları təqrizlər [müsbət rəylər] qüvvəsi ilə dedi-qodular bərtərəf olub [aradan qaldırılıb], mətbəəni hicri 1140-da Sultansəlim civarında Mütəfərriqə İbrahim bəy evində təsis etmişlər ki, ta icad edildiyi tarixdən üç əsr sonra olur.

Bu mətbəədə 1140-da təb [çap] edilən kitab məşahiri-üləmadan Vani Məhəmməd bin Mustafanın "Sihahi-Cövhəri" tərcüməsi olan "Vanqulu" nam lüğətdir.

2) Katib Çələbinin "Töhfətül-kübar fi-əsfaril-bihar" nam bəhriyyə tarixidir;

3) "Tərcümeyi-tarixi-səyyah";

4) "Tarixi-Hindi-qərbi əl-müsəmma bə hədisi-növ";

5) "Tarixi-Teymur Gürgan";

6) "Tarixi-Misri-qədim və Misri-cədid";

7) "Gülşəni-xüləfa";

8) İbrahim Mütəfərriqənin "Üsulül-hikəm fil-nizamül-üməm"i;

9) "Füyuzati-miqnatisiyyə"si;

10) Katib Çələbinin "Cihannüma"sı;

11) "Tarixi-Naima", birinci cildləri, ikinci cildi;

12) "Tarixi-Raşid", birinci və ikinci cildləri.

Diqqət edilərsə, zikr olunan əsər sahiblərinin həpsi ümərа, vüzəra və onlar nüfuzda məşahiri-üləmadan ibarətdir ki, Türkiyənin "şəriət istəriz" kimi qovğaçıları qarşısında köks gərmişlər və bugünkü tərəqqiyati-elmiyyə və fənniyyənin təməlini qoymuşlardır.

Sərd edə gəldiyimiz silsileyi-məqalatın ibtidasında [meydana qoyduğumuz məqalələr silsiləsinin əvvəlində] demişdik ki, millətdə intibah elmi oyatmaq və eyni zamanda müfid [faydalı] və mötəbər əsərlər nəşr etmək üçün hökumət müsaidə etməli, iş başında əhli olmalı, el düçar olduğu ehtiyacı kəndi müqəddəratına müvafiq rəf etməlidir [aradan qaldırmalıdır].

Təbii, mövzui-bəhsimiz [söhbətimizin mövzusu] olan bu iddialar yalnız beş-altı kəlmələri bir-birinə qoşmaqla ifadə olunammazdı. Buna uzun-uzadıya tarixi dəlillər lazım idi. Məqsədimiz bu yolda veriləcək məlumatı islamlardan başlamaq olduğundan, qüruni-ula [ilk çağ, qədim dövr] mədəniyyətinə müraciət etmədik. Zira qüruni-ula mədəniyyəti nə qədər məchulat və məchulatla məmzuc [məchulluqlarla, bilinməzliklərlə qarışmış] isə, islam tərəqqiyati-elmiyyə və fənniyyəsinə nisbətən o qədər də naqisdir.

Qüruni-əxirədən [axırkı dövrdən, yaxın əsrlərdən] də yaxın zaman olduğuna görə sərf-nəzər etdik. Ancaq mədəniyyəti-hazirənin mucidləri [hazırkı mədəniyyəti icad edənlər], fəqət ibtida [əvvəlcədən] ülum və maarifdən bütün bütün məhrum olan ərəb-islamların intibahi-elmiyyəsini və aləmin təqdirinə məzhər [nail] olan müvəffəqiyyətlərlə vücuda gətirdikləri qüruni-vüsta [Orta əsrlər] mədəniyyətini və o mədəniyyətin amillərini ixtisarən şərh və bəst eylədik [meydana qoyduq].

Fəqət tarixə baxılarsa, yalnız islam xüləfa və ümərası deyil, həmişə millətin əfkarını parlatmaq, təbəəsini, məmləkətini abad və mədəni etmək üçün rəsikarda [iş başında] duranlar təşəbbüsatda bulunmuşlardır. Hətta Əfqanıstan kimi dağlıqda belə kitablar hökmdar əli ilə yazılır və nəşr olunur. 1911-ci ilə qədər "Piseyi-əxbar" və sonra "Xülasətül-əxbari-Əfqaniyyə" adında müsəvvər [şəkilli] və olduqca nəfis məcmuələr nəşr edilirdi.

Əcnəbi ünsürlərin bu yoldakı iqdamatına [addımlarına] nəzər edilərsə, bütün asari-mədəniyyə təmimində [mədəniyyət əsərlərinin yayılmasında] hökmdarların, vəzirlərin fəaliyyət göstərdiyi və milyonlarca para sərf etdikləri görülər. Budur, hənuz avropalılarca nimvəhşi [yarı vəhşi] adlanan Rusiya mədəniyyəti göz önündədir. Ülum və maarifin təmiminə [yayılmasına], məkatib və mədarisin təzayüdünə [məktəb və mədrəsələrin artmasına], nəşriyyat və mətbuatın bolluğuna və nəfasətinə [nəfis şəkildə olmasına] həddən ziyadə para sərf edilmişdir.

Əvət, yuxarıda söylədiyimizdən anlaşılır ki, ərəb tərəqqiyati-elmiyyə və fənniyyəsinə bizzat xüləfa [şəxsən xəlifələr] çalışdığı kimi, sair millətlərin də böyükləri tərəfindən bəzli-hümmət [səy] edilmişdir.

Təbii, böyüklərin əlləri ilə başlanmasa, gərək mənəviyyat, gərək maddiyyatca ufaq [kiçik] əllərdən bir şey çıxmaz. Buna isbat göstərmək üçün cahiliyyət əshabı ərəblərin nəşriyyatı ilə mədəniyyət ərbabı azərbaycanlıların mətbuatı üzərində bir müqayisə icra edəlim.

1905-ci sənədən bəri 300-ə baliğ [çatan] nəşr edilən asarın içində əcəba 50-si dəyərlimidir? Xayır və yenə xayır! Çünki ülum və maarif nəşriyyatı başında qeyri-əhli olaraq bir qəpik mənfəəti güdən tacir otururdu. Ruscada görüb bəyəndiyi hekayələri, nağılları, aşiqanə asarı tərcümə və nəşr etdirirdi. O sayədə bir çox əxlaqsızlığa təqviyət [güc] verəcək ləyaqətsiz vərəqələr dəxi meydana çıxırdı.

Müəllif və mütərcimin yetişməsi də bunun kimi. Naşir (tacir) ağa nə buyurardusa, mühərrir [yazıçı, müəllif] onu dinləyir, itaət edirdi. Rus çarizmi islamları ruslaşdırmaq yolunda məsai sərf [etdiyi] qədərdə də tacirlər, naşirlər mühərrirləri təzib etmək [müəlliflərə əzab vermək] xüsusunda tədabir ittixaz edirdi [tədbirlər görürdü]. Böylə qəddar şikəncələrə [işkəncələrə] düçar olan mühərrirlərin çoxu hali-həyatdadır. Gördükləri həqarətdən dolayı indi də sızlayırlar.

Həmd olsun, şimdi kəndi hökumətimiz, kəndi məmləkətimiz vardır. Təlifə [əsər yazmağa] müqtədir müəlliflərimiz, tərcüməyə mahir mütərcimlərimiz mövcuddur. Ərəblər xəlifələrindən, sair millətlər hökmdarlarından sənayeyi-nəfisə və asari-mədəniyyəyə [incəsənətə və mədəniyyət əsərlərinə] aid nə görmüşlərsə, biz dəxi gənc Azərbaycan Hökuməti-əbəd-müddətindən onu bəkləyiriz. Eynilə görəcəyimizə qəviyyən [möhkəm] əminiz. Zira sabiq Maarif naziri, şimdi Rəisi-vükəla məqamını ehraz buyuran Yusifbəyli Nəsib bəy həzrətləri müsahibəmiz əsnasında mükəmməl bir nəşriyyat binası qoyacağını və ona məxsus ayrıca bir mətbəənin təsisini, 250 səhifədən ibarət aylıq bir məcmuə nəşr etdirəcəyini lütfən vəd buyurmuş və ləvazimatından da hürufat alınmış. Bəzi qəbul edilən kitabların smetası tərtib edilmişdir. Şimdi hökuməti-aliyyəmizin [uca hökmətimizin] yeni Maarif nazirindən müşarinileyhin [adı çəkilən şəxsin] tutduğunu təqiblə bərabər, tarixi, elmi, coğrafi, ədəbi, fənni və sair bunlar kimi asarın tərcümə və təlifi üçün elm və ədəb ərbabından bir heyətin təşkili və o heyətin tədqiq və təhqiqi ilə saheyi-intişara qonulacaq [çap ediləcək] asari-elmiyyənin təmimi [elmi əsərlərin yayılması] yolunda hər dürlü fədakarlığın qəbul və icra olunacağına ümidvarız.

Ə. Müznib

NAXÇIVAN MƏKTUBATI

- 2 -

İki gün sonra general Devi Naxçıvana gəldi. Şəhərin möhtərəmləri (?!) istasyonda onu istiqbal edərək [qarşılayaraq] kamali-ehtiramla [Naxçıvanski] Kəlbəli xanın evlərinə gətirdilər. Hind əsgərləri xanın imarətinin nəzdində müsəlləh olaraq [silahlı] durmuşlardı. Hər tərəfdən əhali sel kimi axıb gəlmədə idi. 20 dəqiqə keçmədi ki, xanın imarətinin ətrafı və Bəylər meydanı camaatla məmlu oldu [doldu]. Hər kəs kəndi ağıl və düşüncəsi ilə Devinin nə deyəcəyini mülahizə edirdi. Böyləcə, çar-çeşmlə [dördgözlə] camaat gözləri qapıda tam bir saatdan ziyadə müntəzir qaldı. Qəflətən xanın odasından İbrahim bəy Kəngərli dişarıya çıxdı. Əhali bir anda onun dövrbərini [ətrafını] alaraq qulaq asmağa başladı. İbrahim bəy zeyldəki [aşağıdakı] sözləri söyləməyə başladı:

Devi həzrətlərinin bizim sözlərimizə cavabı bu oldu:

"Əhaliyə dağıdılmış [paylanmış] elanların məzmunu doğrudur. Onu mən kəndim imza etmişəm. Mayısın 3-dən siz və Şərur, Ordubad əhaliyi-islamiyyəsi müvəqqəti olaraq erməni təbəəsi hesab olunursunuz. Ermənilərə qarşı heç bir etiraz-filan qəbul olmayacaqdır. Çünki Qafqaziyada Azərbaycanla Ermənistan beynində [arasında] qaç mübahisəli qəzalar vardır ki, o qəzalar mütləqa bu iki millətin arasına müharibə və münaqişə sala bilərlər ki, ondan da qan tökülmək əmələ gələ bilər. Məsləkimiz qan tökməyə müğayir [zidd] olduğundan, bu xüsusda Müttəfiq dövlətlərə yazıldı. Cavabında İstanbuldan Müttəfiqlər nümayəndələri əmr etdilər ki, Şuşa qalası ilə Zəngəzur qəzaları bilamübahisə [mübahisəsiz] Azərbaycana verilməklə bərabər, Naxçıvan və Şərur qəzaları da müvəqqətən Ermənistan təhti-idarəsinə [idarəsi altına] keçməlidir. Məzkur [adı çəkilən] qəzalarda bulunan erməni və müsəlmanlar hər kəs kəndi hökumətinə izhari-əbdiyyət etməlidir [tabe olduğunu göstərməlidir]. Əks təqdirdə asilər cəzalarına çatacaqlar. Çünki Azərbaycan və Ermənistana itaət etmək istəməyənlər bizə itaət etməyirlər deməkdir."

Nümayəndələrimizdən bir çoxları Devi cənablarına ərz etmişlərdi ki, biz ermənilərlə yaşayammayız. Bizimlə onların beynində [arasında] olan rəqabət və ədavət məlumi-aliləridir. Mümkün olarsa, Naxçıvan və Şərur qəzalarının idarə edilməsini qonşumuz İran Hökumətinə tapşırsınlar. Yaxud ingilislər Sülh Konfransı bitənə qədər kəndiləri məzkur əhalini idarə etsinlər. Cavabında buyurmuşlardı ki:

"Qətiyyən öylə iş olammaz. Əski ədavətlər keçdi. Ermənilər müsəlmanlara qarşı fəna hərəkatda bulunammazlar. Çünki Naxçıvanda həmişə ingilis missiyası oturub da haqsızlığın önünü alacaqdır."

Başqa söz söyləyənlər də olmuşlardısa, heç birisinə cavab verməyərək xətmi-kəlam etmişdir.

Camaatın razısızlığına gəlincə, Devi buyurmuşdu ki:

"Mətbuat aləmi açıq olmaqla bərabər, siz hürsünüz, daima izhari-nifrətinizi (protestonuzu) yaza bilərsiniz. Hətta bizim təvəssütümüzlə [vasitəmizlə] Müttəfiq dövlətlərə belə fikirlərinizi, arzularınızı bildirə bilərsiniz."

Ondan sonra camaat mütəfəkkir [fikirli] və yəsnak [qəmgin] halda evlərinə dağılıb getməyə başladı. Devi qışlaya [kazarmaya] hərəkət etdikdən sonra camaat əcələ ilə hökumət idarəsinə yığışaraq oradaca rusca rəsmən ingilis general-qubernatoruna təslim edilmək üçün bir protesto yazıb Parlaman sədri ilə sabahısı gün Devi getdikdən sonra Tiflisdə Baş komandan Tomsona göndərmək üçün qubernatora göndərdilər ki, məzmunu ixtisarən böylə idi:

"Biz ermənilərə rəiyyət olmaq istəməyiriz. Britaniya Hökuməti bizi zorla onlara tabe edir. Biz ermənilərə rəiyyət olammayız. Çünki əvvəla onların da bizim kimi hökumət olmaları təsdiq edilməyibdir. Saniyən [ikincisi], kəndilərini idarə edə bilməyən bir millət bizə hökmran ola bilməz. Salisən [üçüncüsü], bizlə onların beynində [arasında] şimdiyə qədər nə kimi ədavət törədiyi, qan töküldüyü məlumi-alilərdir ki, böylə milli ədavətlə yaşamış iki millətin birini o birisinə hakim etdikdə qoyunu qurda tapşırmaq deməkdir. Hakim tərəf, təbii, qisas alacaqdır. Şanlı, mədəni, insanpərvər Britan Hökumətinin nümayəndəsindən acizanə rica ediriz, bizi ermənilər kimi xunriz [qan tökən] bir millətin çəngalına [caynağına] verməyib də, ya İrana mülhəq etsin [birləşdirsin], yaxud kəndisi koloniya [müstəmləkə] hesabında idarə buyursun və yaxud bu iş müvəqqəti olduğunda[n] bizi kəndi-kəndimizə idarə etməyə buraxsınlar və kəndiləri də nəzarət etsinlər. Böylə olmazsa, biz bu hərəkətə qarşı protesto ediriz."

Sabahısı günü sədr qışlada [kazarmada] aparıb rəsmən zərfi general-qubernatora təslim edib, imza alıb gətirmişlər. General-qubernator məəlməmnuniyyə [məmnuniyyətlə] zərfi qəbul etməklə bərabər, sədrə söyləmişlər ki, rahatsız olmayın, protestonəmiz tezliklə yerinə çatar və cavabını sizə söylərəm.

(Mabədi var)

Tamaşaçı

BAKI XƏBƏRLƏRİ

Azərbaycan və Gürcüstan istiqlaliyyətinin təsdiqi

"B. J." qəzetəsi xəbər verir ki, İstanbuldan alınmış xəbərlərə görə, Sülh Konfransı Azərbaycan ilə Gürcüstanın istiqlaliyyətini qəbul edir. Bu şərtlə ki, bu iki Cümhuriyyət federasiya əsası ilə birləşib Rusiya dövlətinin borcundan 6 milyar manatını öz öhdəsinə qəbula razı olsun.

Türkmən gəmisində bolşevik tutulması

Cümə günü iyulun 11-də Bibiheybət kəndi dalında bir türkmən gəmisində Lənkərandan qaçan 7 bolşevik tutulub Bakı həbsxanasına salınmışdır. Məhbuslar bir həftə var ki, dənizdə qalmışlar və ərzaqsız qaldıqlarından qırağa çıxmağı qərara almışlardır. Buna görə, əvvəlcə gəmiçini qətl etmişlər. Onların dediyinə görə, dənizdə böylə gəmilərdən çoxdur. Gəmilərdə son hadisələrdən sonra Lənkərandan qaçmış bolşeviklər vardır. Ərzaqları olmadığından dənizdə onların halı çox pis keçirmiş.

Parlaman komisyonlarında

Maliyyə-Büdcə komisyonunda

* Ermənistanda müsəlman qaçqınlarına yardım üçün hökumət tərəfindən 3 milyon para buraxmaq üçün təqdim olunmuş layihə Maliyyə-Büdcə komisyonu tərəfindən qəbul olunub, bu günlərdə Parlaman təsdiqinə təqdim olunacaqdır.

* Zəngəzur qaçqınlarına yardım üçün smetadan xaric olaraq Ümuri-Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] 18 milyon 250 min manat para buraxılması Maliyyə-Büdcə komisyonu tərəfindən qəbul olunmuşdur.

* Maarif Nəzarətinin təqdim etdiyi iki aylıq pedaqoji kursları güşadı [açılması] haqqındakı qanun layihəsi Maliyyə-Büdcə komisyonu tərəfindən qəbul edilmişdir. Tələb olunan məbləğ[in] buraxılması təhti-qərara alınmışdır.

Mütəəllimlər üçün hazırlıq kursları

Milli şöbələrdə türkcə zəif olub da, indi hazırlanmaq istəyən mütəəllimlərdən [şagirdlərdən] rica olunur Birinci Realnı məktəbində müəllim Abdulla Şaiqə müraciət etsinlər.

Müəllim və müəllimələr kursları

Məlum olduğu üzrə Hökumət tərəfindən müəllim və müəllimələrdən ötrü xüsusi hazırlıq kursları açılmasına qərar verilmişdi. Kurslara zəif və hazırlığa ehtiyacı olan müəllimlər qəbul olunacaqdı. İndi həman məktəbin iki sinifi vardır, dolmuşdur vəhalonki [halbuki] hər tərəfdən müəllimlər gəlib kurslara daxil olmaq istəyirlər. Kursların müdiri Mahmudbəyov Mahmud bəy əfəndi isə maddi qüvvənin olmamasına istinadən gələnləri artıq qəbul etməyir. Biz zənn ediriz ki, Hökumət vətənimizin müəllimlərə olan əşəddi-ehtiyacını [şiddətli ehtiyacını] nəzərə alaraq lazım qədər para buraxar və nə qədər gəlsə, hamısını qəbul edib millətimiz üçün müəllim qüvvələri hazırlığına qüvvət verər.

Maarif Nəzarətinin Təlif Komisyonunda

Milliləşdirilmək üzrə olan məktəblərimiz üçün türkcə kitablar hazırlamaqdan ötrü Maarif Nəzarəti cənbində [nəzdində] təşkil olunan Təlif Komisyonunda ibtidai məktəbi üçün, rüşdiyyə məktəblərinin 1, 2, 3-cü sinifləri üçün və edadilərin 3-cü siniflərinə qədər lazım olan kitablar hazırlanmışdır. Hazırlanmış kitablar ələn [indi] hökumət tərəfindən təşkil edilmiş xüsusi mətbəədə təb [çap] olunmaqdadır. Əvvəl sırada ibtidai məktəblərin kitabları təb olunur.

Təlif Komisyonu zeyldəki [aşağıdakı] şöbələrdən ibarətdir:

1) Riyaziyyat şöbəsi;

2) Tarix və ədəbiyyat şöbəsi;

3) Tarixi-təbii və coğrafiya şöbəsi.

1-ci şöbədə fizika, əlcəbr, başqa riyaziyyata aid elmlər, 2-ci şöbədə ümumi türk tarixi, ümumi mədəniyyət tarixi və Azərbaycan tarixi hazırlanır. Ədəbiyyat şöbəsində isə ədəbi kitablar hazırlanır. 3-cü şöbədə tarixi-təbii, ümumi coğrafiya və bir də Azərbaycan coğrafiyası tərtib olunur.

Havanın istiliyinə baxmayaraq müəllimlər və mühərrirlər gecə-gündüz çalışırlar. Hazırlanmış materiallara hər şöbə ayrı-ayrı baxandan sonra bir də ümumi iclas çağırılaraq müzakirə olunur. Təsdiqdən sonra kitabların imlaca ümumiləşməsinə başlanır. Necə ki məlumdur, hər müəllimin xüsusi bir imlası mövcud olması kitabların cürbəcür imlada olmasına səbəb olur. Bunu rəf [aradan qaldırmaq] üçün Təlif Komisyonu [Ağayev] Tofiq Nurəddin əfəndini dəvət etmiş və komisyonca qəbul olunan Əhməd Rasim imlası ilə kitabları təshih etməyi ona həvalə etmişdir. İmla təshihatından sonra kitablar mətbəəyə gedir.

Həkimlərin əsgərliyə dəvəti

Azərbaycan Məclisi-Məbusanının iyun ayının 19-da Azərbaycan Cümhuriyyəti daxilində yaşayan həkimlərin həqiqi əsgəri xidmətə dəvət edilmələri haqqında qəbul etdiyi qanuna görə Bakı uyezd Əxzi-əsgər [əsgərliyə çağırış] idarəsi (Persidski və Qubernski küçələrin küncündə, Şaqi-danovun evində) Bakı və Balaxanı-Sabunçu dairəsində yaşayan və 45 yaşından yuxarı olmayan bilaistisna [istisnasız] bütün həkimləri həmin iyul ayının 18-də, səhər saat 9-da Əxzi-əsgər idarəsinə qeyd edilməkdən ötrü dəvət edir. Həkimlər özləri ilə bərabər onların ailədar olub-olmadığını, hanki dinə mənsub olduqlarını, əsgəri xidmətdə olduqlarını, darül-fünun [universitet] qurtardıqlarını, hanki naxoşluqlarda ixtisas sahibləri olduqlarını isbat edici sənədlərini dəxi təqdim etməlidirlər. Həkimlərin əsgəri xidmətə cəlbləri haqqında qayda və şərait iyulun 13-də Əxzi-əsgər idarəsində elan ediləcəkdir.

Ev Sahibləri İttifaqında

Sentrodomun [Mərkəzi Ev Komitəsinin] Mənzil Komisyonu tərəfindən Daxiliyyə Nəzarətinə təqdim olunan yeni mənzil qanunu layihəsinin bəzi üzvlər tərəfindən qəzetədə oxumaqla gücə minmiş hesab etdiklərini Bakı Ev Sahibləri İttifaqı müzakirə edib, ev sahiblərini məhəllə nümayəndələri vasitəsilə xəbərdar edir ki, zikr olunan layihə hökumət tərəfindən təsdiq olunmamışdır, heç bir qanuni qüvvəsi yoxdur və ev sahibləri bununla iş görə bilməzlər. Öz növbələrində ev sahibləri də hökumətə mənzil məsələsinə görə bir məruzə verib rica etmişdir ki, mənzil məsələsinin həlli üçün bitərəf bir komisyon təşkil etsin.

"İki inqilab arasında"

Bakı müharibəsi zamanı Azərbaycan istiqlalı və Azərbaycan türkləri əleyhinə təbliğat aparan bəzi Tiflis mətbuatına və siyasi firqələrə cavab olaraq Məhəmmədzadə Mirzəbala tərəfindən təfriqə surəti ilə Tiflis qəzetələrində buraxılmış və sonra Tiflis türk gəncləri tərəfindən təb [çap] olunmuş "İki inqilab arasında" adlı bir kitab təbdən çıxıb satışa qonulmuşdur.

Uşaq itibdir

20 gün bundan əvvəl Tovuz mövqifində [stansiyasında] 9 yaşında irəvanlı Muxtar Əhəd oğlu itibdir. Uşağın əynində sarı gömlək, başında ağ papaq, ayağında çust vardır. Uşağı tapanlardan rica olunur ki, Quberniski küçədə Ələkbərzadə Zeynalabdinin dəllək dükanına bildirsinlər.

Qaçqınların teleqrafı

Gəncədən idarəmizə böylə bir teleqraf gəlmişdir:

Hal-hazırda Gəncədə yaşayan biz İrəvan quberniyasının müsəlman qaçqınları izdihamlı mitinqdə Ermənistanda olan müsəlmanların əhvalını müzakirə etdik. Ermənistanda müsəlmanlar əleyhinə görülən hərəkətlər, bir çox müsəlmanları qətl və onlara təcavüz olunması, kəndlərin dağıdılması, ələlümum tədriclə müsəlmanların məhvi bizi protesto eyləməyə vadar edir. Erməni Hökuməti tərəfindən nəinki tədbirlər görülməyir, hətta Ermənistan Hökumətinin aşkar köməyi ilə dinc müsəlman əhalisi haqqında hər cür narəva [nalayiq] hərəkətlər görülür. Bir dəstə nahəmvar [zorba] adamlar əli altında olan erməni hökumətinin quldur dəstələri hər cür cinayət yapmaqdadırlar. Nizami dəstələrin Vedibasar üzərinə hərəkəti, Naxçıvanda olan məşhur camaat xadimlərinin həbsi müsəlmanların hüququnu tapdamaqdan ibarətdir.

Naxçıvanlıların hüququna bu cür təcavüz etmək erməni məmurları tərəfindən qəbul ediləmməz və narəva bir hərəkətdir. Ermənilərin Ermənistanda olan müsəlmanlara bu cür münasibatı və hər cür xudsəranə [özbaşına] hərəkətlər, məsələn, mauzerçi vergiyığanlar tərəfindən vergi, naloq adı ilə külli miqdarda müsəlmanlardan kontribusiya [xərac] tələb eyləmək və müsəlmanların tədriclə məhv edilməsi ciddi beynəlmiləl toqquşmasına bais olacağı şübhəsizdir.

Fövqdə zikr olunan əhvala [yuxarıda deyilən hallara] görə, mitinq qət etmişdir, Azərbaycan Parlamanından xahiş etsin ki:

1) Bu xüsusda Qafqaziyada olan Müttəfiq Komandanlıq xəbərdar edilsin. Müttəfiq Komandanlıq ermənilərin Ermənistanda cinayətkaranə hərəkətlərinə ciddi surətdə diqqət yetirib ermənilərin müsəlmanlar haqqında gördükləri qanlı hərəkətlərə soyuqqanlılıqla baxmamalıdır.

2) Ermənistan hökuməti ilə münasibata girişməlidir ki, Ermənistan hökuməti vaqe ola biləcək milli qırğının qabağını almaq qəsdi ilə ermənilərin müsəlmanlar əleyhinə müsəlləh [silahlı] surətdə olan çıxışlarını tezliklə dayandırıb, müsəlmanların bütün siyasi və ictimai hüquqlarını təmin üçün təcavüzün qət olunmasından [kəsilməsindən] ötrü tədbirlər görməklə bərabər, Naxçıvanda həbs edilən camaat xadimlərini tezliklə həbsdən azad eyləsin. Biz qaçqınlar bunu da izhar edirik ki, var qüvvəmizlə Ermənistan Cümhuriyyətində olan ermənilərin cinayətkaranə hərəkətləri əleyhində mübarizə edəcəyik.

Mitinq sədri: Kazımov

Katib: (imza)

AZƏRBAYCANDA

Qızılağacın bombardmanı

Eşitdiyimizə görə, şəvvalül-mükərrəm ayının 10-da [9 iyulda] "Milyutin" paroxodu Lənkəran bolşevikləri tərəfindən gəlib Qızılağac qarşısında durarkən qəflətən Qızılağacı bombardmana başlayıb, əhali tərəfindən müqavimət gördükdə müvəffəqiyyətsizliklə Lənkərana doğru hərəkət edib də, nəticə də bu olubdur: iki ev və bir buğda tayası yanıbdır.

Qubadan

Qusar və Müşkür nahiyələrində hökm-fərma olan [hökm sürən] bəzi qanunsuzluqdan əhali narazı olaraq Xuluq qəryəli [Xuluq kəndindən] Hacı Cavad Vəlibəyzadəni vəkil edərək Bakıya ezam etmişlərdir. Mumaileyh [haqqında danışılan] Hacı Cavad əfəndi Rəisi-vükəlaya [Baş nazirə] əxzi-əsgər [hərbi çağırış idarəsi] və kənd divanxanalarının milliləşməsi və maarif ümuratı [işləri] haqqında bir ərizə təqdim qılaraq, Rəisi-vükəla dəxi lazım gələn tədabiri səriyyən ittixaz edəcəklərini [tədbirləri sürətlə görəcəklərini] bəyan buyurmuşlardır.

Kəza [eləcə də] Xuluq Nəşri-Maarif Cəmiyyəti tərəfindən güşad edilmiş [açılmış] olan Xuluq müəllimlər kursunun təsdiq olaraq hökumət kursu ilə müsavi [bərabər] hüquqda tutulması yanında, Maarif Nəzarətinə bir ərizə və ərizəyə ləffən [əlavə edilməklə] kurs proqramını dəxi təqdim edərək, Nəzarəti-müşarünileyha [haqqında danışılan Nazirlik] Xuluq camaatının böylə vətənpərvəranə hərəkətindən son dərəcə məmnun olaraq Maarif naziri həzrətləri səriyyən [tez bir zamanda] lazım gələn müamilatı [işləri] icra eyləyəcəyini bəyan buyurmuşlardır.

Şuşadan

Şuşa Türk Mütəəllimlər Komitəsi tərəfindən Bakı qurultayına 1335 sənəsi 26 həziranda [26 iyun 1919-cu ildə] intixab olunmuş [seçilmiş] nümayəndələrin etdikləri təşəbbüsat sayəsində məzkur [deyilən] komitəyə Şuşa şəhərində Hacıbəyli Qardaşları Müdiriyyətinin Qarabağ şöbəsini təşkil etməyə vəkalət verilmişdi.

Məzkur komitənin 14 həziran [iyun] tarixli iclasında bu məsələni həll etdikdə, Müdiriyyət şöbəsinin ümdə heyəti-idarə əzaları [idarə heyəti üzvləri] üzrə Rəşid Yusifzadə, Hacı Zalov, Əziz İbrahim Tahirzadə, Hüseyn Hacızadə, Əsəd Məhərrəmovdan ibarət 5 nəfərlik bir heyət seçildi.

Müdiriyyətin yeni təşkil olunmuş Qarabağ şöbəsinin əvvəlinci iclası 17 həziranda vaqe olub, Rəşidə müdirlik, Hacıya dəftərdarlıq, Əzizə şöbəni idarə etmək, Hüseynə admnistratorluq və Əsədə katiblik vəzifələri tapşırılmışdır.

Şöbə həman gündən etibarən pərakəndə dağılıb pozulmuş həvəskarları toplamağa və lazımi iltizamlar [öhdəliklər] almağa davam edir. Bu günlərdə isə idarə nəfinə [xeyrinə] olaraq "Evliykən subay" operettasını oynamağı təhti-qərara almışdır.

Bir qaç mütəəllimlər [tələbələr] təşəbbüsatı ilə bir arxadaş nəfinə [xeyrinə] olaraq 16 həziranda mövqeyi-tamaşaya qoyduqları operettadan 491 rublə şöbə kassasına vasil olmuşsa da, fəqət bu paradan 241 rublə həman zəvatın [şəxsin] ərizələrinə binaən [əsasən] şöbənin səlahdidi [razılığı] ilə fəqir mütəəllim faydasına qaytarılmışdır. Bununla bərabər, 29 həziranda Koçeryan nam [adlı] erməni artisti tərəfindən oynanılan operettadan 1335 rublə şöbəyə yetmişdir. Bu paradan yalnız 20 rublə kağıza və 200 rublə 3 ədəd möhürə məsrəf olunmuşdur.

Lənkəranda

Bolşeviklər hiylə və aldatmaq sayəsində Lənkəranda rus, müsəlmanlardan mütəşəkkil Muğan dəstəsinə qalib gəlmişlərdir.

Muğanlıların Lənkəran üzərinə yürüş etdiklərini bilərək [D. N.] Kropotov və [V. D.] Suxorokov musiqi ilə muğanlıları istiqbala [qarşılamağa] çıxmışlardır. Şəhərin kənarında müsəlman dəstəsinin komandiri Xoşev bunları həbs edib ştaba göndərmişdir. Bolşeviklərin başçısı olan bu həriflər özlərinin müşkül halını görüb and içmişlər ki, hər bir ixtiyarı Muğan dəstəsinə versinlər, yalnız bunları azad etsinlər və bunlar da öz adamlarına icrayi-nüfuz etsinlər ki, silahlarını muğanlılara verməyə müvəffəq olsunlar. Bunlar da təvəqqe etmişlər ki, atəş kəsib qoşunlarını da şəhərdən çıxarsınlar.

Cavan təcrübəsiz Xoşev bunlara inanıb Şurayi-Hərbiyyəyə sormadan, bizzat kəndisi atəşin dayandırılmasına və yuxarıda zikr edilən şəxslərin azad edilməsinə əmr verir. Eyni zamanda Qırmızı qoşun nəfəratı [əsgərləri] ilə muğanlılar arasında müharibə gedirmiş. Muğanlılara Qızılağac və Caraylı əhalisi müavinət edirmiş.

Kropotov və Suxorokov həbsdən azad edildikdən sonra Qırmızı qoşunlar məxfi surətdə hücum əmri almışlardır. Deməli, muğanlılar səngərlərini buraxıb şəhərdən çıxdığı zaman bolşeviklər hücuma keçmişlərdi. Muğanlılar mühasirə edilmələrindən və yeksərə [tamamilə, hamılıqla] qırılmalarından ehtiyat edərək qaçmağa başlarlar. Böyləliklə, Xoşevin təcrübəsizliyindən dolayı bu müharibədə muğanlılar uduzmuşlardır.

Muğanlılar ricət edərkən [qaçarkən] bolşeviklərə mütəəlliq [məxsus] olan 3 top ilə 2 pulemyotu da özləri ilə bərabər aparmışlardır. Bütün ziyalı müsəlmanlar da muğanlılarla bərabər şəhərdən getmişlərdir. Bunlar sabiqdə bolşeviklərə qulluq edib də sonradan muğanlılara kömək etmişlərdir və şimdi də bolşeviklərin intiqamından qorxaraq şəhərdən çıxmışlardır. Bolşeviklər müsəlman və ruslardan artıq dərəcədə narazı qalıb arvad-uşaqlarından intiqam almışlardır.

İkinci hissə muğanlıların hücuma keçəcəklərindən ehtiyat edərək Suxorokov və Kropotov Sara cəzirəsində [adasında] gizlənmişlərdir. Axırıncı müsəlman qırğınının "pəhləvanı" olan Qorlin 33800 rublə pul ilə Salyan təriqi [yolu] ilə Bakıya qaçmışdır. Bu işlərdən dolayı Lənkəran mahalında iki cümhuriyyət əmələ gəlmişdir. Biri Muğan, biri də Lənkəran Cümhuriyyətidir. Qumbaş çayından Cavad mahalınadək birincinin, Qumbaşdan Qala dağınadək ikinci cümhuriyyətin idarəsi altındadır.

Bolşeviklər tərəfindən Mirmehdi xan Talışınski qətl edilib, Nurulla bəy Nəsirbəyov ölümcül surətdə əzilmişdir. Pavel İvanov və Reytman muğanlılara kömək etdiyi üçün hər ikisi qətl edilmişlərdir. Vəlhasil, hal-hazırda Lənkəranda bolşevik keyfəmayeşası [özbaşınalığı] davam edir.

Azərbaycan Astarası

Lənkəranda bolşeviklər tərəfindən müsəlmanlara qarşı edilən məzalimdən [zülümlərdən] Astara əhalisi həyəcana gəlib Hüseyn Xəlil bəy və Hacı Osman dəstələrinə talışlılardan könüllülər gəlməkdədir. Lənkəranda günahsız olaraq bolşeviklər tərəfindən atəşə tutulan müsəlmanlar üçün intiqam almaq istəyirlər. Talış dağlarınadək kəndçilər üsyan etmişlərdir. Oarada cavan talışlılar Lənkəran üzərinə hücuma keçmişlərdir.

İyulun 6-da müsəlmanlar hücuma başlayıb Gələdəhnə və Püsədəhnə yanında qızğın müharibə vaqe olub, bolşeviklərə böyük tələfat verilmişdir. Bolşeviklər 12 nəfər meyitlərini buraxıb qaçmışlardır. Onların 8 nəfəri erməni, 3 nəfəri isə rusdur.

Bolşeviklərdən zeyldəki [aşağıdakı] şeylər qənimət alınmışdır: 1 pulemyot, 2 at, 10 kisə un, 10 kisə arpa. Bürcəli və Alekseyev[ka] nam rus kəndləri bitərəflik saxlayıb nə bolşeviklərə və nə müsəlmanlara kömək etməmişlərdir.

TEATRO VƏ MUSİQİ

"Operetta"

Bu gün axşam iyulun 14-də Hökumət Teatrosunda Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən şükuhlu [təntənəli] bir surətdə "O olmasın bu olsun" operettası mövqeyi-tamaşaya qoyulacaqdır. Bu dəfə Məşhədi İbadın rolunu məşhur komik Mirzəağa Əliyev ifa edəcəkdir. Tamaşa başlanacaq axşam saat doqquzun yarısında. Biletlər satılır teatrın kassasında.

İtmişdir

Göyçay Əxzi-əsgər komisyonu tərəfindən Cəbrayıl Məşhədi Haşım oğlu Cəbrayılzadəyə 10 nisan [aprel] 1919 tarixi ilə 164 nömrəli, yaşı cəhətindən əsgərliyə düşməməyi xüsusunda verilmiş şəhadətnamə itib. Etibardan saqitdir [etibarsızdır].

5436

İtibdir

Nəsib Heydər oğlunun Tiflis quberniyasından aldığı pasportu itib. Etibardan saqitdir.

5433

İtibdir

Əsədulla Mirzəqəni oğlunun Şamaxıdan aldığı pasportu itib. Etibardan saqitdir.

5434

Bağ satılır

Pirşağıda Hacı Mirvahab Seyid Kamil oğlunun bağı, Hacı İmaməli oğlunun bağının yanında. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Tatarski, nömrə 33.

5435

Satılır

Dükan, elektrik işığı və hər bir əşyası ilə. Krasnokrestovski küçə, nömrə 22.

5432

İngilis motosiklet, yan arabası ilə (Motorio zavodu), beş at qüvvəsində, tamam mükəmməl surətdə olaraq satılır. Talib olan Nikolayevski küçədə "Təbriz" mehmanxanasında kontorda görə bilər.

5429

Diş həkimi S. M. Hamburq

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

10239

Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı

Bakı-Ənzəli

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

Bakı-Tazəşəhər (Krasnovodsk)

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

Bakı-Salyan

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri

17-ci körpüdən səşənbə günü saat 4-də.

Petrovsk-Fort-Aleksandrovsk və geri

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

Bakı-Petrovsk

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

T-164

Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

T-321

Arvad diş həkimləri Z. A. Şexter və xanım

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

10218

Berlin Darülfününu doktoru S. İ. Kopelioviç

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

10244

Doktor S. İ. Zaks

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

10237

Diş həkimi B. L. Levin

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

10257

Diş həkimi E. S. Karşteynbaumun

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir.

Doktor M. D. Mdivani

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

5425

Elan

Təzəpir məscidi cənbində [yanında] yarım binalı bir qitə yer, işbu iyul ayının 25-ci günündə müzayidə (torq) [hərrac] olacaqdır. Məlumat üçün Qəzavətxana [Qazılıq] idarəsinə müraciət etməlidir.

Müvəqqəti müdir: Xəlil İbrahimov

TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

Qismi-rəsmi

"Azərbaycan Dəmiryol Müdi-riyyətindən / Əmrnamə nömrə 66": qəzetdə bu iki sətirin yeri dəyişik düşmüşdür.

"Sovet Syezd": Bakı Neft Səna-yeçiləri Qurultayının rəhbər orqanı olan Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

Teleqraf xəbərləri

səh. 233. "Skapada": bu coğrafi ad qə-zetdə təhrif edilmişdir; Şotlandiyanın Orkney adalarında Skapa-Flou limanı nəzərdə tutulur. Birinci Dünya müharibəsindən sonra Almaniya hərbi-dəniz donanmasının bir hissəsi bu limanda qərq edilmişdir.

Qəzetələrdən

"Hindenburq": qəzetdə "Gindenburq" kimi getmişdir.

Türküstanda

"Tazəşəhər": Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbə-lərdəki adı.

Felyeton Nəşriyyatımızın əsbabi-tərəqqi və tədənnisi – 6

"Əğani": ərəb tarixçisi və ədibi Əbülfərəc İsfahaninin bəstəkarlar və müğən-nilər haqqında əsəri.

İsfahani, Əbülfərəc (897-967): ərəb ta-rixçisi və ədibi.

"İbnül-Əsir": Ərəb tarixçisi İbnül-Əsir İzzəddin əl-Cəzərinin ümumi tarix kitabı olan "əl-Kamil fit-tarix" nəzərdə tutulur.

"təbəqat": alimlərin, şairlərin, müxtəlif peşə sahiblərinin bioqrafiyalarının toplandığı kitablar.

"məqazi": din uğrunda müharibələrə (qəzalara) dair əsərlər.

"siyər": Həzrəti-Məhəmmədin həyatın-dan bəhs edən əsələr.

"Əbül-Fəda namı ilə məruf olan Həma əmirinin": qəzetdə belə getmişdir: "Həma əmirinin Əbül-Fəda namı ilə məruf olan". ("Həma" Suriyanın qərbində qədim şəhərin adıdır.)

"Səid əfəndi": İyirmisəkkizçələbizadə Məhməd Səid paşa nəzərdə tutulur.

"həkkak": müxtəlif sərt materiallar üzərində yazı yaxud şəkil naqş edən usta.

"Şeyxülislamla bərabər...": söhbət 1718-1730-cu illərdə Osmanlı şeyxülislamı olan Yenişəhərli Abdulla əfəndidən gedir.

"Sultansəlim": İstanbulun Avropa hissə-sində Fatih rayonunun məhəlləsi.

"Tərcümeyi-Tarixi-Səyyah": Polşa şərqşü-nas və səyyahı Tadeuş Krusinskinin İran tarixi haqqında əsərinin türk dilinə tərcüməsi.

"Tarixi-Hindi-qərbi əl-müsəmma bə hədi-si növ": Türk şairi və coğrafiyaşünası Məh-məd Süudi əfəndinin əsəri.

"Tarixi-Teymur Gürgan": Osmanlı tarixçisi Nəzmizadə Mürtəza əfəndinin Şəhabəddin İbn Ərəbşahdan tərcümə etdiyi əsər.

"Tarixi-Misri-qədim və Misri-cədid": Os-manlı tarixçisi Əhməd Süheylinin əsəri nəzər-də tutulur. "Tarixi-Misri-qədim" (Qədim Misir tarixi) və "Tarixi-Misri-cədid" (Yeni Mi-sir tarixi) əslində iki ayrı əsərdir.

"Gülşəni-xüləfa": Osmanlı tarixçisi Nəz-mizadə Mürtəza əfəndinin Bağdad tarixi haqqında əsəri.

"Üsulül-hikəm fi nizamül-ümən": İbra-him Mütəfərriqənin "siyasətnamə" üslubun-da qələmə aldığı əsəri.

"Füyuzati-miqnatisiyyə": İbrahim Mütə-fərriqənin əsəri.

"Tarixi-Naima": Osmanlı tarixçisi Naima-nın əsəri; qəzetdə təhrif edilmiş, "Tarixi-yəğma" kimi getmişdir.

"Tarixi-Raşid": Osmanlı şairi və tarixçisi Raşid Məhməd əfəndinin əsəri.

Bakı xəbərləri

"Əhməd Rasim imlası": Türk müəllifi Əhməd Rasimin məktəblilər üçün qələmə aldığı imla kitabı olan "İmlayi-Osmani"dəki imla qaydaları nəzərdə tutulur.

Azərbaycanda

"Evliykən subay": Zülfüqar bəy Hacıbəylinin musiqili komediya əsəri.

"Vahid təqvim planına uyğun olaraq keçirilən ölkə və beynəlxalq səviyyəli gənclər tədbirləri üçün vəsaitlərin xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 18 yanvar tarixli 7 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 365 **Bakı şəhəri, 29 oktyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Vahid təqvim planına uyğun olaraq keçirilən ölkə və beynəlxalq səviyyəli gənclər tədbirləri üçün vəsaitlərin xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 18 yanvar tarixli 7 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 51 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarın icrası ilə bağlı tələb olunan xərclərin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.".

2. Həmin Qərarla təsdiq edilmiş "Vahid təqvim planına uyğun olaraq keçirilən ölkə və beynəlxalq səviyyəli gənclər tədbirləri üçün vəsaitlərin xərclənməsi Qaydaları" üzrə:

2.1. 1-ci hissədə 1 nömrəli cədvəl aşağıdakı redaksiyada verilsin:

1 nömrəli cədvəl

Sıra №-si	Xərclər	Xərc normalarının yuxarı həddi (1 nəfər iştirakçı üçün)
1	2	3
1.	Müsabiqə, olimpiada, yarış və digər tədbirlərin qaliblərinin mükafatlandırılması	150 manat
2.	Dəftərxana, mətbəə və təsərrüfat xərcləri	25 manat
3.	Tədbirlər zamanı çay, qəhvə fasiləsi	15 manat

2.2. 2-ci hissədə 2 nömrəli cədvəl aşağıdakı redaksiyada verilsin:

2 nömrəli cədvəl

Sıra №-si	Xərclər	Xərc normalarının yuxarı həddi (1 nəfər üçün)
1	**2**	**3**
1. Mehmanxana xərcləri		
1.1.	Nümayəndə heyətinin rəhbəri, nazirlər və onlara bərabər tutulan şəxslər və digər fəxri qonaqlar üçün	5 ulduzlu (1 otaqlı "Yarımlüks" kateqoriya)
1.2.	Nümayəndə heyətinin üzvləri üçün	4 ulduzlu (1 otaqlı "Standart" kateqoriya)
2. Yemək xərcləri		
2.1.	Nahar yeməyi	50 manat
2.2.	Şam yeməyi	70 manat
2.3.	Tədbirlər zamanı çay, qəhvə fasiləsi	15 manat
3. Dəftərxana xərcləri		
3.1.	Nümayəndə heyətinin rəhbəri, nazirlər və onlara bərabər tutulan şəxslər və digər fəxri qonaqlar üçün	45 manat
3.2.	Nümayəndə heyətinin üzvləri üçün	25 manat
4. Azərbaycan Respublikasının tarixini və mədəniyyətini təcəssüm etdirən xatirə hədiyyələrinin alınması xərcləri		
4.1.	Nümayəndə heyətinin rəhbəri, nazirlər və onlara bərabər tutulan şəxslər və digər fəxri qonaqlar üçün	120 manat
4.2.	Nümayəndə heyətinin üzvləri üçün	40 manat

3. Bu Qərar 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Dövlət orqanlarının və tabeliyi olmayan publik hüquqi şəxslərin tabeliyində yaradılan publik hüquqi şəxslərin tabeliyində olan dövlət adından yaradılan və dövlət büdcəsindən vəsait alan publik hüquqi şəxslərin rəhbəri və rəhbərinin müavini vəzifələri üçün aylıq əməkhaqqı məbləğinin müəyyən edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 371 **Bakı şəhəri, 5 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət adından yaradılan və dövlət büdcəsindən vəsait alan publik hüquqi şəxslərin əməkhaqqı sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 629 nömrəli Fərmanının 2.1.2.1-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Dövlət orqanlarının və tabeliyi olmayan publik hüquqi şəxslərin tabeliyində yaradılan publik hüquqi şəxslərin tabeliyində olan dövlət adından yaradılan və dövlət büdcəsindən vəsait alan publik hüquqi şəxslərin rəhbərinin aylıq vəzifə maaşı 3600 manat, rəhbərin müavininin aylıq vəzifə maaşı 3115 manat məbləğində müəyyən edilsin.

2. Müəyyən edilsin ki, bu Qərarın 1-ci hissəsində qeyd edilən rəhbər işçilərin aylıq əməkhaqlarının məbləği həmin hissədə göstərilən aylıq vəzifə maaşından və normativ hüquqi aktlara uyğun olaraq müəyyən edilən digər ödənişlərdən ibarətdir.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 avqust tarixli 372 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təbii inhisar subyektlərinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 374 **Bakı şəhəri, 5 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 avqust tarixli 372 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 8, maddə 988; 2025, № 4 (I kitab), maddə 398, № 12 (II kitab), maddə 1209; 2026, № 4, maddə 385; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 8 sentyabr tarixli 273 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Təbii inhisar subyektlərinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 22-ci hissə aşağıdakı redaksiyada verilsin:

22.	"NAXÇIVAN POÇT VƏ TELEKOMMUNİKASİYA MƏRKƏZİ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ	universal poçt rabitəsi xidmətləri, ümumi istifadədə olan telefon rabitəsi xidmətləri, elektrik və ya elektromaqnit rabitə vasitələri (kabel, optik və ya radio əlaqəsi və digər oxşar vasitələr) ilə hər hansı siqnalın, səsin məsafəyə ötürülməsi və qəbul edilməsi üçün istifadə olunan müxtəlif növ vasitə və qurğuların istismarı üzrə fəaliyyət	Naxçıvan Muxtar Respublikası	0201789841

2. 23 -29-cu və 31-ci hissələr ləğv edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının tabeliyində "Daşkəsən Rayon Mənzil-kommunal Təsərrüfatı Müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 373 **Bakı şəhəri, 5 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 2.8-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Daşkəsən şəhər Kommunal Müəssisələri Kombinatı əsasında Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının tabeliyində "Daşkəsən Rayon Mənzil-kommunal Təsərrüfatı Müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra - Cəmiyyət) yaradılsın.

2. Cəmiyyətin işçilərinin say həddi 82 ştat vahidi müəyyən edilsin.

3. Cəmiyyətdə ümumi yığıncağın səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

3.1.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Cəmiyyətin yenidən təşkili və ləğv edilməsi;

3.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə:

3.2.1. Cəmiyyətin nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən olunması, onlarda dəyişiklik edilməsi;

3.3. Daşkəsən Rayon İcra Hakimiyyətinə:

3.3.1. bu Qərarın 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları və Cəmiyyətin nizamnaməsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Cəmiyyətin nizamnaməsinin təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi və dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

5. Daşkəsən Rayon İcra Hakimiyyəti:

5.1. Cəmiyyətin nizamnaməsi və nizamnamə kapitalının miqdarı ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin;

5.2. Cəmiyyətin dövlət qeydiyyatına alınması üçün nizamnaməsi təsdiq edildikdən sonra üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

5.3. bu Qərardan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 2 may tarixli 140 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məhkəmə Ekspertlərinin Reyestrinin aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 376 **Bakı şəhəri, 6 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 2 may tarixli 140 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 707 (Cild I) ilə təsdiq edilmiş "Məhkəmə Ekspertlərinin Reyestrinin aparılması Qaydaları"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci bənddə birinci halda "1-13-cü" sözləri "1-6-cı, 8-12-ci" sözləri ilə əvəz edilsin.

2. 2.7.1-ci yarımbənd üzrə:

2.1. 5-ci abzasdan ", fotoşəkli (3x4 sm ölçüdə)" sözləri çıxarılsın;

2.2. 7-ci və 13-cü abzaslar ləğv edilsin.

3. 2.7.2-ci yarımbəndin 2-ci abzasından ", fotoşəkli (3x4 sm ölçüdə)" sözləri çıxarılsın.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında Zəfər Günü qeyd olunub

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən Əmək və Sosial Münasibətlər Akademiyasında (AƏSMA) 8 Noyabr - Zəfər Gününə həsr olunmuş "Zəfər tarixi" tədbiri keçirilib.







Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Konfederasiya sədrinin müavini Musa Mirzəyev çıxışında Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan misilsiz Qələbədən, ordumuzun Vətən müharibəsində keçdiyi şanlı döyüş yolundan danışıb.

Vurğulanıb ki, Zəfərimiz dövlətimizin gücünü və xalqımızın iradəsini bütün dünyaya bir daha nümayiş etdirməklə yanaşı, gələcək nəsillər üçün də əsl vətənpərvərlik, birlik və mübarizlik nümunəsidir. Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, həyatın yenidən canlanması qazanılmış Qələbənin yaratdığı imkanların real nəticəsidir.

Akademiyanın rektor vəzifəsini icra edən Fərid Babayev çıxışında qazanılmış parlaq Qələbədən, onun tarixi əhəmiyyətindən söz açıb, bu möhtəşəm Zəfərin Vətən sevgisinin, milli birliyin və ədalətin təntənəsi olduğunu, sarsılmaz iradəni və qəhrəmanlığı təcəssüm etdirdiyini diqqətə çatdırıb.

Tədbir akademiyanın tələbələrinin təqdimatında "Hədəfdə Zəfər" bədii kompozisiyası ilə davam edib. Kompozisiyada Azərbaycanın şanlı Zəfər tarixi, Vətən müharibəsində xalqımızın birliyi və qəhrəmanlığı, şəhidlərimizin əziz xatirəsi bədii ifadəsini tapıb.

Qeyd edək ki, konfederasiyanın Zəfər Gününə həsr olunmuş tədbirlər proqramı çərçivəsində AHİK-in, üzv və tabe təşkilatların əməkdaşları parlaq Qələbə ilə başa çatan Vətən müharibəsindən bəhs edən "44" bədii filmini də izləyiblər.

Nərminə ƏSGƏROVA,
"Azərbaycan"

Gəncədə Nizami Gəncəvinin 885 illiyi beynəlxalq tədbirlərlə qeyd edilib

İlk tədbir AMEA-nın Gəncə Bölməsində "Azərbaycan və dünya nizamişünaslığının aktual problemləri" mövzusunda II Beynəlxalq elmi konfrans olmuşdur.





Azərbaycan Milli Elmlər Akademiyasının və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, AMEA-nın Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin, Azərbaycanın Türkiyə və Özbəkistandakı səfirlikləri nəzdindəki mədəniyyət mərkəzlərinin birgə təşkilatçılığı ilə keçirilən konfransda Azərbaycan, Türkiyə, Özbəkistan, İran, Livan, Hindistan, Litva, Pakistan, Almaniya və Rusiyanın Kalmıkiya Respublikasından alim və tədqiqatçılar iştirak etmişlər.

Tədbirin açılışında AMEA Rəyasət Heyətinin üzvü, akademiyanın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyevin və Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının sektor müdiri Yadigar Bədəlovun çıxışları dinlənilmişdir. Sonra AMEA-nın Gəncə Bölməsinin elmi işlər və rəqəmsal inkişaf üzrə sədr müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Əlimuxtar Muxtarovun moderatorluğu ilə konfransın plenar iclası keçirilmişdir. Plenar iclasda Nizami Gəncəvinin yaradıcılığı, fəlsəfi irsi, dünya ədəbiyyatına təsiri, multikultural dəyərlər və müasir nizamişünaslığın tədqiqat istiqamətləri müzakirə olunmuşdur. Bununla yanaşı, Nizami Gəncəvi Muzeyində "Nizami Gəncəvi və bəşəri dəyərlər: Mədəniyyətlərarası dialoq və ortaq irs" mövzusunda beynəlxalq simpozium təşkil edilmişdir.

Şairin yubileyi ilə bağlı simpozium isə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin, Gəncə Şəhər İcra Hakimiyyətinin və Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin dəstəyi, Nizami Gəncəvi Muzeyi ilə AMEA-nın Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin birgə təşkilatçılığı, Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun, GDU-nun nəzdində Regional Kollecin və "Etno Miras" Araşdırma və Tədqiqat Mərkəzinin tərəfdaşlığı ilə keçirilmişdir. Müxtəlif ölkələri təmsil edən nizamişünas alimlər, professorlar, tədqiqatçılar və mədəniyyət xadimlərinin iştirak etdikləri simpoziumda Nizami Gəncəvinin ədəbi-fəlsəfi irsi, yaradıcılığında əksini tapan ümumbəşəri dəyərlər, dünya ədəbiyyatına və mədəniyyətinə verdiyi töhfələr, eləcə də mədəniyyətlərarası dialoqun inkişafında Nizami Gəncəvi irsinin rolu ətrafında fikir mübadiləsi aparılmışdır.

Sabir ƏLİYEV,
"Azərbaycan"

8 Noyabr - Zəfər Gününə həsr olunmuş fləşmob təşkil edilib

Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, Gənclər və İdman Nazirliyinin tərəfdaşlığı ilə Azərbaycan Könüllü Təşkilatları İttifaqı (AKTİ) tərəfindən Zəfər Gününə həsr olunmuş fləşmob keçirilib. Fləşmobda Azərbaycan könüllülərinin iştirakı ilə Zəfər abidəsi əks olunub.



AZƏRTAC xəbər verir ki, fləşmobun məqsədi 8 Noyabr - Zəfər Gününün tarixi əhəmiyyətini və xalqımızın Vətən müharibəsində qazandığı möhtəşəm Qələbəni təbliğ etmək, gənclər arasında vətənpərvərlik ruhunu gücləndirmək, həmçinin Azərbaycan könüllülərinin Vətənə sevgi və dövlətçilik dəyərlərinə sadiqliyini nümayiş etdirmək olub.

BEYNƏLXALQ HƏYAT

Qlobal səhm bazarlarında kəskin azalma baş verib

ABŞ-də keçirilən konqresə aralıq seçkilərində Demokratlar Partiyasının qələbəsi və süni intellekt layihələrinin inkişafının ləngidilməsi ilə bağlı çağırışlar qlobal texnologiya bazarında ciddi dalğalanmaya səbəb olub. Nəticədə aparıcı texnologiya şirkətlərinin bazar dəyərindən trilyonlarla dollar silinib.



BBC-nin məlumatına görə, ABŞ və Asiya birjalarında böyük itkilər olub. Nyu Yorkda texnologiya şirkətlərinin "Nasdaq" indeksi 5,5 faizdən çox düşərək 2,5 trilyon dollar dəyər itirib. Bu, 2025-ci ildən bəri ən böyük birgünlük enişdir. Çip və süni intellekt şirkətlərinin səhmləri kəskin ucuzlaşıb. "Nvidia" 400 milyard dollardan çox dəyər itirib və səhmləri 9 faizdən çox düşüb. AMD və "Micron" şirkətlərinin səhmləri 17 faizdən çox geriləyib. İlon Maskın "Tesla" və "SpaceX" şirkətlərinin ümumi dəyəri 300 milyard dollardan çox azalıb. Asiya bazarlarında da ciddi azalma baş verib. Belə ki, Yaponiyanın "Nikkei 225" indeksi 6,3 faiz, Cənubi Koreyanın "Kospi" indeksi isə 8 faizdən çox aşağı düşüb. Panikanın qarşısını almaq üçün Seul birjasında ticarət müvəqqəti saxlanılıb.

Azalmanın iki əsas səbəbi var. Birincisi, ABŞ-də seçkiləri qazanan demokratların süni intellekt və data mərkəzlərinə məhdudiyyət qoyacağı gözlənilir. Çünki onlar bu mərkəzlərin ətraf mühitə zərər vurduğunu, çox enerji işlətdiyini və iş yerlərini azaldacağını bildirirlər. İkincisi, investorlar süni intellektə yatırılan böyük pulların tezliklə gəlir gətirməyəcəyindən narahatdırlar.

Sülh bəyanatlarla deyil, real addımlarla qurulur

Paşinyan həqiqi barış istəyirsə, vaxt qazanmaq taktikasından əl çəkib konkret işlər görməlidir

Cənubi Qafqazda formalaşan yeni reallıqlar fonunda Azərbaycan və Ermənistan arasında sülhün hüquqi təmini regional sabitliyin ən mühüm şərtidir. 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbədən və 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycan tərəfi bölgədə davamlı sülhün bərqərar olunması üçün aydın strategiya ortaya qoyub. Ermənistanın baş naziri Nikol Paşinyanın son dövrlərdə ardıcıl səsləndirdiyi fikirlər, bəyanatlar və sülh ritorikası cəlbedici görünsə də, sülh prosesi sözlərlə deyil, praktiki və əməli addımlarla ölçülür.



N.Paşinyanın 2027-ci il Ermənistanın dövlət büdcəsi layihəsinin ilkin müzakirələri zamanı səsləndirdiyi son açıqlamaları da məhz ziddiyyətli mənzərəni bir daha gözlər önünə sərir. Paşinyan öz çıxışında Azərbaycanla münasibətlərin gələcəyi barədə danışarkən bildirib ki, artıq münaqişə gündəmi olmayacaq: "Ən azı biz gündəliyi belə başa düşmüşük". Baş nazirin "optimist" bəyanatlarla çıxış etməsi sülhün artıq "qapıda olduğu" təəssüratını yaratmağa hesablanıb. Lakin münasibətlərdə münaqişə gündəliyinin tamamilə aradan qalxması üçün təkcə niyyətlərin ifadə olunması kifayət etmir. Azərbaycanın tələb etdiyi və haqlı olaraq üzərində dayandığı əsas məqam odur ki, gələcəkdə revanşizm risklərini sıfıra endirəcək hüquqi və siyasi bazaların yaradılması mütləqdir. Ermənistanın mövcud konstitusiyasında və digər normativ-hüquqi aktlarında Azərbaycana qarşı ərazi iddialarını özündə ehtiva edən bəndlər qaldığı müddətdə "münaqişə gündəmi bitib" demək tezdir.

Paşinyan daxildə müxalifətlə mübarizəsinə və yeni konstitusiya məsələsinə də toxunaraq mövqeyini belə izah edib: "Əgər müxalifətin buna qarşı çıxdığı məlum olarsa, bu, Azərbaycanla yekun sülhün əleyhinə çıxmaq olacaq. Belə olan halda müxalifətə qarşı birmənalı şəkildə ictimai təzyiq formalaşacaq. Əgər cəmiyyətdə belə bir əhvali-ruhiyyə yaranarsa, hakim çoxluq bu təzyiqə rəhbərlik etməlidir". Göründüyü kimi, Paşinyan hökuməti konstitusiya dəyişikliyi kimi vacib məsələni daxili siyasi çəkişmələrin, müxalifətlə polemikaların predmetinə çevirməyə çalışır. Bakı üçün isə Ermənistandakı daxili hakimiyyət-müxalifət oyunları deyil, konkret nəticə önəmlidir. Yəni Ermənistan konstitusiyasından Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə təhdid yaradan maddələrin çıxarılması daxili ictimai təzyiqlərin nəticəsi kimi deyil, İrəvanın beynəlxalq hüquqdan doğan birbaşa öhdəliyi kimi icra edilməlidir. Paşinyan sülh prosesini siyasi mülahizələrlə uzatmamalı, konkret hüquqi addımlar atmalıdır.

Digər vacib məsələ regional kommunikasiyaların açılması və Zəngəzur dəhlizi (TRIPP) kimi strateji layihələrin icrasıdır. Paşinyan regional layihələrlə bağlı hökumətin planlarını belə bəyan edib: "Ermənistan hökuməti faktiki olaraq artıq "Tramp marşrutu" (TRIPP) layihəsinin icrasına başlayıb. TRIPP layihəsi çərçivəsində dəmir yolu, avtomobil yolu və elektrik ötürücü xətlərinin layihələndirilməsi işlərini sifariş etməyə başlayacağıq. Vaxt itirmək istəmirik". Əlbəttə ki, nəqliyyat və logistika xəritəsinin yenidən qurulması, kommunikasiyaların bərpası həm Azərbaycanın, həm də bütövlükdə regionun maraqlarına cavab verir. Lakin burada da əsas məsələ kağız üzərindəki layihələndirmə və ya təşəbbüslə bağlı bəyanatlar deyil, görülən real işlərdir.

Azərbaycan öz ərazisində bütün lazımi infrastruktur layihələrini - dəmir yollarını, avtomobil magistrallarını ən qısa müddətdə tamamlayıb və ya başa çatdırmaq üzrədir. Ermənistan isə uzun illərdir ki, müxtəlif adlar altında vaxt udmağa, öhdəliklərindən boyun qaçırmağa cəhd edir. Paşinyanın "vaxt itirmək istəmirik" sözləri real, aydın qrafik və praktiki addımlarla dəstəklənməlidir. Azərbaycanın əsas nəqliyyat və logistika yollarının maneəsiz, təhlükəsiz və uzlaşdırılmış şəkildə fəaliyyət göstərməsi İrəvanın hansı adlar altında çıxış etməsindən asılı olmayaraq konkret icra mexanizmlərini tələb edir.

Bakının birmənalı və qətiyyətli mövqeyi dəfələrlə ən yüksək səviyyədə bəyan edilib. Azərbaycan formal sənədlərin və ya vaxt qazanmaq məqsədi güdən diplomatik manevrlərin tərəfdarı deyil. Azərbaycan Ermənistandan səmimi, davamlı və geridönməz sülhə yönəlmiş addımlar gözləyir. Bu addımlar ilk növbədə Ermənistan konstitusiyasının yenilənməsi, Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarının birdəfəlik ləğvi, sərhədlərin delimitasiya və demarkasiyası prosesinin dürüst aparılması və nəqliyyat koridorlarının qeyd-şərtsiz açılmasıdır.

Cənubi Qafqazda tarixi sülh imkanı yaranıb və bu fürsətin əldən verilməsi ilk növbədə Ermənistanın özü üçün ağır nəticələr doğura bilər. Paşinyanın "pozitiv" bəyanatları, gələcəyə dair "nikbin" proqnozları yalnız o zaman dəyər qazanacaq ki, onlar masa arxasında imzalanacaq hərtərəfli sülh müqaviləsinə və yerində icra edilən praktiki layihələrə çevriləcəkdir. İrəvan üzərinə düşən tarixi öhdəliklərdən yayınmamalı, prosesi süni şəkildə uzatmamalı və Bakının real addımlara söykənən ədalətli tələblərini cavablandırmalıdır. Çünki regional sabitlik cəsarətli və real siyasi qərarlarla qurulur.

İsmayıl QOCAYEV,
"Azərbaycan"

Makrona etimad ən aşağı səviyyəyə düşüb



Fransa Prezidenti Emmanuel Makronun xalq arasındakı nüfuzu son 50 ilin ən aşağı səviyyəsinə düşərək keçmiş prezident Fransua Ollandın rekordunu çatıb.

"Caliber"in məlumatına görə, "Verian" sorğu şirkətinin keçirdiyi son rəy sorğusuna əsasən, fransalıların 11 faizi Makronun fəaliyyətini bəyənir. Bu, 1970-ci illərdən bəri ölkə rəhbərləri üçün qeydə alınan ən aşağı göstəricidir.

Fransada narazılığın artmasına əsas səbəb kimi pensiya yaşının qaldırılması və 2024-cü ildə parlamentin buraxılmasından sonra yaşanan siyasi böhran göstərilir.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

Şimal-qərb küləyi güclənəcək

Bu günə gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyinin güclənəcəyi ehtimal edilir.



Havanın temperaturu gecə 6-8, gündüz 8-11 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 771 mm civə sütununa yüksələcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi arabir güclənəcək.

Havanın temperaturu gecə 5-9, gündüz 11-15 dərəcə isti, dağlarda gecə 2-6, gündüz isə 0-2 dərəcə şaxta olacaq.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Sevinc Hüseynovaya həyat yoldaşı

HACI İSAQ HƏSƏNZADƏNİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsinin kollektivi Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımova anası

ŞƏFƏQ XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və komitə üzvləri Elşad Musayev, Səttar Möhbalıyev, Ziyad Səmədzadə, Jalə Əliyeva, Nigar Məmmədova, Vüqar Bayramov, Soltan Məmmədov, Əziz Ələkbərov, Bədəl Bədəlov, Göydəniz Qəhrəmanov və Milli Məclis Aparatının əməkdaşları İlahə Mehrəliyeva, Hüseyn Əliyev, Yusif Hüseynli Milli Məclisin deputatı Sevinc Hüseynovaya həyat yoldaşı

İSAQ HƏSƏNZADƏNİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və	
Baş redaktor müavinləri	- 538-86-86, 538-35-55	informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Məsul katib	- 539-43-23,	Humanitar siyasət şöbəsi	- 538-56-60, 434-55-58
Məsul katib müavinləri	- 539-44-91,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Kompüter mərkəzi	- 538-20-87,
İqtisadiyyat şöbəsi	- 538-42-32	Mühasibatlıq	- 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3277
Sifariş 1494

Qiyməti 60 qəpik